

“İrəvanda xal qalmadı” mahnısı necə yaranıb?

Səh: 7-də



İqtisadiyyatımızın dünya səviyyəsində təhlili...

Səh: 8-də



Məmməd Araz səhvimi bağışladı...

Səh: 11-də

**Azərbaycan Qarabağ - Qarabağ Azərbaycandır!**


www.tezadlar.az

# TƏZADLAR

tezadlar@gmail.com





№07 (2395) * 18 noyabr 2025-ci il * İctimai-siyasi hüquq qəzeti * Qəzet 1993-cü ildən çıxır * Qiyməti 50 qəpik

# Adil Kərimlinin nazirliyində daha bir qalmaqal: ailə institutuna müdaxilə və...



*“Ümid edirəm ki, qarşılaşdığımız bu ağlasığmaz hərəkətlərin əsaslı cavabı olacaq”*

Bax: səh.4



*“SİMA” artıq 3,6 milyon istifadəçi tərəfindən qəbul edilib”*

Bax səhifə 2

Nazirdən tamştatlı müəllimlərlə bağlı növbəti açıqlama ✓2

Ağdamda “Çay Evi”nin təməli qazılır və öz tarixi yerində bərpa ediləcək... ✓3

Həkimlikdən qovulan saxta diplomlu ginekoloq nazir olmaq istəyirmiş? ✓3

Mədəniyyət Nazirliyindəki problemlər həllini tapmasa... ✓6

“Beyin insanın görünməyən güzgüsüdür...” ✓12-13

Əsrin şairi, zamanın sözü ✓13

Bax səh.2

# Goranboy RİH-dən dava ilə bağlı açıqlama

Bax səhifə 3



Bu dünyadan Şahin Babayev keçdi: səssiz-səmirsiz, lakin böyük hörmət, rəhmət qazanaraq

Bax səhifə 5



Mədəniyyət Nazirliyinin Mənzəri...

## Dabaq xəstəliyi kimə işləyir: xaricdən buzlu ət gətirənlərə, yoxsa...

✓5



“Kitab bazarında nəinki həmkarlıq yaradıblar, əksinə, yaratdıqları intriqalar nəticəsində naşirlər bir-birinə nifrət edir” ✓3



«Sınaq poliqonu”na çevrilmiş Azərbaycan təhsili ✓9

# Ukrayna Azərbaycandan qaz almaq istəyir



**"Ukrayna Azərbaycandan təbii qaz alması üçün fəal iş görür".**

Bu barədə Ukrayna Prezidenti Volodimir Zelenski feysbuk səhifəsində yazıb.

**"Qış tədarükü üçün geniş imkanlar yaradırıq. Xüsusilə polşalı tərəfdaşlarımız vasitəsilə biz Azərbaycanla fəal işləyirik. Uzunmüddətli müqavilələrə ümid edirik"**, - deyə Zelenski vurğulayıb.

# "SİMA" artıq 3,6 milyon istifadəçi tərəfindən qəbul edilib"



**"Azərbaycan bu gün 100 faizlik genişzolaqlı internet əhatə dairəsi ilə regionda lider mövqe tutur. Rəqəmsal şəxsiyyət sahəsində də ölkəmiz qabaqcıl ölkələr sırasındadır".**

Bunu Azərbaycan Prezidenti İlham Əliyev Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının iştirakçılarına müraciətində bildirib.

Dövlət başçısı vurğulayıb ki, "SİMA" adlı biometrik rəqəmsal imza sistemi artıq 3,6 milyon istifadəçi tərəfindən qəbul edilib, 80-dən çox dövlət informasiya sisteminə inteqrasiya olunub: **"Təsadüfi deyil ki, Azərbaycan BMT-nin "Elektron Hökumətin İnkişafı İndeksi"nin ən yüksək kateqoriyası qrupuna daxil olmuşdur. Məqsədimiz növbəti beş il ərzində bu indeksdə ilk 40 ölkə sırasında yer almaqdır".**

# "Həmin siyahıya İranı da əlavə edə bilərlər"

**ABŞ Prezidenti Donald Tramp Rusiya ilə əməkdaşlıq edən ölkələrə qarşı sanksiyaların tətbiqini nəzərdə tutan qanun layihəsini dəstəklədiyini bildirib.**



Bununla bağlı xarici KİV məlumat yayıb.

**"Respublikaçılar Rusiya ilə biznes aparan istənilən ölkəyə qarşı çox sərt sanksiyaları nəzərdə tutan qanun layihəsi təqdim ediblər, oraya İranı da əlavə edə bilərlər"**, - ABŞ lideri bildirib.

Tramp əlavə edib ki, qanun layihəsinə İranla bağlı məhdudiyyətlərin əlavə edilməsi təklifi ona məxsusdur.

# "Cənubi Qafqazda sülhün əldə olunmasına az qaldı" - Hakan Fidan

**"Cənubi Qafqazda davamlı sülhün əldə olunmasına çox az qalıb".**

Bu sözləri Türkiyənin xarici işlər naziri Hakan Fidan "A Haber" telekanalına müsahibəsi zamanı deyib.

Onun sözlərinə görə, Bakı ilə İrəvan arasında ilkin sülh razılaşması ABŞ-nin paytaxtı Vaşinqtonda, Prezident Donald Trampın vasitəçiliyi və iştirakı ilə razılaşdırılıb:



**"Vaşinqton Cənubi Qafqazdakı gedişatı diqqətlə izləyir".**

# Almanlar Mertsin siyasətindən narazıdırlar



**Almaniya kansleri Fridrix Mertsin nəticə verməyən siyasəti hökumətin vaxtından əvvəl buraxılmasına səbəb ola bilər.**

Bu barədə "Bloomberg" agentliyi məlumat yayıb.

Nəşrin yazdığına görə, Mertsin rəhbərlik etdiyi CDU/CSU fraksiyasında belə onun açıqlamalarının effektivliyi şübhə altına alınır və siyasətinin real nəticə vermədiyi vurğulanır.

Agentlik qeyd edib ki, hazırkı hökumətin miqrasiya və iqtisadiyyat kimi əsas problemləri həll edə bilməməsi "Almaniya üçün Alternativ - AfD" partiyasının populyarlığını artırıb və ölkədə yenidən vaxtından əvvəl hökumət buraxılması ehtimalını gücləndirib.

Bundan əlavə, qeyd olunub ki, keçirilən sorğulara əsasən, almanların yalnız 18%-i Mertsin 2029-cu ildə yenidən kanslerliyə namizəd olmasını dəstəkləyir.

Xatırladaq ki, 2024-cü ildə Almaniyanın əvvəlki koalisiyası da eyni səbəbdən süquta uğramışdı.

# Nazirdən tamştatlı müəllimlərlə bağlı növbəti açıqlama

**"Hazırda üzərində işlədiyimiz yanaşma budur ki, tamştatlı müəllimin əməkhaqqısı ölkə üzrə orta əməkhaqqıdan ən azı iki dəfə yüksək olsun".**



Bunu elm və təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında bildirib.

**"Mövcud saathesabı əməyin ödənilməsi sistemi saxlanılsa da, alternativ olaraq tamştatlı müəllim anlayışını Azərbaycan məktəblərinə gətirmək üzərində çalışırıq. Çünki hazırkı statistika müəllimlərin 4-6 saat dərs yükü ilə aldığı əməkhaqqını ümumi göstəriciyə aid edir. Bu da özlüyündə yanlış təsəvvür yarada bilir. Eyni zamanda müəllimin öz əməkhaqqısını artırması üçün yalnız daha çox dərs saatı götürməsi kimi məcburi bir mexanizm doğru deyil və dəyişməlidir.**

**Məqsədimiz ondan ibarətdir ki, Azərbaycan müəllimi məktəbin tamhüquqlu bir hissəsi olduğunu hiss etsin. Yeni hesablanma mexanizmini niyə tətbiq edirik və bununla hansı problemi həll etməyə çalışırıq? Bütün bu məsələlərlə bağlı yaxın günlərdə geniş ictimai məlumatlandırma aparmağı planlaşdırıram. Bu barədə xüsusi şəkildə geniş izah veriləcək ki, əsassız şərhlərə ehtiyac qalmasın".**

Qeyd edək ki, nazir daha əvvəl də açıqlamasında sertifkatlaşdırmaya yanaşmanın müəllimliyin saathesabı, yarımştat, hərdənbir məktəbə gəlib dərs demək işindən daimi iş rejiminə keçmək olduğunu bildirmişdi. Qeyd etmişdi ki, tamamilə rəqabətli, yüksək əməkhaqqısı olacaq və daimi ştatda olan müəllimin dərs yükü 18 saat olacaq. Yerdə qalan saat hissələrində isə təhsilə aid digər işlərlə məşğul olacaq. Hansı müəllim istəsə ki, yüksək əməkhaqqı ilə işləsin, onlar üçün tətbiq olunacaq.



# Bakı Hərbi Məhkəməsinə yeni hakimlər ezam olundu

**Bakı Hərbi Məhkəməsinə yeni hakimlər ezam edilib.**

Bu barədə müvafiq qərar qəbul olunub. Ezam olunan hakimlər Suraxanı Rayon Məhkəməsindən Pərviz Muradov və Lənkəran Şəhər Məhkəməsindən Murad Aslanovdur.

# Goranboy RİH-dən dava ilə bağlı açıqlama

**Goranboy Rayon İcra Hakimiyyəti RİH binasında baş vermiş insidentlə bağlı açıqlama yayıb.**



Goranboy Rayon İcra Hakimiyyətinin inzibati binasında 05 noyabr 2025-ci il tarixində keçirilən vətəndaş qəbulu zamanı Qızılhacılı qəsəbə sakini İsgəndərov Afiq Xanış oğlu, qanunsuz istifadə etdiyi ümumi istifadəli örüş torpaq sahələri, həmin torpaq sahələrində apardığı qanunsuz tikililər və ağac kəsimi ilə bağlı yerli bələdiyyə tərəfindən rayon Polis Şöbəsinə müraciət olunduğunu bildirib, buna görə həmin torpaq sahələrinin sənədləşdirilməsini və qanunsuzluqlarına göz yumulmasını təkidlə tələb edib.

RİH Başçısının müavini Zaur Əliyev bununla bağlı, mövcud qanunvericiliyin tələblərini vətəndaşa izah etməyə çalışıb, lakin A.İsgəndərov qeyri-qanuni tələblərini uca səslə davam etdirmiş və münaqişə yaratmağa cəhd göstərib.

Bu barədə müvafiq Akt tərtib edilib və aidiyyəti üzrə rayon Polis Şöbəsi tərəfindən aparılmış qanunamüvafiq araşdırmanın nəticəsində məhkəmə qərarına əsasən, A.İsgəndərov barəsində 6 sutka inzibati həbs tədbiri görülüb.

Məlumat üçün bildiririk ki, A.İsgəndərov su idarəsinin icraçı direktoru deyil, Qızılhacılı Sudan İstifadəedənlər Birliyinin əməkdaşıdır".

Qeyd edək ki, A.İsgəndərov məhkəmədə özünü Goranboy Su və Melorasiya İdarəsinin icraçı direktoru kimi təqdim edib.



# Ad gününü Bakıda yox, Londonda keçirib...

**Noyabrın 13-ü sabiq mədəniyyət naziri Əbülfəs Qarayevin 69 yaşını Bakıda dəbdəbəli ad günü məclisi ilə qeyd etməsi barədə məlumatlar yayılıb.**

Tezadlar.az xəbər verir ki, Manset.az yayılan məlumatla bağlı Əbülfəs Qarayevlə əlaqə saxlayıb.

Keçmiş nazir iddiaları təkzib edərək hazırda ölkə xaricində olduğunu bildirib: **"Mən hazırda Azərbaycanda deyiləm. Bir həftədir Londondayam. Burada mühazirəm olacaq, ona görə də İngiltərəyə gəlmişəm. Burada indi saat 6-dır, indi yuxudan oyanmışam".**

Qeyd edək ki, Ə.Qarayev 2006-2020-ci illərdə mədəniyyət naziri vəzifəsində çalışıb.

# "Napoli" - "Qarabağ" oyununa bilet satışı bu tarixdə dayandırılacaq

**"Qarabağ" komandanı UEFA Çempionlar Liqasının Liqa mərhələsində "Napoli" ilə İtaliyadakı oyunda dəstəkləmək istəyən azarkeşlərinə müraciət edib.**

Klubun yaydığı açıqlamada bildirilib:

"Bizdən asılı olmayan səbəblərə görə noyabrın 21-dən sonra vauçerlərin satışı dayandırılacaq. "Napoli" - "Qarabağ" matçını "Stadio Diego Armando Maradona" stadionunda izləmək və komandamızı dəstəkləmək istəyən azarkeşlər üçün ayrılmış vauçerlərin satışı iTicket.az-da davam edir. "Napoli" ilə səfər oyununa bilet əldə etmək üçün son 4 gün qaldı".

Qeyd edək ki, "Napoli" - "Qarabağ" oyunu noyabrın 26-sı Bakı vaxtı ilə 00:00-da, yerli vaxtla isə (İtaliya) 25 noyabr saat 21:00-da start götürəcək.



# "Kitab bazarında nəinki həmkarlıq yaradıblar, əksinə, yaratdıqları intriqalar nəticəsində naşirlər bir-birinə nifrət edir"

## Nigar Köçərli də Mədəniyyət Nazirliyinə sitəm etdi...

**...Nura Suri ilə fəxr edirəm. Mədəniyyət Nazirliyində baş verənlərə etiraz edir. Baxmayaraq ki, incəsənət adamıdır və müəyyən məqamlarda onlardan çox asılıdır.**



Tezadlar.az xəbər verir ki, bu sözləri "Əli və Nino" kitab mağazaları şəbəkəsinin qurucusu Nigar xanım Köçərli sosial media hesabında bildirib.

Nigar Köçərli kitab sektorunda da eyni vəziyyətin hökm sürdüyünü, lakin heç kəsin səsini çıxarmağa hünəri çatmadığını vurğulayıb. Lakin özü bu barədə yazıb:

"Təəsüf ki, kitab sektorunda daha da dəhşətli şeylər baş verir və hamı bununla bağlı susur. Mədəniyyət Nazirliyi nəinki ortalığa normal bir iş qoya bilir, əksinə, bütün var-gücüylə real iş görənlərə manea yaradır (Bakı Beynəlxalq Sərgisində baş verənləri gördünüz). Kitab bazarında nəinki həmkarlıq yaradıblar, əksinə, yaratdıqları intriqalar nəticəsində naşirlər bir-birinə nifrət edir.

Manipulyasiya üçün bir neçə üslubları var - Nura xanım yazdığı kimi, eynən. Məsələn, ildə bir neçə dəfə xaricə beynəlxalq səfərlər olur dövlət hesabına. Cox biabırçı şəkildə təşkil olunur. Görsəydiniz, stendimiz necə sönük və maraqsızdır, kimləri aparırlar. Təbii ki, ilk növbədə özlərini - geniş tərkiblə, ən bahalı otellərdə. Sonra, məsələn, AzTV-dan yekəbaş aparıcını və digər dəxli olmayan adamları. Və ən sonda 2-3 özünü yaxşı aparan (yani, yaltaqlanan) naşirləri. Bir az özünü pis apardın, nəyəsə etiraz elədin - çıxardırlar səni siyahıdan (Kimsə fikirləşsə ki, mən özümü nəzərdə tuturam - yox, mənim adım elə qara siyahıdadır ki, özümü Voldemort kimi hiss edirəm... 20.ildir ki, bütün xarici sərgilərə öz hesabıma gedirəm, şükürlər olsun, kiminsə əlini öpmək məcburiyyətində deyiləm).

London, Frankfurt, Bolonya, İstanbul və s. - yüzminlərlə pul səpələnir dəxlisiz deleqasiyalara, otellərə, uçuşlara, nəticədə isə ən mənasız, ən sönük stend bizimdir. Əsl biabırçılıqdır! Əzizlərim, bu cür tədbirlər ölkəni, onun mədəniyyətini tanıtmaq üçündür. Sizi bahalı restoranlarda və otellərdə gəzdirmək üçün deyil. Və əsası, ən biabırçı məqam - xarici sərgilərdə xaricilər yaxınlaşıb hansı kitaba baxsınlar? Axı bizim dünya kitab bazarında təqdim etmək üçün heç bir kitabımız yoxdur!

Gürcüstanın stendi illərdir ki, partdadır. Çox maraqlı kitabları var, yazıçıları beynəlxalq kitab bazarında artıq neçə ildir ki, tanınırlar, mükafatlar alırlar. Gürcüstanda çoxdan naşirlər və yazıçılar üçün dəstək proqramları yaradıblar, bütün dünyaya tanıdırlar. Biz isə..

Real işlərlə məşğul olun, intriqalarla yox!", - deyə xanım Köçərli qeyd edib.

Qeyd edək ki, ötən gün müğənni Nura Suri Mədəniyyət Nazirliyi ilə bağlı maraqlı açıqlama verib.

Sitat: "Mədəniyyət Nazirliyinin keçirdiyi bütün tədbirlərdə biz, müğənnilər, dövlət tədbiridir deyə pulsuz oxumuşuq. Əvəzində isə heç kəsə lazım olmayan diplomlar veriblər - 2004-2022-ci illər ərzində. Sonradan xəbər tutduq ki, dövlət bu tədbirlər üçün vəsait ayırırmış, lakin həmin pulları Mədəniyyət Nazirliyində çalışanlar mənimsəyirmiş... Akademik Musiqili Teatrda həm də Əliqismət bəylə bu barədə danışılmışdı (sübutlarım da var). Çəkiliş qrupu artıq çəkiliş üçün yerləri müəyyən etmişdi və biz ödənişi də etməyə hazır idik, amma nazirlikdən icazə ala bilmədik. Mənzərin məndən xoşu gəlmir deyə (Mədəniyyət Nazirliyinin Tədbirlərin təşkili şöbəsinin müdiri Mənzər Nurəliyeva). Mədəniyyət Nazirliyinin nəzdində olan teatr, muzey və digər qurumlarda yalnız pul ödəyib çəkiliş aparmaq mümkündür. Bundan əlavə, nazirliyə rəsmi məktub göndərib aylarla cavab gözləməli oluruq. Biz müğənnilər üçün bu, çox çətin və ədalətsiz vəziyyətdir. Amma "bəygəlin" çəkilişləri üçün heç bir problem yoxdur - pulunu ödə, çəkilişini et. Sonradan öyrəndik ki, bir çox tədbirlərə düşmək üçün, hətta xalq artistləri belə, Mənzər xanıma bahalı hədiyyələr və pul verirlər.

Nazirlər dəyişir, amma Mənzər xanım hələ də yerindədir. Nazirliyə bir neçə yaltaq olmayan, doğrunu deməyə cəsarəti çatan məşhurlar birlikdə rəsmi məktub da yazdıq, amma heç bir nəticə olmadı. Nə isə... Mən yenə "demoqoqluq" etməyim, onsuz da daşım ağırdır. Olduğu kimi qalsın".

**JASMİN**




# Ağdamda "Çay Evi"nin təməli qazılır və öz tarixi yerində bərpa ediləcək...

**Tezadlar.az xəbər verir ki, Ağdamda "Çay Evi"nin də təməli qazılır və öz tarixi yerində bərpa ediləcək... Bu "Çay evi" Azərbaycan SSR KP MK-nın Ağdam Rayon Partiya Komitəsinin I katibi Sadıq Murtuzayevin zamanında akademik Xudu Məmmədovun ideyası əsasında yaranıb.**

"Çay evi" layihəsinin baş memarı Naiq Səmədov olub və layihədə hörgü işləri yalnız birinci mərtəbədə aparılıb. Qalan hissələr dəmir konstruksiyadan ibarət idi. "Çay evi"nin yerini isə Xudu Məmmədovla birgə müzakirədən sonra məscidin yanında tikmək qərara alınıb. İnşaat xərclərini azaltmaq üçün azadlıqdan məhrum edilmiş şəxslərin əməyindən istifadə edilmişdir.

Media resurslarında yazılanlardan bəlli olur ki, "Çay evi"nin ortasında iri diametrli boru qalxırmış. Hər tərəfdə kiçik həcmli borular konstruksiyalarla bir-birinə birləşirmiş. Mərtəbələr arası arakəsmələr taxtadan olub. Borular hamısı taxtalarla bağlanaraq, müxtəlif naxışlarla bəzədilmişdir. Hər mərtəbədə dörd qapı nəzərdə tutulmuşdur. Yuxarı mərtəbələr məscidə baxan tərəfdə dairəvi şəkildə quraşdırılmış pilləkənlə qalxmaq olarmış. "Çay evi"nin tikintisi zamanı yüz tona yaxın metal konstruksiyadan istifadə edilmişdir. O vaxt "Çay evi"nin günbəzi sinkləşdirilmiş dəmirlə vurulub.

Onu da deyək ki, 1986-cı ilin iyulun 26-da "Çay evi"nin açılışı keçirilib. Açılışa rayon rəsmiləri ilə yanaşı, Azərbaycan KP MK Mədəniyyət şöbəsinin müdiri Vəfa Quluzadə də iştirak edib. "Çay evi"nin açılışı münasibətilə "Lenin yolu" qəzetinin 31 iyul 1986-cı il tarixli sayında dərc olunmuş yazıda deyilirdi: "Sov.İKP-nin "Sərxoşluq və alkoqolizmi aradan qaldırmaq tədbirləri haqqında" məlum qərarından sonra rayonumuzda rəngarəng tədbirlər həyata keçirilməkdədir. Bu gün istifadəyə verilən "Çay evi"nin bu baxımdan son dərəcə böyük əhəmiyyəti var. Zəhmətkeşlərin asudə vaxtlarının səmərəli, şən və məzmunlu keçməsində "Çay evi"nin rolu əvəzsizdir".

1993-cü ildə "Çay evi" Ermənistan Silahlı Qüvvələri tərəfindən yandırılaraq məhv edilmişdir. 2023-cü ildə isə Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyevin verdiyi məlumata görə, Ağdam şəhərində yaradılan mərkəzi parkda Ağdam çay evinin inşası nəzərdə tutulmuşdur.

Beləliklə, hazırda "Çay Evi"nin əvvəlki yerində qazıntı işləri aparılır və öz tarixi yerində inşaa ediləcək.

**A.Məmmədli**

# Bu dünyadan Şahin Babayev keçdi: səssiz-səmirsiz, lakin böyük hörmət, rəhmət qazanaraq

## Ruhun şad olsun jurnalist Şahin Babayev

**...Onunla cəmi bircə dəfə yaxından ünsiyyətimiz alındı, lakin bu sadə, kübar, təvazökar insanı tanımaq üçün yetərli oldu.**



Azərbaycan Milli Mətbuatının 150 illik yubileyi, Azərbaycan Jurnalistlər Birliyinin 70 illiyi münasibətilə 22 İyul - Milli Mətbuat Günündə Beynəlxalq Qalereyada layihə rəhbəri Aygün Əzizovanın olduğu tədbir keçirildi. Beynəlxalq Qalereyanın direktoru Elnurə İsgəndərova bir qrup jurnalisti bu mötəbər Gün münasibətilə Qalereyaya dəvət etmişdi. Və nə gözəl ki, həmin tədbirə dəyərli jurnalist, Azərbaycan Jurnalistlər Birliyinin sədr müavini Şahin Babayev də təşrif gətirmişdi.

Şahin bəylə həm mən, həm də AzTV-nin əməkdaşı Sevda Hüseyn xeyli söhbət etdik: problemlərdən, gözləntilərimizdən danışıb-dərdləşdik... Çox məsələlərdən danışdıq, çox "budaqlar silkələdik"... O isə kübarca bizi dinləyirdi. Sevda Hüseyn jurnalist səfərləri ilə bağlı maraqlı təklif də vermişdi. Şahin bəylə söhbətdən sonra əmin idim ki, jurnalistləri düşündürən bir çox məsələlər öz həllini tapacaq.

***

...İki gün öncə Şahin Babayevin qəflətən dünyasını dəyişməsi xəbərini eşitdikdə isə inana bilmədim. O çox sağlam görünürdü, lakin görünür ki, bu nəcib insanın qəlbi içində daşıdığı, lakin büruzə vermədiyi yüklərə tab gətirə bilmədi.

Şahin Babayev haqqında hamı yalnız xoş sözlər söyləyir, hamı eyni fikirdədir: təmiz insan, əsl ziyalı, nəcib, səmimi, qayğıkeş, ədəbli. Hamı eyni fikirdədir. Birmənalı şəkildə. Lakin məni təəssüfləndirən məsələ odur ki, AJB-nin sədr müavini kimi uzun illərdir fəaliyyət göstərmiş 61 yaşlı jurnalistin dünyadan köçməsi ilə bağlı heç bir jurnalist qurumu, mətbuat təşkilatı... başsağlığı, nekroloq belə dərc etmədi. Sosial şəbəkələrdə yalnız ayrı-ayrı jurnalistlər onun vəfatı ilə bağlı kədərlərini dilə gətirdilər...

Bəli, Şahin Babayev çox kübar, səssizcə öz işləri ilə məşğul olan, özünü gözə soxmayan, qalmaqalsız, hay-küysüz jurnalistlərdən olub. O da öz ömrünü belə yaşadı: necə vardı, eləcə. Lakin o, bu diqqətsizliyə layiq deyildi.

***

Ruhun şad olsun jurnalist Şahin Babayev. Əminəm ki, yerdə görmədiyin dəyəri, göydə Sizə veriblər.

Sonda onu da əlavə edim ki, bəzi mötəbərlər yazıb ki, Şahin Babayevlə birgə şəkli yoxdur deyə, nəsə bir nekroloq paylaşa bilmir... Onunla uzun illər bir yerdə çalışmasaq da, bircə dəfə yaxından söhbət etsək də mənim o böyük ziyalı ilə şəklim var: ona görə də paylaşıram.

**Y.Məmmədli**

# Həkimlikdən qovulan saxta diplomlu ginekoloq nazir olmaq istəyirmiş?

**...Həkimlikdən qovulan nazir olmaq istəyir? Diplomları və sertifikatları saxta çıxan uzman ginekoloq kimi fəaliyyət göstərən Turanə Nəsibova-Paşayeva nazir olmaq arzusuna düşüb.**




Tezadlar.az xatırladır ki, bir neçə ay əvvəl mətbuatda Turanə Nəsibova-Paşayeva haqqında xeyli müzakirələr aparılıb. Müzakirələrdən sonra 5 ali təhsilinin olduğunu deyən, 8 dildə danışa bildiyini söyləyən, 178 sertifikat aldığını vurğulayan, özünü uzman ginekoloq kimi təqdim edən Turanə Nəsibova-Paşayeva ilə bağlı Baş Prokurorluq yoxlamalar başladı. Yoxlamalar zamanı onun və digərlərinin diplomlarının və sertifikatlarının saxta olduğu üzə çıxıb. Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzindən də bildirildi ki, Azərbaycan Respublikasında praktik tibb fəaliyyəti ilə məşğul olmaq hüququ olan həkimlər və orta tibb işçiləri barədə məlumatlar Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Tibb kadrlarının vahid reyestri"nə daxil edilir. Həmin şəxslə bağlı sözügedən reyestrdə məlumat mövcud deyil. Onun paylaşımlarından belə məlum olur ki, saxtakarlığı ifşa olunandan sonra onun fəaliyyəti yoxlanılıb və qanunsuzluqlar aşkar edildiyi üçün klinikası qapadılıb.

İndi Turanə Nəsibova-Paşayeva bağlanan obyektlərini geri istəyir. Əks halda o, nazir postuna iddialıdır: "Obyektlərimi geri qaytarmırlarsa mən nazir postunu istəyirəm. Mən buna layiqəm".

Vəssalam! Vaxtında saxta sənədlərə öyrədilən xanımın nazir olmaq arzusu da burdan qaynaqlanır...

**CƏBUHİ**

# Adil Kərimlinin nazirliyində daha bir qalmaqal: ailə institutuna müdaxilə və...

## *“Ümid edirəm ki, qarşılaşdığımız bu ağlasığmaz hərəkətlərin əsaslı cavabı olacaq”*

**Son günlər Mədəniyyət Nazirliyində baş verənlərlə bağlı ölkə mediasında fərqli, lakin eyni məzmunlu və problemli hadisələr şərh olunur. Kitabxanaların vurhavur bağlanmasından tutmuş, kino xadimlərinə qarşı layqedlik, kino çəkilişlərinə Dövlət büdcəsitndən ayrmaların dayandırılması, bu azmış kimi, teatlardakı qarışıqlıq... Deputatlar, xino xadimləri, hüquqşünaslar danışır, nazir isə susur. Bu o deməkdir ki, Mədəniyyət Nazirliyimizin həndəvərində və içində-daxilində baş verənlərin nazirə qətiyyən dəxli yoxdur.**

**Bəs nəyin dəxli var? Bölgələrdə tarixi abidələr və mədəni irs nümunələrinin dağıdılması da nazirliyin vecinə deyilsə, daha nə deyək.**

**İndi isə sistemdə çalışanların ailələrinə təzyiqlər edilir, iş boşanmayadək gedib çıxır, nazir yenə də susur.**

***

Gəlirik mətləbə: «Təzadlar” Dövlət Kukla Teatrının rejissoru Səidə Haqverdiyevanın mediaya ünvanlı müraciətini təqdim etmişdir. Ailəsindən boşanma həddinə çatdırılan rejissor xanım bu gün daha ətraflı müraciətini yayımlayıb. «təzadlar”ın elektron poçtuna göndərilən müraciəti olduğu kimi təqdim edirik: «Əziz dostlar, dəyərli sosial media izləyiciləri, vicdanlı mətbuat nümayəndələri!

Dünənki məlum paylaşımım, uzun müddətdir davam edən mənəvi terrora, şəxsimə və həyat yoldaşım Rəşad Əhmədzadəyə qarşı edilən haqsızlıqlara üstüörtülü etirazım səs-küyə səbəb oldu. Onlarla dəstək zəngi, mesaj və rəyi aldım.

Bəli, haqlı-haqsız iradlar, sosial platformalarda narahatlıqlar və bundan doğan müxtəlif fikirləri də gördüm. Sözsüz ki, hər birinizə bu informasiya bumunda məhz bir Azərbaycan qadınının, bir yaradıcı şəxsin səsinə səs verdiyinizə, dəstəyinizi əsirgəmədiyinizə görə sonsuz təşəkkür edirəm.

Hesab edirəm ki, bu məsələ barəsində geniş şərhə, açıq qalan suallara cavaba böyük ehtiyac var. Ələlxüsus da həyat yoldaşımı qorumaq üçün atmış olduğum addım -çıxılmaz, ən sonuncu yol kimi qəbul etdiyim boşanma haqqında ağır qərara aydınlıq gətirməliyəm. Beləcə yaranan və yarana biləcək bütün suallara da cavab vermiş olacağam.

**Mədəniyyət Nazirliyinin bəzi məmurları qoçuluq edən aktrisanı niyə dəstəkləyirlər? Yaxud Mədəniyyət Nazirliyi kimin dostudur?**

Görəsən başqalarının əmək hüquqlarını ciddi şəkildə pozaraq sırf bir aktrisanın nazını çəkən Mədəniyyət Nazirliyinin bəzi məmurları bu ağlasığmaz cəsarəti haradan alıblar?..

Axı, havadarlıq prinsipi ilə yaşayan bir şəxsin tələbləri ilə hesablaşmaq bizə yaraşmaz! Vicdanlı vətəndaş kimi məhkəmənin verdiyi əsassız qərara susmaq isə heç olmaz!

Birinci dərəcəli keçmiş hakim qohumu, külli miqdarda rüşvətə görə hazırda həbsdə olan qaynının əlaqələrini, üstəlik ərinin qanuni və qeyri-qanuni “dost”luğunu rəhbər tutaraq “Kor atı minib köndələn çapan” bir insana bu qədər səlahiyyəti niyə və nə adla veriblər? Üstəlik, Mədəniyyət Nazirliyi Aparatının rəhbər şəxsi səviyyəsində biri sırf bir aktrisanın hikkəsini təmin etmək üçün bütün əmək qanunvericiliyini yerə çırparaq ömrünün 45 ildən artıq bir dövrünü teatra həsr edən peşəkar idarəçiyə necə hüquqazidd əmr verə bilər? Belə olan təqdirdə ömrünün 15, 20, 30 və artıq dövrünü şırma arxasında keçirən sənət fədailərinin haqqını kim tələb etsin?

**Gəlin məsələni bir az ətraflı qeyd edim və siz də dövrümüzün “Mürafiə vəkillərinin hekayəti”ndən hali olun.**

Deməli, teatrımızda Nərmin Əhmədova adlı bir aktrisa var. Hazırda şad-xürrəm növbəti (3-cü dəfə) analıq məzuniyyətinə hazırlaşır. 12 il bundan öncə o vaxtkı Mədəniyyət və Turizm Nazirliyində çalışan bir xanımın xahişi ilə dram artisti (bəzi məktublarında ştat vahidini düzgün qeyd etməyərək, “aktyor” kimi yazır) kimi işə götürülüb. Bu ad sizə heç tanış deyil. Əslində, teatrda çalışanların da çoxu onu müəssisədə yaratdığı



özünəməxsus iğtişaşlara görə tanıyıb. Bu qadın hələ teatra gəldiyi qısa vaxtda (təxminən 1 ay sonra) teatrın o vaxtkı baş rejissoru Rəhman Əlizadənin təqdimatı ilə ilk töhmətini almışdı. Həmin vaxtdan bəri N.Əhmədova teatrın iki baş rejissorundan müxtəlif təqdimatlarla töhmətlər alıb, hazırkı baş rejissor ilə isə ciddi münaqişədədir. Qısacası N. Əhmədovanın aktyor tərcümeyi-halı rəngarəng rollar, qastrollar, mükafatlarla yox, “töhmət”lər, “şiddətli töhmət”lər, “təqdimat”larla zəngindir. O, teatrda 12 ildən artıq çalışmasına (ki bu zamanın da təxminən 4-5 ili analıq məzuniyyəti dövrlərinə düşür) rəğmən, cəmi bir neçə tamaşada irili-xırdalı rol alıb və bütün tamaşalardan sonra rejissorlar onunla çalışmaq istəmədiklərini qeyd ediblər. Məsələn, sonunculardan “Yalquzaq” tamaşasında əsas rollardan birini - Simurq quşu rolunu ifa edərkən məşq prosesini dəfələrlə pozmuş, rejissora ağır ittihamlar irəli sürmüş və beləcə öz aktyor bacarıqsızlığını səhnəarxası “məharətləri” ilə ört-basdır etməkdən çəkinməmişdir. Yaxşı, N. Əhmədova kimdir? Özünü teatrda ağa kimi aparan, bəzi həmkarlarını nalayiq küçə sözləri ilə təhqir edən, yaradıcılıq anlayışını davadalaş kimi anlayan mürəkkəb xarakterə malik idarəolunmaz şəxs.

Təsəvvür edin, “12 illik iş təcrübəm və iki diplomum var” deyən aktrisa məşqlərin birində rejissorun mizana uyğun oyun təlimatına etiraz edərək “Danışanda oynaya, oynayanda danışa bilmirəm” deyən həvəskar səviyyəsində magistr diplomlu ərkəsöyün.

Kim onun yerində olsa ayıbına kor olub susar. Amma çifayda. Bu xanım özü ilə o qədər qürrələnir ki, artıq haqq etmədiyi kateqoriya, fəxri ad, mükafat qovğalarına girişir.

Bu da təsadüfi deyil. Çünki arxasında dağ kimi dayanan əvvəlin Mədəniyyət Nazirliyinin əməkdaşı, indinin nəqliyyat şirkəti rəhbəri əri Əfsun Əhmədov və onun iş birliyində olduğu məmur dostları var.

Bunun nəticəsidir ki, Nərmin nəqliyyat şirkəti sahibi ərinin və ona himayədarlıq, bir növ yuxarı dairələrdə, konkret olaraq Mədəniyyət Nazirliyində havadarlıq edən bir neçə məmurun dəstəyi sayəsində teatr rəhbərliyinə və birbaşa şəxsimə təzyiqlər və təhriklər edir. Teatr, onun gələcək rəhbəri, nəinki teatr, Mədəniyyət Nazirliyi strukturu barədə ekspertsayağı proqnozlar verir. Bu onun köhnə vərdişidir.

*“Axı, havadarlıq prinsipi ilə yaşayan bir şəxsin tələbləri ilə hesablaşmaq bizə yaraşmaz!”*

«O, bir növ yuxarı dairələrdə statusunu göstərmək üçün 96 nəfərlik kollektiv və nazirlikdən gələn nümayəndələrin gözü qarşısında A. Kərimlinin çıxışı zamanı zalı nümayişkaranə tərk edərək qapını çırpmaqdan çəkinməyərək çıxıb getmişdi...”

Hələ ötən il iyun ayında olacaq ad günü ilə bağlı təbrik paylaşımına düz bir ay tələsərək may ayında teatrın İnstagram həsabında hədyanlar yazmış, teatrın mətbuat katibinə ağır ittihamlar irəli sürərək “Struktur dəyişsin, siz Nərmini tanıyacaqsınız” notasını verməkdən çəkinməmişdir.

Həqiqətən maraqlıdır deyə soruşuram: Mədəniyyət nazirliyi strukturundakı hər hansı dəyişiklik Kukla Teatrının aktrisası ilə məsləhətləşilir, yoxsa nazirin təyinat əmrlərinə ilk əvvəl N. Əhmədova baxır? Ümid edirəm ki, bu sualımın cavabı olacaq!..

Nazir demişkən bildiyiniz kimi, 10 oktyabr 2024-cü il tarixində teatrda Mədəniyyət nazirinin teatr kollektivi ilə görüşü oldu. Görüşdən əvvəl nazirin protokol sektorunun müdiri Allahşükür Zülfüqarlı teatrın direktoru R. Əhmədzadəyə yaxınlaşaraq N. Əhmədovanı xüsusi tapşırmış, dostunun həyat yoldaşı olduğunu demişdi. Beləcə Nərmin struktur eyhamlarına nazirin protokoluna məsul şəxsin timsalında təsdiq vermişdi. Amma bizim “qəhrəmanın” fəaliyyəti bununla da bitmədi.

Gücünü, bir növ yuxarı dairələrdə statusunu göstərmək üçün 96 nəfərlik kollektiv və nazirlikdən gələn nümayəndələrin gözü qarşısında A.Kərimlinin çıxışı zamanı zalı nümayişkaranə tərk edərək qapını çırpmaqdan çəkinməyərək çıxıb getmişdi. Qısacası strukturdakı birinci şəxsə saymazyana münasibətini belə göstərmişdi.

İşi-gücü müxtəlif bəhanələrlə qalmaqallar olan, teatra hər gəlişində bir söz-söhbətə səbəb olan N. Əhmədovanın son münaqişəsinin də gülün səbəbi var. Deyəcəyəm, siz də gülün, gərginlik aradan qalxsın. “Mənim şəklim divarda niyə yoxdur?”. Bəli, məhz son olaraq bu ilin mayında teatrın direktorunun otağına soxularaq bununla bağlı müəssisə rəhbəri ilə mübahisə edib. Bu şəxs teatrın yaradıcı heyət üzvlərinin foyedə şəkillərinin düzülüşü ilə bağlı texniki işi də əlaqədar şəxsdən yox, direktordan soruşacaq qədər “fərasətli” və rahatdır. Hərçənd həmin vaxt yaz yağışları səbəbindən teatrın iki divarında çat yaranmış və o çatın kosmetik təmiri ilə əlaqədar olaraq N. Əhmədova ilə yanaşı 14 nəfər teatr təmsilçisinin fotosu müvəqqəti olaraq götürülmüş, təmir bitib, divar quruyan kimi də bu işə məsul əməkdaşlar tərəfindən yerinə asılmışdır.

N.Əhmədova bu və başqa əsassız bəhanələrlə direktorun iş otağına gələrək onu qalmaqala təhrik etmiş, direktor onun xasiyyətinə bələd olduğundan sakit şəkildə yola verməyə çalışmışdır.

N.Əhmədova sonuncu dəfə həddini bir az da aşaraq yumruğunu direktorun iş otağındakı masaya (kollektivin bəzi üzvlərinin gözü qarşısında) vuraraq R. Əhmədzadəni işdən çıxartdıracağı ilə (məsələn, “sabahdan burada işləməyəcəksiniz”) hədələyib.

Bundan ürəyi soyumayan N. Əhmədova Mədəniyyət Nazirliyinə bir neçə dəfə şikayət məktubu yazmış və bütün məktublarında heç bir əlaqəm olmadığı halda haqqımda əsassız iddialar irəli sürmüşdür. Maraqlısı budur ki, məsələ ilə bağlı məhkəmə də məlum şəxsin xeyrinə əsassız qərar qəbul etmişdir. Sözsüz ki, bu, başqa söhbətin mövzusudur.

Ən dəhşətlisi bilirsiniz nədir? N. Əhmədovanın nazirliyə ünvanladığı tələb xarakterli məktubunu rəhbər tutan Mədəniyyət Nazirliyinin aparatından teatra N. Əhmədovanın kateqoriyasının, bu yolla əmək haqqı ödənişinin artırılması ilə bağlı tələb məktubu, nəticə olaraq hədələyici təlimat gəlmişdir.

Maraqlıdır, dəfələrlə nizam-intizam qaydalarını kobudcasına pozan, buna görə töhmətlər alan, aktyor həmkarlarından qat-qat az çalışan, qısacası, bir dram artisti kimi ştat vəzifələrini icra etmədiyi halda tələbnaməsi boy verən N. Əhnmədovanın başqa hansı üstünlüyü var? Yaxud bu qadın və havadarları bizdən nə istəyirlər?

Onun qeyd etdiyim məktublarından sonra Mədəniyyət Nazirliyi tərəfindən izahatım alınıb. Əvvəlcə ali təhsil sənədi kimi diplomumun olmaması, sonra isə ixtisasım üzrə işləmədiyimi (bu arada ixtisasım pedaqoq və musiqi sənəti üzrə menecmentdir) əsas gətirilib.

Bu ittihamların da əsassız olduğunu gördükdən sonra diplomumu nostrifikasiyadan keçirmədiyimi xüsusi vurğuladılar. Bu məsələdə haqlı idilər. Amma mən onsuz da Təhsildə Keyfiyyət Təminatı Agentliyinə (TİKA) bununla bağlı müraciət etmişdim.

Qeyd edim ki, mən Sankt-Peterburq Dövlət Mədəniyyət İnstitutunda 2015-2020-ci illərdə bakalavr, 2020-22-ci illərdə isə (Sankt-Peterburqskiy qosudarstvennıy institut kulğturı) ixtisasım üzrə magistraturada təhsil almışam. Magistraturamın son 6 ayında səhhətimlə əlaqədar təhsilimi dondurmalı oldum. Sonrakı gərgin iş qrafiki - tamaşalar, filmlər, tədbirlər səbəbindən düşündüm ki, hər iki diplomumu eyni vaxtda nostrifikasiya etdirim. Qəribə olsa da bu sadə prosesi rəhbər tutan bəzi səlahiyyət sahibləri bunu əllərində rəhbər tutaraq həyat yoldaşım R. Əhmədzadəyə “Səidənin ərizəsini alın, ikiniz bir yerdə işləyə bilməzsiniz” kimi absurd ittihamlar irəli sürürlər.

**Onu da qeyd edim ki, diplomun tanınması üçün müraciətə cavab 1-3 ay, bəzən də 6 ay çəkə bilir.** Amma Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin Teatr sektorunun müdiri (hərçənd Bella xanım ömründə bir gün belə hansısa teatrda çalışmadığı halda birbaşa Teatr sektoruna müdir təyin olunub. Bildiyimə görə heç dövlət qulluqçusu da deyil) Böyükxanım Talıbova Rəşad Əhmədzadəyə zəng edərək işdən çıxmağımla bağlı ərizəmin alınmasını tələb edib. Hə, əlavə edim ki, N.Əhmədovanın özünün dediyinə görə, B. Talıbova ilə isti münasibətləri var.

N. Əhmədova ilə bağlı mənə hədələyici tonda başqa xəbərdarlıqlar, birbaşa hədələr də olunub. Bunlar haqqında daha ətraflı sonra danışacağam.

Ümid edirəm ki, qarşılaşdığımız bu ağlasığmaz hərəkətlərin əsaslı cavabı olacaq. Ən azı xoşbəxt ailəmi dağıtmaqdan zövq alan, “Ya Səidə, ya da sən işdən çıxmalısınız” tələbini edən, “Səidə işdən çıxmasa onun ictimai nüfuzuna ləkə vuracaq” kimi iyrənc ultimatumlardan çəkinməyən kiçik məmurlar layiqli cəzalarını alacaqlar. Ən azı siz vicdanlı mətbuat nümayəndələri və tükü-tükdən asanlıqla seçən həssas izləyicilərim N. Əhmədovanı dəstəkləyən məmur qrupuna vicdan məhkəməsi quracaqsınız... Qeyd edim ki, yazdıqlarım qarşılaşdıqlarımızın kiçik və ən “məsüm” bir hissəsidir. Baş verənlərin hamısını bütün çılpaqlığıyla, sübutlarla mütləq yazacağam...”.

**«Təzadlar”dan: müraciətdə adı çəkilənlərin mötəbər sübutları və arqumentləri olarsa, dinləməyə hazırıq.**

**Son günlər bir sıra bölgələrin ət bazarlarında vəziyyət gərginləşib. Dabaq xəstəliyi ilə bağlı olaraq dövlət qurumları bir çox iri ət bazarlarının fəaliyyətini dayandırıb. Bu qərardan sonra həm ət qıtlığı yaranıb, həm də qiymətlər süni şəkildə bahalaşıb. Hazırda mal ətinin, xüsusilə erkək dana ətinin qiyməti 21 manata qədər yüksəlib. Əvvəllər 14-15 manata satılan sümüklü ət indi eyni çəkidə daha baha qiymətə təklif olunur.**

# Dabaq xəstəliyi kimə işləyir: xaricdən buzlu ət gətirənlərə, yoxsa...

*Monopolistlərin ət bazarında xaos və gizli maraqları...*



Satıcılar bahalaşmanı danaların azlığı ilə izah etsələr də, prosesin arxasında daha ciddi səbəblərin dayandığı istisna edilmir. Bu vəziyyətdə mütəxəssislər və ictimai sağlamlıq qurumları insanlara mal əti qəbulunda ehtiyatlı olmağı, xüsusilə ictimai iaşə obyektlərində, kafelər və restoranlarda satılan dönər və digər ət məhsullarını alarkən diqqətli davranmağı tövsiyə edirlər. Bir sözlə, ətin qiyməti qalxdı, “GÖZÜMÜZ AYDIN.”

Ən çox səs-küyə səbəb olan hadisələrdən biri isə Ağdaşda dana bazarının bağlanmasıdır. Bura regionun ən iri ət ticarəti mərkəzlərindən biri hesab olunur. İndi isə, oradakı satıcılar və alıcılar narazıdır. Bəs vəziyyətin rəsmi tərəfi necədir? Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi məlumat yayıb: ölkədə fəaliyyət göstərən heyvan bazarları müvəqqəti olaraq bağlanıb. Bildirilir ki, hazırda ölkə ərazisində heyvanlar arasında bəzi xəstəliklərin yayılması müşahidə olunur və bu, real epidemioloji risk yaradır.

Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşı Coşqun Məhəmmədəliyev mətbuata verdiyi açıqlamada belə deyib: “Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının apardığı qiymətləndirmə nəticələrinə əsasən, regionu əhatə edən bir sıra ölkələrdə təhlükəli heyvan xəstəliklərinə qarşı risk qrupu müəyyən edilib. Məhz bu səbəbdən, Respublikanın baş dövlət baytarlıq müfəttişi tərəfindən müvafiq qərar qəbul olunub. Qərara əsasən, 2025-ci il 25 oktyabr tarixindən etibarən iribuynuzlu heyvanların satışı həyata keçirilən bazarların fəaliyyətinə müvəqqəti məhdudiyyətlər qoyulub”.

C.Məhəmmədəliyev əlavə edib ki, regionu dörd böyük diri heyvan satış bazarı əhatə edir və hər birində məhdudiyyət tədbiq olunub: “Bu bazarların hər birində sağlamlaşdırma və baytarlıq-sanitariya tədbirləri tam yerinə yetirildikdən sonra onların fəaliyyəti mərhələli şəkildə bərpa olunacaq”.

*“Ən çox zərər çəkən isə, həmişəki kimi, bazarda ədalət axtaran sadə insanlardır”*

Hazırda əsas sual budur ki, dezinfeksiya və yoxlama tədbirləri nə vaxt yekunlaşacaq? Görünən odur ki, bazarlar yalnız vəziyyət tam “TƏMİZ” elan edildikdən sonra açılacaq. Amma o vaxta qədər ət bazarında yaranmış qıtlığın və qiymət artımının öz-özünə həll olunacağına inanmaq çətindir.

Bu gərginliyin fonunda satıcılar da narazılıqlarını gizlətmirlər. Onların sözlərinə görə, yoxlamalar artıq həddini aşıb, bəhanələr isə eynidir: “DABAQ XƏSTƏLİYİ” və “SAĞLAMLIĞIN QORUNMASI.” Onların sözlərinə görə, məqsəd əslində xalqın sağlamlığı deyil, pul toplamaqdır. Satıcıların sözlərinə görə, son günlər bazarlarda aparılan yoxlamalar əsasən “PEÇAT” ovuna çevrilib.

“İndi də düşüblər ətin üstünə. Deyirlər, dabaq xəstəliyi yayılıb və guya camaatın sağlamlığını qoruyurlar. Amma məqsəd tamam başqadır. Yoxlamağa gələnlər ancaq ətin üstündə “PEÇAT” axtarışındadır. Kimin satdığı ətin üstündə “PEÇAT” tapılmadı, dərhal 800 manat cərimə yazırlar. Kim 20-50 manat “tas” verir, hörmət eləyirsə, ona toxunmurlar. Hörmət eləməyənə isə, elə həmin andaca yoxlama göndərirlər, başlayırlar ətin sənədini axtarmağa,” - deyə bazar satıcıları bildirirlər.

Bəli, elədir ki, var. Bütün bu proseslərə baxanda aydın olur ki, məqsəd camaatın sağlamlığını qorumaqdan çox, süni şəkildə qiymət artımı yaratmaqdır. Aparılan yoxlamalar bir tərəfdən bazarın fəaliyyətini iflic edir, digər tərəfdən bazara ət gətirənlərin sayını azaldır. Nəticədə bazarda ət qıtlığı yaranır və qiymətlər süni şəkildə bahalaşır. Hazırda mal ətinin qiyməti 21 manata qədər yüksəlib, bu isə artıq qoyun ətindən də baha deməkdir.

Məsələ bununla da bitmir. Görünən odur ki, vəziyyət sadəcə yerli bazarların bağlanması ilə məhdudlaşmır - bu proses həm də yerli ət istehsalçılarının sıradan çıxarılması, xaricdən gətirilən donmuş ətlərin satışına şərait yaradılması məqsədi daşıyır.

Ölkədə yerli istehsalçının yetişdirdiyi təzə ətlər məqsədli şəkildə bazardan sıxışdırılır, onların yerinə isə Hindistandan, Macarıstandan, Özbəkistandan, Pakistandan və s. gətirilən buzlanmış ətlər bazara buraxılır. Həmin donmuş ətlər sonradan xalqın süfrəsinə gəlib çıxır. İnsanlar bu vəziyyətə haqlı olaraq narazılıq edirlər və düşünürlər ki, belə addımlar yerli istehsalçıya zərbədir, xalqın sağlamlığına təhlükədir. Onların fikrincə, bu işi təşkil edənlər xalqın düşmənidirlər. Çünki xalqın istehsal etdiyini sıradan çıxarıb, xaricdən gələn keyfiyyətsiz, ölmüş heyvanın ətini millətə yedizdirirlər. Gözümüzün qabağında kəsilən heyvanın ətini isə müxtəlif bəhanələrlə qadağan edirlər.

NİYƏ? Çünki o dondurulmuş ətlərdən kimlərinsə cibinə babat “XEYİR” gəlir. Halbuki bizim guya xəstə adlandırılan yerli heyvanların əti, o buzlu ətlərdən qat-qat keyfiyyətlidir. Bəli göründüyü kimi, bu, sadəcə bir xəstəlik bəhanəsi deyil, yerli istehsalın sıradan çıxarılması və xarici ətlərin bazara yolunun açılmasıdır. Ən çox zərər çəkən isə, həmişəki kimi, bazarda ədalət axtaran sadə insanlardır.

**Elşad FƏRMANOĞLU**



# Şirvandakı hərbi zavodda baş verən partlayışın sirləri - ELMİ-LƏDUN

*“Biz hər şeyi sayıb yazmışıq”. Quran ayəsi*

**Bildiyimiz kimi 14.11.2025-ci il tarixdə Şirvan şəhərindəki hərbi zavodda baş verən partlayış ölümlə nəticələndi. İlk baxışdan adi istehsalat qəzası kimi görünən bu hadisə ciddi bir qanunauyğunluğa tabedir. Bunu aşağıdakı hesablamalardan aydın görmək olur:**

1) Xatırladım ki, həmin hərbi zavodda 2023-cü ilin 24 iyulunda da partlayış baş vermişdi. Maraqlıdır ki, bu gün həmin partlayışın 841-ci günüdür və biz bundan orjinal (Kəbədə saxlanan) Quranın səhifələrinin sayını (286) çıxsaq, tövbə və cəza rəmzi olan 555 ədədi alınır və hadisənin Allahdan gələn (Onun kitabına bağlı olan) bir xəbərdarlıq olduğunu sübut edir:

***841 - 286 = 555***

2) Elmi-lədun araşdırmalarımz göstərir ki, hərbi zavodda baş verən bugünkü partlayış 2022-ci ildə (8 iyun) baş verən digər partlayışla da riyazi şəkildə əlaqələnir. Bu iki faciyə arasında 1.258 gün fərq vardır ki, bundan dördüncü səmavi kitab olan Quranın səhifələrinin dörd mislini çıxsaq, yenə də Quranın surələrinin sayı alınır və hadisələrin Allahın kodlaşdırılmış xəbərdarlığı olduğunu sübut edir:

***1258 - (286+286+286+286) = 114***

3) Yadınızdadırsa daha bir sursat partlayışı Ağstafadakı hərbi hissədə (06.07.2019) baş vermiş və ölümlə nəticələnmişdi. Maraqlıdır ki, bugünkü partlayış Quran rəmzləri ilə həmin hadisəyə də bağlanır. Bu analoji hadisəlr 2.327 gün fərqlə baş vermişdir ki, bundan da Quran rəmzlərini çıxsaq, yenə də tövbə və cəza rəmzi olan 555 ədədi alınır və diqqətimizi gələcək daha böyük bəlalardan qurtulmaq üçün tövbə etməyin vacibliyinə yönəldir:

*2327 - (286x5) - (114+114+114) = 555*

4) Hesablamalarımız göstərir ki, Şirvan hərbi zavodunda baş verən bugünkü partlayış tək ölkə daxilində baş verən analoji hadisələrlə əlaqələnmir, eyni zamanda xaricdəki hərbi bazalarda baş verən partlayışlarla da riyazi şəkildə bağlanır. Belə ki, bu gün Qazaxstanın Taraz şəhərindəki hərbi bazada baş verən partlayışın 1.544-cü günüdür ki, bundan da Quranın səhifələrinin sayını çıxsaq, yenə də surələrin sayı alınır və hadisələr üzərində Allahın rəqəmsal möhürünün (imzasının) olduğunu sübut edir:

***1544 - (286x5) = 114 və s.***

NƏTİCƏ: Hesablamaları xeyli uzatmaq mümkün olsa da, oxucunu yormamaq üçün burada yekunlaşdırıram. Bu və digər hesablamalar göstərir ki, bu gün Şirvandkı hərbi zavodda baş verən partlayış təsadüfü olmayıb (Quran məntiqinə görə həyatda təsadüf olmur), Allahdan ordusuna və silahına güvənərək xalqına zülm edən rəhbərlərə növbəti xəbərdarlıq mesajıdır:

“Bu əsgərləriniz kimdir ki, onlar sizi Rəhmanın əzabından qurtara bilsinlər?! (Onlar heç özlərini xilas edə bilmədilər!)” Quran, “Hakimiyyət” (67) surəsi, 20.

Və yaxud: Ey rəhbərlər! Siz bu silaha, bu əsgərəmi güvənib Allahın yaratdıqlarına zülm edirsiniz?! O silahları Allah istədiyi vaxt həmin əsgərlərin əllərindəcə partlada bilər. Onlar Allahın bəlasından özlərini qoruya bilmədikləri halda, sizi necə qoruyacaqlar?!

Allahın Elminin və Qüdrətinin böyüklüyünə dəlalət edən bu faktları dərk edərək, tövbə edin ki, yaxın günlərdə gələcək böyük bəlalardan xilas ola biləsiniz!

**Dr. Paşa Yaqub,**
**Elmi-lədun bilicisi,**
**39 kitab müəllifi**
**14 noyabr 2025**

# Mədəniyyət Nazirliyinin Mənzəri...



*“Nazirlər dəyişir, amma Mənzər xanım hələ də yerindədir”*

**Müğənni Nura Suri Mədəniyyət Nazirliyindəki xaosla bağlı mediaya maraqlı açıqlama verib. Sitat: “Mədəniyyət Nazirliyinin keçirdiyi bütün tədbirlərdə biz, müğənnilər, dövlət tədbiridir deyə pulsuz oxumuşuq.**

Əvəzində isə heç kəsə lazım olmayan diplomlar veriblər - 2004-2022-ci illər ərzində. Sonradan xəbər tutduq ki, dövlət bu tədbirlər üçün vəsait ayırırmış, lakin həmin pulları Mədəniyyət Nazirliyində çalışanlar mənimsəyirmiş... Akademik Musiqili Teatrda həm də Əliqismət bəylə bu barədə danışılmışdı (sübutlarım da var). Çəkiliş qrupu artıq çəkiliş üçün yerləri müəyyən etmişdi və biz ödənişi də etməyə hazır idik, amma nazirlikdən icazə ala bilmədik. Mənzərin məndən xoşu gəlmir deyə (Mədəniyyət Nazirliyinin Tədbirlərin təşkili şöbəsinin müdiri Mənzər Nurəliyeva). Mədəniyyət Nazirliyinin nəzdində olan teatr, muzey və digər qurumlarda yalnız pul ödəyib çəkiliş aparmaq mümkündür. Bundan əlavə, nazirliyə rəsmi məktub göndərib aylarla cavab gözləməli oluruq. Biz müğənnilər üçün bu, çox çətin və ədalətsiz vəziyyətdir. Amma “bəy-gəlin” çəkilişləri üçün heç bir problem yoxdur - pulunu ödə, çəkilişini et. Sonradan öyrəndik ki, bir çox tədbirlərə düşmək üçün, hətta xalq artistləri belə, Mənzər xanıma bahalı hədiyyələr və pul verirlər.

Nazirlər dəyişir, amma Mənzər xanım hələ də yerindədir. Nazirliyə bir neçə yaltaq olmayan, doğrunu deməyə cəsarəti çatan məşhurlar birlikdə rəsmi məktub da yazdıq, amma heç bir nəticə olmadı. Nə isə... Mən yenə “demoqoqluq” etməyim, onsuz da daşım ağırdır. Olduğu kimi qalsın”.

Bu qalmaqallı və ittihamlı açıqlamada adı hallanan Mənzər Mədəniyyət Nazirliyinin şöbə müdiri Mənzər Nurəliyevadan isə hələki hər hansı açıqlama yoxdur.

**“Təzadlar”**



# Deputat kənd kitabxanalarının bağlanmasına etiraz edib

**Milli Məclisin deputatı Elnarə Akimova parlamentdə gələn ilin büdcə zərfinin müzakirəsi zamanı kənd kitabxanalarının bağlanmasına etiraz edib.**

“Təzadlar”ın məlumatına görə, deputat çıxışı zamanı bildirib ki, bölgələrdə kitabxanaların fəaliyyətinin zəifləməsi gənclərin kitab oxuma vərdişlərinə mənfi təsir göstərir.

O, Mədəniyyət Nazirliyinin tabeliyində olan kitabxanaların kənd filiallarının bağlanmaq təhlükəsi ilə bağlı narahatlığını da ifadə edib:

**“Məktəblilər kitab əldə etmək üçün hər dəfə rayon mərkəzinə gedə bilmir. Kitabxanalar və mədəniyyət evləri gənclərin asudə vaxtlarının səmərəli təşkili və onların zərərli vərdişlərdən uzaq qalması üçün vacib məkandır. Əvvəlcə daha müasir və əlçatan modellər yaradaq, sonra köhnə strukturların bağlanmasını düşünək”.**

# Mədəniyyət Nazirliyindəki problemlər həllini tapmasa...

## Adil Kərimli və dostları Azərbaycan Respublikası Mədəniyyət Nazirliyini niyə bu vəziyyətə salıb?

**Azərbaycan dövləti mədəniyyət sahəsini hər zaman cəmiyyətin inkişafı və yaradıcı potensialın təşviqi üçün strateji prioritet kimi görür. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu sahənin inkişafını daima dəstəkləyir, yaradıcı təşəbbüsləri himayə edir və ölkədə mədəni irsin qorunmasını dövlət siyasətinin əsas istiqamətinə çevirib.**

Lakin təəssüflə qeyd etmək lazımdır ki, Mədəniyyət Nazirliyinin fəaliyyəti bu dövlət dəstəyinə adekvat deyil və sahədə ciddi idarəçilik boşluqları müşahidə olunur.

9 noyabr Bayraq Günü münasibətilə Mədəniyyət Nazirliyinin rəsmi paylaşımında Azərbaycan bayrağının təhrif edilməsi bu qurumun fəaliyyətini yenidən gündəmə gətirdi.

Bayrağımızın təhrif edilmiş formada paylaşılması birmənalı şəkildə qətiyyən texniki səhv deyil. Bu fakt nazirliyin laqeydliyi və məsuliyyətsizliyini açıq şəkildə ortaya qoyur. Nazirlik faktiki olaraq ölkəmizin milli rəmzlərini bütün dünyada təbliğ etməli olduğu halda ən vacib gündə belə ciddi səhvə yol verir. Bu nazirlikdəki işgüzar mühitin səviyyəsini bir daha ortaya çıxarır.

Üstəlik, bu nazirliyin təşkilatçılığı ilə baş tutan tədbirlərdə bayrağımızla bağlı yaşanan ilk qalmaqal deyil.

Ardıcıl baş verən problemlər göstərir ki, nazir Adil Kərimlinin diqqəti daha çox şəxsi işlərə və “dost-tanış klubu”na yönəldiyi üçün əsas vəzifələr yetərincə yerinə yetirilmir.

Gəlin, baxaq: Kitabxanalar və mədəniyyət mərkəzləri faktiki olaraq fəaliyyət qabiliyyətini itirib. Regionlarda və paytaxtda yerləşən bu müəssisələr əsasən formal tədbirlər təşkil edir, lakin onların ideoloji və mədəni məqsədləri reallıqda yerinə yetirilmir. Xaricdə fəaliyyət göstərən mədəniyyət mərkəzləri də, kiçik istisnalarla oxşar problemlərlə üzləşir və dövlətin mədəniyyət siyasətini effektiv şəkildə təbliğ edə bilmir.



Son dövrlərdə Mədəniyyət Nazirliyi strukturlarında müəllim və mədəniyyət işçilərinin “imtahan” adı altında kütləvi işdən çıxarılması dövlətimizin sosial siyasət kursu ilə tamamilə ziddir. İşdən çıxarılan kadrların yerinə təyin edilən şəxslərin kimlikləri və əlaqələri araşdırılarsa bu imtahanların əsl məqsədi daha aydın bəlli olar.

Ölkə miqyasında keçirilən kitab sərgiləri ancaq qalmaqallarla yadda qalır. Yerli nəşriyyatlara laqeyd münasibət göstərilir. Eyni çevrələr hər dəfə üstünlük qazanır, yaradıcı gənclər və yeni ideyalar isə kənarda saxlanılır.

Tender və qrantların verilməsi prosesinin şəffaflıqdan uzaq olması ilə bağlı çoxsaylı əsaslı iddialar var. Şəxsi maraqlar, maddi ehtiyaclar və dost-tanış münasibətləri prosesin əsas tərkib hissəsinə çevrilib. Bu isə mədəniyyət sahəsində innovasiyanın və yaradıcılığın qarşısını alır.

Əslində isə mədəniyyət xalqın həmrəyliyini və dəyərlərini qoruyan sahədir. Təəssüf ki, Mədəniyyət Nazirliyindəki idarəçilik boşluqları sahənin bu funksiyasını yetərincə yerinə yetirməsinə imkan vermir. Nazirlik dərhal peşəkar kadrları önə çıxarmalı, layihə və tədbirləri şəffaf şəkildə təşkil etməli və mədəniyyətimizə real nəticələrlə töhfə verməlidir.

**Fərid Şahbazlı,**
**vəkil**

# Bakcell-in xidmətindən ciddi narazılıq: “Yarım saat mahnı dinlətdilər, operator isə tapılmadı”

## *Bakcell-in xidməti “0” vəziyyətdədi...*

**Əslində, ölkədə demək olar hamının adını bildiyi cəmi üç əsas mobil operator var... Və hər kəsin telefonunda azı bu üç operatordan birinin nömrəsi var. Açığı, bunların heç biri o birindən geri qalmır, nə insanları “soymalarında”, nə də keyfiyyətində. Sadəcə olaraq, bu “üçlüyün” içində Bakcell bunlardan bir addım “irəlidədir”, xidmət səviyyəsi, demək olar ki, ümumiyyətlə, dəqiq desəm, “0” səviyyəsindədir.**

Təsəvvür edin, bu gün başıma gələn hadisə bu “xidmət səviyyəsinin” ən canlı sübutudur. Aylıq internet paketim bitmişdi, ayın sonuna isə hələ bir neçə gün qalırdı. Fikirləşdim, bir əlavə internet paketi götürüm ki, işlərim axsamasın.

Zəng etdim Bakcell-in “qaynar xətti”nə, elə bil, xidmət mərkəzinə yox, konsert zalına düşdüm. Mahnı dalınca mahnı, sanki “Bakcell FM” efirinə qoşulmuşdum. Düzdür, “qudok” çağırmaqdansa musiqi yaxşıdır, insanın ruhunu dincəldir, amma sonu da yaxşı bitsin gərək, axı mən konsert bileti almamışdım, sadəcə, internet paketi istəyirdim. Bir tərəfdən də, sanki xidmət xəttinə yox, reklam festivalına düşmüşdüm. “Bakcell-dən 14 avtomobil qazanın!”, “Lotereyada iştirak edin və qalib olun!”! Və bu şirin səslər ard-arda səslənirdi. Amma qəribədi, xidmət keyfiyyətində “qalib” olmaq üçün heç bir şans yox idi. Mən sadəcə, bir operatorun səsini eşitmək istəyirdim.

Nəhayət, reklamlar bitdi, düşündüm ki, indi cavab verəcəklər. Amma yox, bu dəfə də məni “Darıxma” mahnısı ilə əməllicə darıxdırdılar. Mahnıda “beş dəqiqə döz” deyilirdi, amma mən düz 45 dəqiqə dözdüm! Dözdüm, dedim, bəlkə kimsə telefonu açar deyə, düşündüm. Amma görünür, Bakcell üçün müştəriyə cavab vermək artıq lüks sayılır.

***

Belə biabırçılıq olmaz. Onsuz da bunlar camaatın başına oyun açırlar- dinmirik... Cibimizə girirlər- susuruq... Bəli, tariflər baha, xidmət sıfırdır. Adicə balansı ekranda göstərmək üçün ayda 67 qəpik çıxırlar. Danışdın, danışmadın, ayın axırına 2 manat Bakcell-ə qurban gedir. Bu isə milyonlarla zəhmətsiz gəlirli pul qazanmaq, yəni müştərinin cibinə girmək deməkdir. Əgər operatorlar azdırsa, o zaman sistem elə qurulmalıdır ki, mahnı qurtaranda desin: “Hazırda növbə çoxdur, xahiş edirik gözləyin.” Amma yox, mahnı bitir, yenə eyni musiqi başlayır.




Mən dörd-beş mahnıya qulaq asmışam, bu da elə 25-30 dəqiqəlik “canlı konsert” deməkdir.

### İki dəqiqəyə görə bir manat - sistemli ədalətsizlik

Adicə parkinqdə maşın saxlayırsan, saatı mesajla qeyd edirsən, bir saat üçün 1 manat. Amma cəmi iki dəqiqə keçməmiş sistem sənə ikinci saatın pulunu da yazır. Nəyə əsasən, nəyə görə? Kim izah edəcək ki, mən iki dəqiqəyə görə artıq pul ödəməliyəm?

Əgər 15 dəqiqəlik ödənişi bir dəqiqə gec göndərsən, dərhal cərimə yazırlar. Amma onlar sənin pulunu iki dəqiqəyə görə artıq çıxanda heç kim demir: “Dayan, bu vətəndaşdan artıq alındı. Nə ədalət var, nə izah.

Bu, sadəcə bir nümunədir, amma vəziyyət hər yerdə eynidir. Bizdə sistem elə qurulub ki, insanın cibinə bir az da artıq girilsin. Xarici ölkələrdən misal gətirməyi çox sevirlər: “Avropada bu qədərdir, filan ölkədə yol xərci belədir.” Bəs yaxşı, o Avropada vətəndaşa qarşı ədalət, şəffaflıq, yüksək əmək haqqı, xidmət keyfiyyəti də var axı! Təkcə yollar, “parkovka”lar yox, mobil operatorlar da bizdən qat-qat ucuz və keyfiyyətlidir. Orada bir ay üçün verilən internet paketi həm sürət baxımından yüksəkdir, həm də bizdəkinin yarı qiymətinə başa gəlir. Kimsə zəng edib 45 dəqiqə mahnı gözləmir, heç kim “tətbiq yüklə” deyə vətəndaşı ələ salmır. Orada 60 dəqiqə yazırsansa, 60 dəqiqəyə görə də pul çıxılır. Bizdə isə bir dəqiqə artıq dayandın, cərimə; iki dəqiqə az dayandın, yenə də pul çıxılır.”

Deyirlər ki, guya bizdə hər şey ucuzdur, “Ora baxanda burda metro, marşrutlar çox ucuzdur”. Bu cümlə artıq bəhanəyə çevrilib. Elə bil, kiminsə işi-gücü yoxdur, hər gün Avropanı örnək gətirsin. Onlar oradan yalnız qiymət nümunəsini götürürlər, amma xidmətin səviyyəsini, vətəndaşa münasibətini unudurlar. Sanki bu rəsmilər, sadəcə, bir bəhanə axtarırlar ki, insanın cibinə girsinlər.

Qaldı ki, mobil operatorlara... Nəhayət, gözlədiyim o “möcüzə” baş verdi, səs gəldi! Amma operator yox, robot danışdı. Soyuq, emosiyasız və bir az da kinayəli tonla: “Dəyərli abunəçimiz, bizə zəng etmədən öncə bütün xidmətlərə asanlıqla baxmaq üçün Bakcell tətbiqini yükləyin...”

Yəni, demək istəyir ki: “Bizə zəng etmə, tətbiq yükləyin, dərdini özün həll elə.”

Bəs yaxşı, bəlkə abunəçi o gülməşəkər tətbiqi yükləyə bilmir, onda necə? Mənim internetim olmayandan sonra o tətbiqi necə yükləyim axı? Və ya tətbiq varsa, belə internet yoxdursa, necə tətbiqə girim? Ona görə də zəng eləmişəm ki, operator mənə desin, paketin tarixi nədir, necə aktivləşdirim. Amma cavab yoxdur.

Doğrudan da, müştəri məmnuniyyəti anlayışı bizdə bir az fərqli işləyir. Burada müştəri məmnun qalsın deyə yox, müştəri bezsin deyə sistem qurulub. Görünür, şirkət düşünür ki, kim 45 dəqiqə “Darıxma”ya dözürsə, o artıq hər şeyə dözə bilər. Vallah-billah, elə bil, Bakcell səbr testini canlı yayımla keçirirdi.

### 45 dəqiqə, 2 dəqiqəlik cavab al

...Düz 45 dəqiqədən, 2-3 cəhddən sonra telefonumun “zaryadka”sı da 5-6 faizə düşəndən və bir o qədər də əsəb sarsıntısından sonra, nəhayət, “möcüzə” baş verdi. Hörmətli operator xanımın o “məlahətli” səsini eşitmək qismətim oldu. Qız iki dəqiqəyə bütün suallarıma cavab verdi, problem də həll olundu. Amma mənim bu cəmi iki dəqiqəlik sualım 45 dəqiqəyə başa gəldi. Gözüm aydın... Əsas bu idi: yaxşı ki, hələ bu səsi eşitdim, yoxsa, artıq ümidimi tam kəsmişdim.

***

**Bəli, Bakcell məni bir daha tesdən keçitib imtahan edərək inandırdı ki, bizdə “səbr” sadəcə dini anlayış deyil, eyni zamanda rabitə xidməti üçün də əsas tələblərdən biridir. 45 dəqiqə gözləmək, iki dəqiqəlik cavab almaq və buna da “xidmət” demək, bax, bu da bizim “rəqəmsal inkişaf” modelimizdir.**

**Elşad FƏRMANOĞLU**

# “İrəvanda xal qalmadı” mahnısı necə yaranıb?

## ABBASQULU NƏCƏFZADƏYƏ SƏRT CAVAB

*(Firidun Şuşinskinin anadanolmasının 100 illiyi)*

**...Əməkdar incəsənət xadimi Firidun Şuşinski muğam tarixinin gözəl bilicisi və tədqiqatçısı kimi əvəzolunmazdır. Onun ömrünün 40 ilini bizə elə də məlum olmayan muğam ifaçılarının xalqımıza tanıtmasında müstəsna xidmətləri olub. Elə bir musiqi tədqiqatçısı yoxdur ki, F.Şuşinskinin əvəzsiz xidmətləri qarşısında duruş gətirə bilsin. Çünki onun təqdim etdiyi ifaçılar xalqımıza təmənnasız zəhmətidir. Firidun bəy dövlətdən heç bir maddi kömək gözləmədən öz hesabına keçmiş SSRİ-nin şəhərlərini gəzmiş, onların kitabxanalarını, arxivlərini ələk-vələk edərək bu ölməz ifaçıları araşdırmaqla gələcək nəsilə bir ərmağan qoymuşdu.**



F.Şuşinski bu illər ərzində yüzə yaxın ifaçıları araşdırıb gələcək nəslə çatdırmağa müvəffəq olmuşdu. Uzun illərin gecəli-gündüzlü zəhmətinin nəticəsidir ki, Hacı Hüsü, Sadıqcan, Məşədi İsi, Bülbülcan, Keçəçioğlu Məhəmməd, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski və bir çox başqa sənətkarların ifaları haqqında kitab və məqalələr ilk dəfə F.Şuşinskinin qələmindən çıxmışdı.

***

F.Şuşinskinin ifasına xüsusi diqqət kəsdiyi sənətkarlardan biri də Cabbar Qaryağdıoğludur. Təsadüfi deyil ki, o, C.Qaryağdıoğlunun yaradıcılığıhaqqında geniş həcmli monoqrafiyanın müəllifidir. “C.Qaryağdıoğlu milli mədəniyyət tarixində böyük xanəndə, məşhur musiqi xadimi və vokal sənətinin ən görkəmli nümayəndələrindən biri kimi tanınır.” (Firidun Şuşinski)

C.Qaryağdıoğlu xanəndəlikdən əlavə, şair və bəstəkar kimi də məşhurdur.Onun məşhur “İrəvanda xal qalmadı” mahnısının yaranmasında bir əsrdən çox bir vaxt keçməsinə baxmayaraq xanəndələrimiz tərəfindən hələ də sevilə-sevilə oxunur. Qeyd etmək istərdik ki, bu mahnının yaranma tarixi haqqında Firidun Şuşinski yazır: “Cabbar Qaryağdıoğlu təsnif havalarında olan bir çox şeirləri yenidən işləmiş, onlarca mahnının mətnini yazmışdır. Bu təsnif və mahnılardan “Məmələr”,”İstəkanın deşilsin”, “Kaş ki, bayram olmayaydı”, “Məni dövri-fələk”, “Tiflisin yolları”, “Naxçıvanın gədiyindən aşeydim”, “Qalalıyam, qalalı”, “Qarabağdabir dənəsən”, “Ay ayağında məsi var”, “Gəlin gedək Daşaltına gəzməyə” və s.göstərmək olar. Onun xüsusi bir məharətlə bəstələdiyi “İrəvanda xal qalmadı” mahnısıdillər əzbəri olmuşdur. Bu gözəl, son dərəcə lirik tonda səslənən mahnının maraqlı bir tarixi var. İrəvan şəhərinin varlı sakinlərindən biri Cabbarı oğlunun toy məclisinə dəvət edir. Toyun axırıncı gecəsi ümumi qayda üzrə “Özündənbəy” təriflənməli idi. Ona görə də Qaryağdıoğlu “Toyun tərifi” mahnısını oxuyur və “bəyi” tərif edir.

“Özündənbəyin” tərifini eşidən qızın atası narazı halda xanəndəyə deyir:

- Bəs mənim qızımı niyə tərifləmədin?

Cabbar belə gözlənilməz sualdan heç də narahat olmayıb, cavab verir:

- Əmioğlu, adət belədir, toyda gəlini yox, bəyi tərifləyirlər.

Qızın atası:

- Niyə, gəlinin bəydən nəyi əskikdir?

Qızın atasının bu sözlərini eşidən məclis əhli gülüşür. Lakin Cabbar Qaryağdıoğlu qızın atasının pərt olduğunu nəzərə alıb dillənir:

- Yaxşı, iş ki belə oldu, gəlini məclisə çağırın, mən də onu görüb, tərif edim.

Cabbarın bu sözündən qızın adamları hiddətlənirlər:

- Belə adət yoxdur ki, qızı məclisə dəvət edəsən! - deyə qızın atası da əsəbiləşir.

Cabbar çox sakit və mülayim halda deyir:

- Onda qızın nişanələrini deyin, mən də ona mahnı qoşum.

Deyirlər ki, qızın üzündə qoşa xalı var. Bunu eşidən Qaryağdıoğlu tarzənə müraciətlə:

- Qurban, tarı götür dalımca gəl!

Qaryağdıoğlu bədahətən qızın şərəfinə bu mahnını qoşur:

***“İrəvanda xal qalmadı,<br>O xal nə xaldır, üzə düzdürmüsən?***

De görüm nə xaldır qoşa düzdürmüsən? Daha məndə can qalmadı.

***O xal nə xaldır, üzə düzdürmüsən?<br>De görüm nə xaldır, qoşa düzdürmüsən?<br>Xal mənim, Yar mənim, İxtiyar mənim.<br>Xalxa nə borcdur, üzə düzdürmüşəm?!<br>Yarım deyibdir qoşa düzdürmüşəm.***

Mahnı məclisi heyran edir. Qızın atası da razılıqla gülümsəyir. Hamı xanəndəni alqışlayır”.

Firidun bəyin bu əhvalatı yerliyerində göstərməsi bəzi üzdəniraq özünü musiqişünas adlandıran, lakin musiqi alətilə gecə-gündüz televiziya ekranlarından düşməyən Abbasqulu Nəcəfzadə bu mahnını özü bildiyi kimi oxuculara sırıyır: “Hansı ata toyda yad kişiyə, yəni xanəndəyə qızının gözəlliyindən danışa bilər, xanəndə də mahnı oxuyub gəlinə eşqnamə söyləyər, erotik ifadələr işlədər: “daha məndə hal qalmadı”, “ürəyimi üzən gözəl”, “bir öpərəm, bir dişlərəm” və s. Mahnının yaranmasının bu şəkildə təqdim olunması Azərbaycan kişisinin aşağılanması, təhqir edilməsidir”.

Əvvəla, qeyd edək ki, xanəndə mahnıda gəlinə eşqnamə söyləməyib, erotik ifadələr işlətməyib. Guya, həmin mahnıda “daha məndə hal qalmadı”, “ürəyimi üzən gözəl”, “bir öpərəm, bir dişlərəm” ifadələrini işlətməklə, Firudin bəy Azərbaycan kişisini təhqir edir”. Sonrası da “bir öpərəm, bir dişlərəm” ifadəsi o mahnıda yoxdur. Həmin mahnının sözlərini yuxarıda göstərilib.

Daha sonra müəllif irəli gedərək, qeyd edir ki, mahnıda işlədilən ifadələr milli mentalitetimizə ziddir və bunu oxumaqla o zamankı kişiləri aşağılamış, təhqir etmiş olur. Xanəndə toyda oxuduğu mahnıda “daha məndə hal qalmadı”, “ürəyimi üzən gözəl” sözləri işlədirsə, burada Firidun bəyin nə günahı?! Məgər Firidun bəy toy zamanı C.Qaryağdıoğluya deməli idi ki, sən haçansa A.-Nəcəfzadənin xoşuna gəlməyəcək misraları oxuma?! Qəribə yanaşmadır.

A.Nəcəfzadənin mentalitetimizə zidd olan sitat gətirdiyi misra folklorşünas-alim Hümmət Əlizadənin 1938-ci ildə tərtib etdiyi “Aşıqlar” kitabındandır. Həmin ifadələr C.Qaryağdıoğlu haqqında yazılmış kitabda öz əksini tapmayıb. “Professorun” yuxarıda göstərdiyi “bir öpərəm, bir dişlərəm” misralar və “Azərbaycan kişisinin üzünü qaraldan” ifadələrə Firidun bəyin təqdim etdiyi məqalədə rast gəlinmir. Əgər toyda belə ifaları Azərbaycan kişisinə təhqir sayırsa, o zaman Aşıq Alını, Aşıq Ələsgəri və başqa aşıqlarımızın yaradıcılıqlarını da ittiham etsin, çünki belə misralara onların yaradıcılığında kifayət qədər rast gəlinir.

Məlumdur ki, C.Qaryağdıoğlunın oxuduğu misralar şifahi xalq yaradıcılığında öz əksini tapıb. Axı xanəndə xalq mahnısını necə dəyişdirə bilər? İndiyə baxmayın - kim mahnını necə gəldi, ifa edir, mahnıya min-bir əlavələr edilir və yaxud xoşlarına gəlmədiklərini götürüb atırlar kənara. Elə bil, atalarının malıdır... Belə olduğu halda “professor” hara baxır, harada qalıb onun musiqi təəssübkeşliyi?

Sonda A.Nəcəfzadə lap gül vurub. O yazır: “Şəkidə soltan qalmadı” kimi oxunmalıdır. Çünki Azərbaycanda Gəncədə deyil, Şəkidə soltanlıq olmuşdur. Tanınmış xanəndə Məşədi Hilal Zeynalov da 1910-cu ildə bu mahnını oxuyarkən məhz Şəki sözünü işlətmişdir.

Xoş halına “professor”. Bəlkə bir bakılı xanəndə “Bakıda bəy qalmadı” oxuyub, lakin bizim xəbərimiz yoxdur?!

Bir məsələni də qeyd etmək istərdim. Xanəndələrimiz nəinki toylarda, hətta televiziya ekranlarında “bir öpərəm, bir dişlərəm” ifadəsindən də əcayib misralar oxuyurlar. O zaman respublıikada xanəndə qalmaz, hamını topa tutmalıdırlar. Başa düşə bilmirəm bu necə yanaşmadır.

Diqqət edin, bizim musiqi tariximizi kor qoyan belə “sənətşünaslardır”. Allah bizi belə “alimlərdən” qorusun.

**ASLAN KƏNAN,**
**Tədqiqatçı**



# “Mənzər Nurəliyeva Mədəniyyət Nazirliyində korrupsiya ocağı açıb, amma toxunulmazdır”

*“Vüqar Əhməd qeyd edib ki, Mənzər Nurəliyeva Qubada öz qonşusunun evini yandırıb, bunu sübut edəcək videolar da var”*

**“2 ildir Mədəniyyət Nazirliyi ilə mübarizə aparıram. Ümumən 20 nəfərik. Camaat 1 manat rüşvət alanda 15 il iş kəsirlər. Amma Mənzər Nurəiyeva orada korrupsiya ocağı açıb, heç nə etmirlər”.**

Bu sözləri “Yeni Sabah”a Nizami Gəncəvi adına Ədəbiyyat İnstititunun mətbuat tarixi və publisistika şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Vüqar Əhməd bildirib. O qeyd edib ki, Mədəniyyət Nazirliyinin Tədbirlərin təşkili şöbəsinin müdiri Mənzər Nurəliyevaya heç kimin gücü çatmır: “O boyda Ramiz Mehdiyevi ev dustağı etdilər, amma Mənzərə dövlətin gücü çatmır. Arxası çox güclüdür. Mənə dəfələrlə zəng vurub deyiblər ki, onunla işin olmasın, sənin üçün pis olar. Yeyir, dağıdır, yenə də toxunulmazdır. Əvvəl naziri qınamırdım, xətrini çox istəyirdim, indi görürəm ki, onun da gücü çatmır. Onda niyə oturub orada? Balıq başından iylənir. Mənzər orada 8 milyon pul yeyib. Hesablama Palatası haraya baxır?!”

Vüqar Əhməd qeyd edib ki, Mənzər Nurəliyeva Qubada öz qonşusunun evini yandırıb, bunu sübut edəcək videolar da var:

“Deyirlər ki, ona gücün çatmayacaq. Xeyir, çatacaq. Qüruru yol vermir ki, desin, səhvlərimi boynuma alıram.

Qızım Almaxanım da daxil olmaqla, 20 nəfər hazırda nazirliyin ”qara siyahı”sındadır. Nazirlik , nazirin özü mesajlara cavab vermir. Əbülfəs Qarayevdən artıqsan?! Belə olmaz, mədəniyyət naziri mədəniyyət sahəsini bilən olmalıdır. Əvvəlcə məni qəbul etdilər, 60 illik yubileyimdə fəxri fərman verdilər. Sonra bu da çaşdı. Vəzifəyə gələn kimi hamısı harınlayır”.

Alim AMEA-nın 80 illik yubileyi ilə bağlı da narazılığını bildirib: “Kim akademiyanın rəhbərliyini tənqid edirdisə, hamısına mükafat verdilər. Kimi ki, işinə can qoyurdu, kənarda qaldı. Mənim şöbəm də. Əski əlifbada olan qədim kitab və jurnalları ”tərcümə” etmişdik, karantin vaxtı ”Molla Nəsrəddin” Ensiklopediyası üzərində işləmişdik. Bizə heç qələm də vermədilər. Mükafatı yenə Ramiz Mehdiyevin adamları aldı. Zalı təsərrüfat müdirləri və katibələrlə doldurdular. Mədəniyyət Nazirliyi də eyni gündədir”.

# Azərbaycanda kinoteatrları kimlər məhv edib? - ÖZBAŞINALIQ

**Rəşid Behbudov Fondunun direktoru, jurnalist Kamil Şahverdi keçmiş mədəniyyət naziri, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlunun kino sahəsinə pul ayrılmaması ilə bağlı MM-dəki çıxışına münasibət bildirib.**

O, deyib: “g90-cı illərin sonu, 2000-ci illərin əvvəllərində kinonu (təkcə kinonu deyil) dağıdan, Ramiz əmi ilə (Ramiz Mehdiyev) respublikanın bütün kinoteatrlarını (o dövrdə Azərbaycanda yüzlərlə kinoteatr var idi) satan, kino obyektlərini dağıdan, kinostudiyanın hektarlarla ərazisini restoranlara, tikinti şirkətlərinə “hədiyyə edən”, Şıxovda keçmiş SSRİ-də dəniz çəkilişləri aparmaq üçün dəniz səviyyəsi ilə eyni olan yeganə çəkiliş hovuzunu basıb yeyən, hər rayonda, hər kənddə olan klubları, kitabxanaları rahatca həzm edib üstündən su içən, hələ üstəlik Azərbaycanda mövcud olan 5000-dən artıq kino nümayişi avadanlığını (“sehirli” çubuğu ilə) nazirliyin balansından sildirən, Kinoprokat kimi böyük bir strukturu ləğv edən (Kinoprokatın müdirini işdən çıxara bilmədi deyə, idarəni ləğv etdi), əmlakını isə silən birinə nə düşüb görəsən, kinoya pul ayrılmasının vacibliyindən danışır?”.

**“Təzadlar”dan: Əlavə şərhə ehtiyac varmı?**

# İqtisadiyyatımızın dünya səviyyəsində təhlili...

## *Yaxud, mlli sərvət: seçilmiş ölkələr üzrə təhlil, ÜDM nisbəti, adambaşına analiz və fərqlərin səbəbləri...*



**Saleh Məmmədov,**
***Professor***

### Giriş

**Bu mövzu Azərbaycanda işlənilməmişdir, amma tədqiqata böyük ehtiyac var. Ölkədə milli sərvətin heç statistikası da aparılmır.**

Milli sərvət, adətən fərdi və ailələrin sahib olduğu ümumi xalis aktivlərin məcmusu kimi başa düşülür. Buraya maliyyə aktivləri (səhmlər, istiqrazlar, bank depozitləri) və qeyri-maliyyə aktivləri (daşınmaz əmlak, davamlı istehlak malları) daxildir, öhdəliklər (borclar) isə çıxılır. Bu, Ümumi Daxili Məhsul (ÜDM) ilə fərqlənir - ÜDM ölkədə bir il ərzində istehsal olunan mal və xidmətlərin illik axınını ölçür. Milli sərvət isə nəsillərarası rifahın, qənaət mədəniyyətinin və uzunmüddətli iqtisadi dayanıqlığın göstəricisidir. Sərvət-ÜDM nisbəti (ümumi sərvətin ÜDM-ə bölünməsi) ölkənin illik istehsalına nisbətdə nə qədər yığılmış dəyərə malik olduğunu göstərir. Yüksək nisbət güclü kapital yığılmasını, yüksək qənaət normasını, inkişaf etmiş maliyyə bazarlarını və ya təbii sərvətləri əks etdirir. Aşağı nisbət isə istehlak ağırlıklı iqtisadiyyatı, yüksək borclanmanı və ya inflyasiya kimi xarici şokları ifadə edə bilər.

Məsələ burasındadır ki, qeyri-sabit valyutaları olan ölkələrdə xalqın sərvəti valyuta kurslarının və ucuz ixracat vasitəsilə ölkədən çıxarılır və əhali müflisləşdirilir. 85 milyonluq Türkiyə əhalisinin sərvəti 6,1 milyonluq Sinqapurda iki dəfəyə yaxın azdır. Türkiyənin milli valyutası 1980-cı illərdən bəri milyonlarla dəfə aşağı düşmüşdür. Hökümət elə düşünür ki, ixracatl ucuzlaşdırmaqla daha çox valyuta qazanmaq imkanı var, amma təəssüf ki, bu belə deyil. Ucuz ixracat əhalinin aktivləri hesabına həyata keçirilir və xalqın sərvəti daşınır. Bit Türk vətəndaşı bir dollara hazırda təqribən 6-7 lirə ödəməli olduğu halda hökümətin səhvləri hesabına 35-40 lirə ödəməli olur. Türkiyənin fakti-ki kursla nominal ÜDM-si 1.56 trilyon dollardısa alıcılıq qabiliyyətinə görə (PPP) 3.8 trilyon dollardır. Fərq xalqın sərvəti hesabına başqa ölkələrə ötürülür. Eyni situasiya Azərbaycanda formalaşmışdır. Bir vətəndaş dollara maksimum 50 qəpik ödəməli olduğu vəziyyətdə 1 manat 70 qəpik ödəyir. 2014-cü il devalvasiya ölkənin milli sərvətini iki dəfə azltdı. Bu göstəricilərə görə (nisbət) hər iki ölkədə vəziyyət kritikdir. Bunun da başlıca məsuliyyəti idarəetmə sistemindədir. Təsadüfi deyil ki, hər iki ölkədə hökümətin işinin səmərəlilik indeksi -0 səviyyəsini aşa bilmir. 2014-cü ildə adambaşına düşən ÜDM həcminə görə Azərbaycan Ermənistandan və Gürcüstandan iki dəfə irəli idi. İndi Ermənistandan 1604 dollar, Gürcüstandan isə 2761 dollar geri qalır. Bu gerilik kənarlaşması isə sürətlə artır. 2025-ci ilin doqquz ayı ərzində ÜDM-nin artımı Azərbaycanda 1.3% olmuşdursa, Gürcüstanda 7.7% və Ermənistanda 5.3%, yəni bir neçə dəfə Azərbaycandan çox olmuşdur. Halbu ki, Azərbaycanın iqtisadi artımı təmin etmək üçün dəfələrlə daha çox imkanı, resursları və tələbatı var.

Bu materialda yeddi müxtəlif ölkənin məlumatları təhlil edilir: Amerika Birləşmiş Ştatları (ABŞ), İsveçrə, Sinqapur, Türkiyə, Azərbaycan, Ermənistan və Gürcüstan. UBS Qlobal Sərvət Hesabatı 2024 (2023-cü ilin sonu üçün) və BVF-nin 2024-cü il ÜDM proqnozları əsasında ümumi sərvət, ÜDM, sərvət-ÜDM nisbəti və adam başına göstəricilər araşdırılır. Adam başına təhlil yetkin yaşlı adam başına orta sərvəti ÜDM-in adam başına düşən hissəsi ilə müqayisə edərək fərdi səviyyədə fərqləri üzə çıxarır. Seçilmiş ölkələr spektrin müxtəlif nöqtələrini təmsil edir: inkişaf etmiş maliyyə mərkəzləri (ABŞ, İsveçrə, Sinqapur), inflyasiya təzyiqi altında olan inkişaf etməkdə olan bazar (Türkiyə) və Qafqaz regionunda təbii sərvətlərə və ya remitanslara bağlı iqtisadiyyatlar (Azərbaycan, Ermənistan, Gürcüstan). Nisbətlərdəki fərqlər struktur, siyasət, hökümətlərin iş səmərəliliyi və tarixi amillərdən qaynaqlanır və fərdi iqtisadi strategiyaların zəruriliyini vurğulayır.

### Məlumatlara ümumi baxış: sərvət, üdm və nisbətlər

Aşağıdakı cədvəl əsas göstəriciləri ümumiləşdirir. Ümumi sərvət yetkin yaşlı adam başına orta sərvətin ümumi əhalinin təxminən 75%-ni təşkil edən yetkin əhaliyə vurulması ilə hesablanır (standart proksi). Bütün rəqəmlər ABŞ dolları ilə verilib, ümumi ÜDM və sərvət trilyonlarla ifadə olunur.

### Milli sərvət: seçilmiş ölkələr üzrə təhlil, sərvət və üdm nisbəti, adam başına analiz və fərqlərin səbəbləri

### Məqsəd



Milli sərvət, adətən fərdi və ailələrin sahib olduğu ümumi xalis aktivlərin məcmusu kimi başa düşülür. Buraya maliyyə aktivləri (səhmlər, istiqrazlar, bank depozitləri) və qeyri-maliyyə aktivləri (daşınmaz əmlak, davamlı istehlak malları) daxildir, öhdəliklər (borclar) isə çıxılır. Bu, Ümumi Daxili Məhsul (ÜDM) ilə fərqlənir - ÜDM ölkədə bir il ərzində istehsal olunan mal və xidmətlərin illik axınını ölçür. Milli sərvət isə nəsillərarası rifahın, qənaət mədəniyyətinin və uzunmüddətli iqtisadi dayanıqlığın göstəricisidir. Sərvət-ÜDM nisbəti (ümumi sərvətin ÜDM-ə bölünməsi) ölkənin illik istehsalına nisbətdə nə qədər yığılmış dəyərə malik olduğunu göstərir. Yüksək nisbət güclü kapital yığılmasını, yüksək qənaət normasını, inkişaf etmiş maliyyə bazarlarını və ya təbii sərvətləri əks etdirir. Aşağı nisbət isə istehlak ağırlıklı iqtisadiyyatı, yüksək borclanmanı və ya inflyasiya kimi xarici şokları ifadə edə bilər.

Məsələ burasındadır ki, qeyri-sabit valyutaları olan ölkələrdə xalqın sərvəti valyuta kurslarının və ucuz ixracat vasitəsilə ölkədən çıxarılır və əhali müflisləşdirilir. 85 milyonluq Türkiyə əhalisinin sərvəti 6,1 milyonluq Sinqapurda iki dəfəyə yaxın azdır. Türkiyənin milli valyutası 1980-cı illərdən bəri milyonlarla dəfə aşağı düşmüşdür. Hökümət elə düşünür ki, ixracatl ucuzlaşdırmaqla daha çox valyuta qazanmaq imkanı var, amma təəssüf ki, bu belə deyil. Ucuz ixracat əhalinin aktivləri hesabına həyata keçirilir və xalqın sərvəti daşınır. Bit Türk vətəndaşı bir dollara hazırda təqribən 6-7 lirə ödəməli olduğu halda hökümətin səhvləri hesabına 35-40 lirə ödəməli olur. Türkiyənin fakti-ki kursla nominal ÜDM-si 1.56 trilyon dollardısa alıcılıq qabiliyyətinə görə (PPP) 3.8 trilyon dollardır. Fərq xalqın sərvəti hesabına başqa ölkələrə ötürülür. Eyni situasiya Azərbaycanda formalaşmışdır. Bir vətəndaş dollara maksimum 50 qəpik ödəməli olduğu vəziyyətdə 1 manat 70 qəpik ödəyir. 2014-cü il devalvasiya ölkənin milli sərvətini iki dəfə azltdı. Bu göstəricilərə görə (nisbət) hər iki ölkədə vəziyyət kritikdir. Bunun da başlıca məsuliyyəti idarəetmə sistemindədir. Təsadüfi deyil ki, hər iki ölkədə hökümətin işinin səmərəlilik indeksi -0 səviyyəsini aşa bilmir. 2014-cü ildə adambaşına düşən ÜDM həcminə görə Azərbaycan Ermənistandan və Gürcüstandan iki dəfə irəli idi. İndi Ermənistandan 1604 dollar, Gürcüstandan isə 2761 dollar geri qalır. Bu gerilik kənarlaşması isə sürətlə artır. 2025-ci ilin doqquz ayı ərzində ÜDM-nin artımı Azərbaycanda 1.3% olmuşdursa, Gürcüstanda 7.7% və Ermənistanda 5.3%, yəni bir neçə dəfə Azərbaycandan çox olmuşdur. Halbu ki, Azərbaycanın iqtisadi artımı təmin etmək üçün dəfələrlə daha çox imkanı, resursları və tələbatı var.

Bu materialda yeddi müxtəlif ölkənin məlumatları təhlil edilir: Amerika Birləşmiş Ştatları (ABŞ), İsveçrə, Sinqapur, Türkiyə, Azərbaycan, Ermənistan və Gürcüstan. UBS Qlobal Sərvət Hesabatı 2024 (2023-cü ilin sonu üçün) və BVF-nin 2024-cü il ÜDM proqnozları əsasında ümumi sərvət, ÜDM, sərvət-ÜDM nisbəti və adam başına göstəricilər araşdırılır. Adam başına təhlil yetkin yaşlı adam başına orta sərvəti ÜDM-in adam başına düşən hissəsi ilə müqayisə edərək fərdi səviyyədə fərqləri üzə çıxarır. Seçilmiş ölkələr spektrin müxtəlif nöqtələrini təmsil edir: inkişaf etmiş maliyyə mərkəzləri (ABŞ, İsveçrə, Sinqapur), inflyasiya təzyiqi altında olan inkişaf etməkdə olan bazar (Türkiyə) və Qafqaz regionunda təbii sərvətlərə və ya remitanslara bağlı iqtisadiyyatlar (Azərbaycan, Ermənistan, Gürcüstan). Nisbətlərdəki fərqlər struktur, siyasət, hökümətlərin iş səmərəliliyi və tarixi amillərdən qaynaqlanır və fərdi iqtisadi strategiyaların zəruriliyini vurğulayır.

### Məlumatlara ümumi baxış: sərvət, üdm və nisbətlər

Aşağıdakı cədvəl əsas göstəriciləri ümumiləşdirir. Ümumi sərvət yetkin yaşlı adam başına orta sərvətin ümumi əhalinin təxminən 75%-ni təşkil edən yetkin əhaliyə vurulması ilə hesablanır (standart proksi). Bütün rəqəmlər ABŞ dolları ilə verilib, ümumi ÜDM və sərvət trilyonlarla ifadə olunur. **(bax Cədvəl)!**

Cədvəl kəskin fərqləri üzə çıxarır. İnkişaf etmiş iqtisadiyyatlarda (İsveçrə, ABŞ) sərvət-ÜDM nisbəti 4-dən yuxarıdır, adam başına nisbət isə 6 ətrafındadır - bu, sərvət ehtiyatlarının illik istehsalın 4-6 qatını təşkil etdiyini göstərir. Sinqapur yaxındır, lakin bir qədər geridə qalır. Türkiyədə nisbətlər 1-dən aşağıdır və zəifliyi ifadə edir, Qafqaz ölkələri isə 2-3 arası dəyərlərlə keçid dövrünü əks etdirir.

### Adam başına təhlil

Adam başına göstəricilər əhali ölçüsünə uyğunlaşdıraraq daha dəqiq şəkil verir. ABŞ-da yetkin adam başına orta sərvət (564,862 dollar) ÜDM-in adam başına düşən hissəsindən (89,599 dollar) çox üstündür və nisbət 6.3 təşkil edir - bu, geniş səhm sahibliyini, daşınmaz əmlakın dəyər artımını və sahibkar sərvətini əks etdirir, lakin bərabərsizlik ortalamanı şişirdir (median sərvət ˜107,000 dollar). İsveçrədə daha yüksək nisbət (6.4) qlobal bank mərkəzi rolundan qaynaqlanır: yetkin adam başına sərvət (709,612 dollar) ÜDM-in adam başına düşən hissəsindən (111,047 dollar) yüksəkdir, çünki qənaət norması 15%-dən çoxdur və aktivlər sabitdir.

Sinqapurda nisbət 4.2 ticarət və maliyyə mərkəzi kimi səmərəliliyi vurğulayır: yetkin adam başına sərvət (397,500 dollar) ÜDM-in adam başına düşən hissəsinə (94,481 dollar) nisbətdə yüksəkdir. Pensiya aktivləri (Mərkəzi Təminat Fondu - CPF) və aşağı vergilər buna kömək edir, lakin xarici investisiyalara bağlılıq qlobal dalğalanmalara həssaslıq yaradır.

İnkişaf etməkdə olan bazarlar arasında Türkiyənin 0.97 nisbəti iqtisadi sıxıntını göstərir: yetkin adam başına sərvət (17,578 dollar) ÜDM-in adam başına düşən hissəsindən (18,198 dollar) aşağıdır, inflyasiya (2022-ci ildə 85%-ə çatmış) və lirənin dəyər itirməsi dollarla ifadədə aktivləri aşağı salır. Qafqazda Ermənistan 3.9 nisbətlə fərqlənir (34,988 dollar sərvət vs. 8,969 dollar ÜDM adam başına) - bu, diaspora remitansları (ÜDM-in 15-20%-i) və İT sektorunun inkişafından qaynaqlanır. Azərbaycanda nisbət 2.9 (21,578 dollar sərvət vs. 7,365 dollar ÜDM adam başına) neft gəlirlərindən qaynaqlanır, lakin diversifikasiya geridə qalır. Gürcüstanda nisbət 2.8 (28,169 dollar sərvət vs. 10,126 dollar ÜDM adam başına) turizm və süni intellect inteqrasiyasından irəli gəlir, lakin siyasi qeyri-sabitlik artımı məhdudlaşdırır.

Ümumilikdə, 4-dən yuxarı nisbətlər yetkin maliyyə sistemləri ilə, 1-dən aşağı nisbətlər isə makroiqtisadi qeyri-sabitliklə əlaqələndirilir.

> *“Bu materialda yeddi müxtəlif ölkənin məlumatları təhlil edilir: Amerika Birləşmiş Ştatları (ABŞ), İsveçrə, Sinqapur, Türkiyə, Azərbaycan, Ermənistan və Gürcüstan”*

### Ölkələr arasında nisbət fərqlərinin səbəbləri

Sərvət-ÜDM nisbətlərindəki fərqlərhökümətlərin faydalı iş əmsalı. iqtisadi strukturlar, siyasətlər, tarixi irs və xarici amillərin qarşılıqlı təsirindən irəli gəlir.

İnkişaf etmiş iqtisadiyyatlar (ABŞ, İsveçrə, Sinqapur): Yüksək nisbətlər (4-6) mürəkkəb maliyyə ekosistemlərindən qaynaqlanır. ABŞ-da innovasiya əsaslı iqtisadiyyat (Apple, Google, Nvideo kimi nəhənglər) ÜDM-i səhm bazarlarına yönəldir, ailələrin xalis sərvəti 2023-cü ildə ˜156 trilyon dollara çatır. İsveçrənin bank sektoru qlobal offşor sərvətin ˜25%-ni idarə edir, neytrallıq və məxfilik qanunları ilə depozitləri cəlb edir, aktiv ağırlıklı balanslar yaradır. Sinqapurda nisbət suveren sərvət fondları (GIC, Temasek) və 40% qənaət norması ilə dəstəklənir, lakin kiçik ölçüsü ticarət pozuntularına həssaslıq yaradır. Bu ölkələrdə aktivlərə çıxışda aşağı bərabərsizlik və güclü mülkiyyət hüquqları sərvətin uzunmüddətli artımını təmin edir.

İnkişaf etməkdə olan bazar çətinlikləri (Türkiyə): 1-dən aşağı nisbət inflyasiya və valyuta böhranlarının sərvəti məhv etdiyini göstərir. 2018-ci ildən sonra qeyri-standart monetar siyasətlər real sərvətin dollarla ifadədə -46% azalmasına səbəb olub (2015-2023), ailələr lirə qeyri-sabitliyi fonunda qızıla keçib. Tikinti və ixracdan ÜDM artımına baxmayaraq, borclar yüksəlir (ailə borcu ÜDM-in ˜60%-i). Bu, siyasət səhvlərinin struktur üstünlükləri üstələdiyini göstərir.

Keçid iqtisadiyyatları (Azərbaycan, Ermənistan, Gürcüstan): 2-3 arası nisbətlər təbii sərvət lənəti, remitanslar və islahatlardan qaynaqlanır. Azərbaycanda neft/qaz ixracı (90%) suveren fondları (SOFAZ, ˜71milyard dollar) gücləndirir, lakin qeyri-neft ÜDM cəmi 4% böyüyür, korrupsiya qazancıları azaldır. Ermənistanın daha yüksək nisbəti illik 2 milyard dollar remitans və diaspora dəstəkli startap ekosistemi ilə bağlıdır. Gürcüstanın balanslaşdırılmış profili - turizm (ÜDM-in 15%-i) və biznes islahatları (Doing Business (R-business) reytinqi 7-ci) - sabit yığılma təmin edir, lakin 2008 müharibəsi və 2022 Ukrayna təsiri xarici investisiyaları məhdudlaşdırır. Regional münaqişələr sərvət quruculuğundan müdafiəyə (məsələn, Ermənistanda ÜDM-in 5%-i) resurs yönəldir.

Daha geniş səbəblərə bərabərsizlik (Gini əmsalı: ABŞ 0.41, Türkiyə 0.43 vs. İsveçrə 0.33), demoqrafik profil (Avropada qocalan əhali qənaəti artırır) və qlobal inteqrasiya (Sinqapurun ticarət açıqlığı vs. Azərbaycanın enerji asılılığı) daxildir. Qafqazda postsovet keçid informal iqtisadiyyatı rəsmiləşdirməni ləngidib.

### Nəticə

Sərvət-ÜDM nisbətləri iqtisadi yetkinlik və zəiflik portretini çəkir: İsveçrə və ABŞ 4-dən yuxarı nisbətlərlə dayanıqlı yığılmanı təcəssüm etdirir, Türkiyənin aşağı nisbəti isə kövrəkliyi xəbərdar edir. Adam başına baxış fərdi imkanları üzə çıxarır - Sinqapurun qənaət əsaslı rifahından Ermənistanın remitans xilasediciliyinə qədər. Fərqlər sərvətin sadəcə ÜDM-in nəticəsi olmadığını, inklüziv siyasətlər, diversifikasiya və sabitliyin funksiyası olduğunu vurğulayır. Azərbaycan, Ermənistan və Gürcüstan üçün Sinqapur modelini təqlid nisbətləri qaldıra bilər; Türkiyə inflyasiya nəzarətinə ehtiyac duyur. Siyasətçilər maliyyə inkluziyası və aktiv müdafiəsinə üstünlük verməli, sərvətin bərabər rifaha çevrilməsini təmin etməlidirlər. Qlobal sərvət 2027-ci ilə qədər 500 trilyon dollara çatdıqca, bu ölkələrin trayektoriyaları regional dinamikaları formalaşdıracaq.

**...Hər kəs bir gün dünyasını dəyişir. Amma indiki zamanda yaşamaq da, ölmək də çox bahadır... Qəbiristanlıqlarda qiymətlər “od tutub yanır”, dəfn xərcləri isə elə səviyyəyə çatıb ki, ölüsü də, dirisi də əzab çəkir. Burada insan doğmasını itirəndə təkcə ölü dərdi yox, həmçinin “pul dərdi” də yaşayır. Bu, açıq-aşkar qəbiristanlıq mafiyasının cibinə işləyən sistemdir və insanların narazılığı hər gün getdikcə artır. Heç bir dövlət rüsumu yoxdur, amma pul tələb olunur. Dəfn üçün verilən pula görə heç bir sənəd, qəbz verilmir.**

# Qəbiristanlıqlar bazara çevrilib

## Şəhərin mərkəzindəki mənzillərin 1 kv.metrinin qiymətindən daha bahalı qəbir yerləri var...



Biz hər fürsətdə “Avropada belədir” deyirik. Bəs görəsən, o “nümunə götürdüyümüz” Avropada və s. ölkələrdə qəbiristanlıqlar da bazara çevrilibmi? Orada da torpağın altına girmək üçün qiymət cədvəli asıblarmı? Əgər doğrudan da belə bir nümunə mövcuddursa, bizdə də bu sahədə dövlət rüsumları tətbiq edilməli, şəffaf mexanizm qurulmalıdır. Bax, həqiqət budur: bizdə icra hakimiyyətləri və qəbirstanlıq dəllalları ölülərin hesabına qazandıqları pullarla evlər, bahalı maşınlar alır, kef içində yaşayırlar. Bəlkə də heç ölənə “rəhmət” də demirlər.

### Qəbir yeri od qiymətində

Əhmədlidə yerləşən qəbiristanlıqlardan birinin “şef”inə zəng edib qiymətləri öyrənməyə çalışdıq. Lakin telefonda “qiymət demirik” cavabını aldım. Bununla kifayətlənməyib, Suraxanı rayonu ərazisindəki “Dədə Qorqud” qəbiristanlığına üz tutdum. Buranın müdiri Ümid adlı şəxsdir. O, qiymətlər barədə verdiyim suallardan yayınırdı.

Qeyd edək ki, Ümid kişinin oğlu İkinci Qarabağ müharibəsində şəhid olub və bundan sonra o, həmin qəbiristanlığa müdir təyin edilib. Qiymət barədə israrla soruşduqda isə “rəh-mətə gedən şəxsin sənədlərini gətirin, o zaman baxarıq” cavabını verdi. Bildirdim ki, “yaxın tanışımız dünyasını dəyişib, ailəsi hazırda çox çətin vəziyyətdədir, maddi imkanı yoxdur, ona görə əvvəlcədən qiyməti öyrənmək istəyirik”. O da qəti şəkildə bildirdi ki, ölən adamın sənədini göstərməsəniz qiymət deyə bilmərəm. Ümid kişinin son sözü bu oldu ki, ən ucuz yer Hövsan qəbiristanlığındadır, yaxşısı budur ora gedin.

Aparılan araşdırmadan sonra öyrəndik ki, Bakının bəzi qəbiristanlıqlarında bir qəbir yeri 3 min manatdan başlayır, bəzi hallarda isə 10 min manata qədər yüksəlir. Xüsusilə “İkinci Fəxri Xiyaban” kimi məkanlarda qiymətlər daha yüksəkdir.

**Bu rəqəmlər hər kəsi şoka sala bilər. Çünki söhbət ticarət obyektindən, torpaq sahəsindən, mənzildən, ofisdən getmir - söhbət ölünün son mənzilindən gedir. O mənzil ki, sahəsi uzaq başı 2 kvm.- dir.**

Maraqlısı isə odur ki, həmin yerlərin heç biri şəxsi mülkiyyət kimi qeydiyyata düşmür. Qəbirlərə də “çıxarış” verilmir. Pulunu ödəyirsən, amma sənə aid olan yeganə sənəd, qəbzin özüdür.

Bakı Şəhərində həm ölmək, həm də yaşamaq üçün torpaq tapmaq çətindir. Amma insan həyatda çox şeyi planlaşdıra bilir - yalnız bir şeyi bilmir: harada öləcəyini və harada dəfn olunacağını.

### Ölülər üçün ayrılan torpaq, bəzən dirilərin yaşadığı torpaqdan çox bahalı olur...

Bəli, düz başa düşdünüz: ölülər üçün nəzərdə tutulmuş qəbiristanlıqlarda qəbir yerlərinin eni cəmi bir, uzunluğu isə adətən 2 metr olur (2 metrdən uzun olanlara çox nadir hallarda rast gəlinir). Yəni, ümumi sahəsi təxminən 2 kvadratmetr belə etmir. Bununla belə, həmin ərazi sahəsi şəhərin mərkəzində yerləşən mənzillərin 1 kvadratmetrin qiymətindən baha başa gəlir.

Bir insanın həyatı boyu ev almağa gücü çatmaya bilər. Amma ən sonda belə, ona 2 kvadratmetrdən də az torpaq baha qiymətə satılır. Elədir ki, var: qəbiristanlıq paytaxtın ən bahalı torpaq bazarıdır.

### Sanki qəbiristanlıq bir gəlir obyektinə çevrilib

Qəbirqazanlar öz zəhmətinə görə pul alsa da, sakinlərin dediyinə görə, onların da qazandıqlarından müəyyən pay “yuxarıya” gedir. Qəbiristanlığın yiyəsi kimdir, bilirsinizmi? Kim olacaq? Əlbəttə, ərazi üzrə Rayon İcra Hakimiyyətləri və onları təyin etdikləri qəbiristanlıq müdirləri. Elə davranırlar ki, sanki qəbiristanlıq onların şəxsi obyektidir. Qəbirqazanlardan, dua oxuyan mollalardan bəlkə də oradakı dilənçiləri də “tasa” otuzdurublar. Meyit belə, kimsənin əlində qazanc vasitəsinə çevrilib.

### Ölü yiyəsi borc altında qalırsa...

Bəli, elədi ki var. İnsan öləndə belə, yaxınları onun dəfnini necə təşkil edəcəyini, pulu haradan tapacağını düşünür. Bəzən elə ailələr var ki, dəfn xərclərini qarşılamaq üçün borc alırlar. Həyat boyu çətinlik çəkən insanlar öləndə də rahatlıq tapmır. İnsanların gəliri, pensiyası, maaşı normal olarsa, bu qədər ağır vəziyyət yaşanmaz. Deyirəm, vallah, insana rahat ölməyə də imkan vermirlər. Adam can verir, amma fikri hələ də cibində, borcunda, torpağında qalır. Düşünür ki, ay Allah, mən öləndən sonra ailəm, yaxınlarım ağır yük altında qalacaq - harda basdıracaqlar, o pulu haradan tapacaqlar, qəbir yeri ala biləcəklərmi? İnsan bu torpaqda öləndə belə, rahatlıq tapmır, çünki ölüm də bahalaşıb. Yaşamağın da, ölməyin də, bir sözlə, hər şeyin qiyməti var. Amma indi insanlar ölümü də cibinə baxıb planlaşdırır. Vallah, adam mat qalır bu vəziyyətə. Ölüdən də pul umarlar? Yəni, biz mentaliteti və ağlımızı bu qədər itirmişik? Maddiyyat bu qədərmi bizi əsir edib?

### Heç olmasa, torpaq pulsuz olsun...

Dövlət üçün xidmət etmisən, hər şeyini vermisən, amma ömrünün axırında ölürsən və torpağın altına getmək üçün pulunu verib getməlisən? Heç olmasa, ən azı öləndə iki metr torpağı insana pulsuz verə bilməzlərmi? Bəli, bu açıqaydın soyğunçuluq və haqsızlıqdır. Bəli, illərlə xidmət edən vətəndaş, nəhayət, torpağa qarışmaq istəyəndə belə “qiymət cədvəli” ilə üzləşir.

*“Dövlət üçün xidmət etmisən, hər şeyini vermisən, amma ömrünün axırında ölürsən və torpağın altına getmək üçün pulunu verib getməlisən?”*

Bu torpaq, bu vətən onsuz da onların zəhməti, alın təridir. Amma indi vəziyyət elədir ki, ömrün son dayanacağı da “ödənişli xidmət”ə çevrilib. Ölüm isə insanın həyatındakı son dayanacaqdır - rahatlıq, sükunət yeri. Amma görünür, bizdə bu son dayanacaq da pulludur. Əlbəttə, yaşamaq üçün pul lazımdır, ancaq həm də ölmək üçün də pul Tələb edilir. İnsan ömrünün sonunda rahat torpaq tapmırsa, deməli, bu torpaq artıq insana yox, pula xidmət edir. Ölüm ticarətə çevrilib, qəbiristanlıqlar isə vicdanın yox, şəxsi marağın ölçüldüyü bazara... Bu bazara nəzarət edən kiçik məmurlara bəzi mətləbləri anlatmağın da vaxtıdır...

**Elşad FƏRMANOĞLU**

# «Sınaq poliqonu”na çevrilmiş Azərbaycan təhsili

*“Ölkənin ən strateji sektoru - təhsil sistemi ən çevik və nəticəyönlü sahə olmalıdır”*



**Son günlər Elm və Təhsil Naziri Emin Əmrullayevin Milli Məclisdə səsləndirdiyi açıqlamalar, sanki rezonans effekti yaratdı. Təhsil hər birimizin həyatının, gələcəyimizin ayrılmaz hissəsidir - buna görə də bu sözlər dərhal cəmiyyətin diqqət mərkəzinə düşdü. Amma sosial şəbəkələrə və mətbuata nəzər salanda bu açıqlamalara müsbət yanaşan çox az adam var. Hətta bəziləri biraz da irəli gedərək, Emin müəllimi “təhsil düşməni” kimi qələmə verməkdən çəkinməyib. Onsuz da qalmaqallı açıqlamaları ilə diqqət çəkən Emin Əmrullayev bu dəfə daha sərt tənqidlərin hədəfinə çevriləcək. Və bu, yalnız başlanğıcdır. Təhsil məsələsi sadəcə siyasət deyil - gələcəyimizdir. Gələcək nəsillərin taleyi isə bu gündən formalaşır.**

Hər kəs eyni sualı verir: bu dəyişikliklər müəllimlərin gündəlik işini həqiqətən asanlaşdıracaq, yoxsa sadəcə kağız üzərində qalan eksperiment olaraq qalacaq?

Cəmiyyətin reaksiyası göstərir ki, təhsil sahəsindəki hər yenilik yalnız plan üzrə deyil, real nəticələr və müəllimlərin gündəlik təcrübəsi ilə ölçülməlidir. Əks halda, istənilən islahat boş sözlərdən o tərəfə keçməyəcək.

ETN isə hələ də axtarışdadır: iş saatlarının dəyişdirilməsi, ardıcıl eksperimentlər və qeyri-sabit qərarlar... Sanki Azərbaycan təhsil sistemi “sınaq poliqonu”-dur. Halbuki son 30 ildə imitasiya üzərində qurulan təhsil modeli cəmiyyətin gələcəyə pessimist yanaşmasına zəmin yaradır, çox təəssüf.

*“ETN isə hələ də axtarışdadır: iş saatlarının dəyişdirilməsi, ardıcıl eksperimentlər və qeyri-sabit qərarlar...”*

Rəqəmsal dünyaya transformasiya olunmayan cəmiyyətlərdə insanlar qlobal inkişafdan geri qalacaq, özlərini zəif hiss edəcək, zamanla gərəksiz olduqlarını anlayacaqlar. Bu, xüsusilə öyrənmək, dəyişmək istəməyənlərə aiddir. Amma, qlobal proseslərə adaptasiya olanlar üçün vəziyyət tam fərqli olacaq: yaradıcı düşünən, analiz edən, ideya istehsal edən cəmiyyətlər üçün rəqəmsal dövr yeni imkanlar yaradacaq. Unutmayaq ki, süni intellektin məlumat bazası insan zəkası, insan yaradıcılığı və insan təcrübəsi ilə zənginləşir.

Süni intellekt “yanacaq mənbəyi”nə çevrilə bilməyən cəmiyyətlər üçün isə, proses çətin və ağrılı olacaq.

Xatırladaq ki, 44 günlük müharibədən sonra Azərbaycan Prezidenti İlham Əliyevin gələcəyə baxışının əsas strateji istiqamətlərindən birini “yaradıcı və innovativ cəmiyyət” qurmaq təşkil edir. Bu model Azərbaycanın gələcək inkişafının tək mühərrikidir. Çünki bu gün ölkələr arasında rəqabət artıq ərazi və ya resurs uğrunda deyil, bilik, texnologiya və yaradıcılıq uğrunda gedir. Dövlət başçısının vurğuladığı innovativ cəmiyyət konsepsiyası, əslində, Azərbaycanın yeni təhlükəsizlik doktrinası, yeni sosial-iqtisadi modelidir. Belə bir mərhələdə ölkənin ən strateji sektoru - təhsil sistemi ən çevik və nəticəyönlü sahə olmalıdır. Əksinə, təhsil hər gün dəyişən dünya ilə ayaqlaşmaq üçün qabaqlayıcı qərarlar qəbul etməli, yeni nəsli qlobal rəqabətə hazırlamalı idi. Bu işdə əsas məsuliyyət isə heç şübhəsiz ki, Elm və Təhsil Nazirliyinin üzərinə düşür.

ETN bu istiqamətdə görülən işlər barədə danışmaq, nəticələr haqqında sorğular aparmaq əvəzinə, hələ də toplananların yerini dəyişməklə məşğuldur.

**P.S. Yağış yağanda körpüləri su basır, əksər media əməkdaşları və sosial şəbəkə istifadəçiləri gecəgündüz bundan yazır, danışırlar. Amma hər kəsin göz önündə “lil” basmış təhsil sistemini görmək istəmirlər, sanki belə bir problemimiz yoxdur. Artıq gecikmək olmaz: aidiyyatı qurumlar və məsul şəxslər ölkəmizin gələcəyini xilas etmək üçün real islahatlar aparmalı, gənclərin bacarıqlarını inkişaf etdirəcək davamlı strategiya tətbiq etməlidirlər. Əks halda, imitasiya üzərində qurulan hər dəyişiklik boş yerə sərf edilmiş enerji kimi qalacaq və Azərbaycan təhsil sistemi yalnız ötən illəri yox, gələcək nəsillərin perspektivini də riskə atacaq.**

**Bahadur Aliyev**

# Bəs, jurnalist həmrəyliyi harda qaldı?

**...Noyabrın 11-də aldığım qəfil və acı xəbərdən çox sarsıldım. Azərbaycan Jurnalistlər Birliyinin sədr müavini, əsl ziyalı, nəcib, səmimi, qayğıkeş, ədəbli bir insan olan Şahin Babayev ürək tutmasından dünyasını dəyişdi.**



Həmkarım Şahin jurnalistika fakültəsində məndən bir neçə kurs sonra oxuyub, bərabər çalışmamışıq, yaxın dost da olmamışıq. Onu Jurnalistlər Birliyində görəndə illərin tanışı kimi isti, səmimi qarşıladı məni. Üzvlük vəsiqəmi dəyişəndə illik üzvlük pulunun miqdarını belə deməyə çətinlik çəkirdi, utanırdı. Onun nəcibliyi, sadəliyi, qarşısındakı insanla gözəl ünsiyyəti, vəzifəsini vicdanla yerinə yetirməsi məndə elə yüksək hisslər oyatmışdı ki...Nə yaxşı ki, jurnalistika camiəsi bu cür ziyalılardan xali deyil deyə düşünmüşdüm.

Bir neçə dəfə də məndən Birliyə yeni üzv olmaq istəyən jurnalistlər haqqında fikir bildirməmi istəmişdi. Sən fəal jurnalistikadasan, daha yaxşı tanıyırsan- demişdi. Kimsə söyləyə bilməz ki, Şahin üzvlük vəsiqəsini verəndə nəsə umsun. Bu onun xarakterinə və yaşam tərzinə tam əks hal idi. Dürüst, ədalətli, məsuliyyətli, olduqca nəcib əsl ziyalı idi. Əsl ona görə deyirəm ki, indi yalandan özünü ziyalı adlandıran, yaxud da bir-iki cızma-qarası olsa da, keyfiyyətsiz xarakterli insanlar çoxdu. Şahin bir başqa idi.

Gözə girmək, özünü kiməsə göstərmək, öymək, ödül dalınca qaçmaq və s. bu kimi hallardan çox uzaq idi. Şahinlə bircə dəfə ünsiyyətdə olmaq kifayət idi ki, o daim sənin yaddaşında qalsın və nə yaxşı ki, hələ də bu cür dürüst, səmimi, kübar, ziyalılar var qənaəti gələsən. Amma 4 gündür ki, o aramızda yoxdu. Şahinin itkisi məni çox sarsıtdı. Amma ən azı onun itkisi qədər məni sarsıdan dəfn mərasimində həmkarlarının olmaması idi. Kimsənin olmaması nə dəfndə, nə də 3 mərasimində. Şahinin Jurnalistlər Birliyinin üzvlük vəsiqəsini verdiyi jurnalistlərin yüzdən bir faizi gəlsəydi onun dəfni o qədər sönük və kimsəsiz keçməzdi.

Onunla ən azı həftədə 2-3 dəfə üz-üzə gələn, eyni binada yerləşən “Xalq qəzeti”nin kollektivi necə? Sizin Şahinə bir vəfa borcunuz yox idimi? Sizin qəlbinizi heç titrətmədimi onun qəfil ölümü? Bunudamı sizə redaktorunuz tapşırmalı idi?

Bəs, bar-bar bağırdığınız jurnalist həmrəyliyi necə oldu? Bunun üçün Şahin reket olmalı idimi, məmur qapılarında qalmalı idim? Çox təəssüflər olsun. Şahin bu laqeydliyə, bu dönüklüyə, bu soyuqluğa, bu vəfasızlığa layiq deyildi, heç deyildi.

Üç mərasimində bacısı Kəmalə xanım adımı soruşdu. Dedi ki, hə, telefonunda sizin adınız var. Və Kəmalə xanım Şahinin telefonunun kontaktında olan bütün isimləri güman ki, incələyib, onların yolunu gözləyir.

Nurlar içində yat nur üzlü həmkarım, izin də, işığın da, adın da, şəxsiyyətin də hafizəmizdə, qəlbimizdə yaşayacaq.

**Əntiqə Qonaq,**
**AJB üzvü**

# “Rayon məktəblərində elə adamlar çalışır ki, heç not bilmir”



**“Bu il rayon və şəhərlərdə musiqi məktəblərinə qəbul yerləri azaldılıdı”. “Təzadlar” xəbər verir ki, bunu Milli Məclisin Gənclər və idman, İctimai birliklər və dini qurumlar, Mədəniyyət komitələrinin birgə iclasında 2026-cı il büdcə zərfinin müzakirəsi zamanı deputat Ceyhun Məmmədov bildirib.**

Deputat deyib ki, eyni zamanda bölgələrdə mədəniyyət sahəsində çalışan işçilərlə bağlı bir sıra qərarlar qəbul edildi: “Burada xüsusilə bir məsələni qeyd etmək istəyirəm. Misal üçün mənim təmsil etdiyim bölgədə 5 kitabxanada belə bir problem var. Kitabxananın işçisinin 65 yaşı tamam olub, təqaüdə göndərilib və yerinə işçi götürülməyib. Bu gün həmin 5 kitabxananın fəaliyyəti dayanıb. Hesab edirəm bu məsələnin xüsusi diqqətdə saxlanılmasına ciddi ehtiyac var”.

Parlament sədrinin müavini Rafael Hüseynov isə qeyd edib ki, bu sahədə də yenilik olmalıdır:

“Musiqi məktəbində çalışanların işsiz qalması arzu olunan deyil. Amma baxılmalıdır. Xüsusilə, rayon musiqi məktəblərində elə adamlar çalışır ki, heç not bilmir, elementar biliklərdən məhrumdurlar. Digər tərəfdən, bu gün mədəniyyət evləri və klublar öz funksiyalarını yerinə yetirə bilmir. Bütün istiqamətlər üzrə biz modernləşməyə çalışacağıq. Bu zaman ixtisarların, bağlanmaların da səbəbi aydınlaşar”.

# Tanınmış tədqiqatçı Firidun Şuşinski ilə bağlı şuşalılara müraciət etdi



*“Cənab Şuşanın ziyalıları və Firidun bəyi tanıyanlar! Sözüm Sizlərədir. Bu sətirləri yazanda Mirzə Cəlili xatırladım”*

**“Təzadlar”a təqdim edilmiş həmin müraciəti olduğu kimi təqdim edirik:**

**“Sözüm şuşalılaradır!**

Əziz şuşalılar, Sizə xatırlatmaq istərdim ki, XX əsrin əvəzolunmaz musiqi tədqiqatçısı Firidun Şuşinskinin 20 oktyabr 2025-ci il tarixdə anadan olmasının 100 illiyidir.

Firidun Şuşinski Azərbaycanın dilbər guşəsi olan, Sizin qürurla adını çəkdiyiniz, uzun müddət düşmən tapdağı altında inləmiş Şuşa şəhərində anadan olub. Siz bilirsiniz ki, Firidun bəy Şuşanın düşmən tapdağı altında qaldığına dözməyərək dünyasını dəyişdi. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev 2020-ci il noyabrın 8-i Azərbaycan xalqına müraciətində Şuşa şəhərinin artıq erməni işğalından azad edildiyini bəyan edərək, Azərbaycanın son yüz illik tarixinin ən möhtəşəm müjdəsini verdi. Şuşanın işğaldan azad edilməsi Azərbaycanın siyasi, hərbi və mənəvi qələbəsini tamamladığını bəyan etməklə, xalqın iradəsini bir daha nümayiş etdirdi.



Firidun bəy bu müqəddəs müjdəni çox arzulayırdı, lakin təəssüflər olsun ki, Cənab Prezidentin bu xoş müjdəsini görə bilmədi.

F.Şuşinski yeganə musiqi tədqiqatçısıdır ki, həyatının 30 ildən çoxunu Azərbaycanda XIX-XX əsrlərdə yaşamış muğam ifaçılarının tədqiqində və təbliğində təmənnasız xidmətlər göstərmişdir. Ümumiyyətlə, F.Şuşinski tədqiqat aparmaq üçün ömür boyu dövlətdən heç bir maliyyə vəsaiti almamışdır. F.Şuşinski, həmçinin uzun müddət radio və televiziyada da muğam ifaçılığı haqqında verilişlər aparırdı. O, nəinki musiqisevərlərin, hətta adi azərbaycanlı tamaşaçısının da sevimlisinə çevrilmişdi. Həmin tamaşaçılar Firidun müəllimin müəllifi və aparıcısı olduğu “İfaçılıq sənəti”, “Muğam axşamı” verilişlərini səbirsizliklə gözləyirdilər.

*“Bir zaman gələcək, F.Şuşinskini yaddan çıxarmaq istəyənlər özləri bu hərəkətlərinə görə xalqın yaddaşından silinəcəklər”*

F.Şuşinskinin həyatı mənə 1937-ci il repressiyasının qurbanı olmuş ədəbiyyatşünas, folklorçu Salman Mümtazı xatırlatdı. S.Mümtaz da atasından qalan var-dövləti ədəbiyyatımızın, folklorumuzun və onun yaradıcılarının üzə çıxarılıb, xalqımıza tanıtdırılmasına sərf etmisdi. Onun da bir çox kitabı çap olunmuş, lakin işıq üzü görməyən neçə-neçə əlyazması tonqallarda yandırılmış, özü isə “vətən xaini” kimi repressiyaya məruz qalmışdı.

S.Mümtaz bəraət alandan xeyli müddət sonra kitabları yenidən nəşr olunmuşdur. Bu zaman məlum olmuşdu ki, tədqiqatçının yoxluğundan istifadə edən bəzi “görkəmli alimlərimiz” S.Mümtazın əziyyətlə topladığı əlyazmalara öz imzalarını qoyub, nəşr etdirmiş və nəticədə “professor”, "akademik" adı almışlar. Artıq o vaxtdan neçə illər keçib, sular durulub, haqq yerini tapıb.

F.Şuşinski dünyasını dəyişəndən sonra yeni musiqi “tədqiqatçılar”ı, “musiqişünaslar” meydana çıxmış və onun minbir əziyyətlə toplayıb nəşr etdirdiyi yazılarını oğurlamışlar. Həmin “hazırın naziri” olan imza müəllifləri çox zaman “professor”, “akademik” adları daşıyanlardır.

Cənab Şuşanın ziyalıları və Firidun bəyi tanıyanlar! Sözüm Sizlərədir. Bu sətirləri yazanda Mirzə Cəlili xatırladım. Qeyri-ixtiyari olaraq aşağıdakı ifadələr qarşımda bir-birinin ardınca düzülməyə başladı: -Sizi deyib gəlmişəm, ey xalqının qeyrətli ziyalılarına xor baxan cənablar! O kəsləri deyib gəlmişəm ki, mənim bu sərt fikirlərimi xoşlamayıb, bəhanə ilə gedirlər. Hara getdikləri də məlumdur. Kimi ekstrasens yanına, kimi alt paltarlarını televiziya ekranlarına nümayiş etdirənlərin, kimi arvad kimi saçlarını qaraldıb, üzlərini min cür hala salanların verilişlərinə baxmağa tələsir, kimi üzlərinə ənnik-kirşan vurmaq üçün “gözəllik” salonuna, kimi də “oxuduğu” və “danışığı” məlum olmayan “şou əhlindən ləzzət” almağa. Çünki hökm edənlər buyurublar.

Bir zaman gələcək, F.Şuşinskini yaddan çıxarmaq istəyənlər özləri bu hərəkətlərinə görə xalqın yaddaşından silinəcəklər. Onu unutdurmaq arzusunda olanlar nə vaxtsa öz hərəkətlərinə görə tarix qarşısında cavab verməli olacaqlar. Bu cür nadanlar adlarını xanəndə qoyub, muğamları, el havalarını, bəstəkar mahnılarını oxuyarkən hoqqabazlıq edənlərdir. Ustadlarımızın bizə miras qoyduğu xəzinəni yaddan çıxartmağa cəhd edənlər o şəxslərdir ki, bu xalqın çörəyini yeyib, sərvətinə xor baxanlardır. Onlar muğamdan öz mənafeləri üçün istifadə edənlərdir. Həmin şəxslər musiqi haqqında hər hansı bir yazı hazırlayanda F.Şuşinskidən qalaq-qalaq cümlələr oğurlayıb, mənbəyini göstərməyənlərdir. Bu cür şəxslər musiqişünasın cismani yoxluğundan istifadə edib, onun fikirlərini, cümlələrini, böyük abzaslarını, yazılarını mənimsəyənlərdir.

F.Şuşinski belələrinə qarşı barışmaz mövqedə dururdu, onlara “süfrənin artığını yeyənlər” deyirdi. O, çəkinmədən sözü üzə deməklə yaltaqlara, musiqimizə xor baxanlara, səsi olmayanlara, muğamın guşələrini bilməyən, lakin özünü muğam ustası sayanlara qənim kəsilər, onları bu yoldan uzaqlaşdırmağa çalışırdı. O, belə xanəndələrə “muğama dürtülənlər” deyirdi.

Firidun Şuşinski ömrünün sonuna yaxın muğam tariximizin 200 illik bir dövrünü əhatə edən, vaxtilə televiziya və radio dalğalarında çıxışları, ömürboyu tədqiqat apardığı, vərəqələrə köçürtdüyü və yeri gəldikcə mətbuat səhifələrinə çıxardığı yazıları bir araya yığıb, nəşr etdirmək qərarına gəlir. Firidun Şuşinskinin yaradıcılığını daim diqqət mərkəzində saxlayan dünya şöhrətli bəstəkar Fikrət Əmirov yazırdı: “Firidun Şuşinski həm bir alim, musiqişünas, həm də şəxsiyyət kimi aləmdir, əvəzsiz və bircədir, misilsizdir. Deyir və düşündürür. Biz Azərbaycan millətinin inkişafı və sağlamlaşması naminə Firidundan muğayat olmalıyıq”.

Ustad sənətkar haqlı idi. Firidun bəy kimi xalqına qəlbən yanan, onun musiqi tarixinə bütün varlığı ilə bağlanan tədqiqatçının yenidən həyata gəlməsi uzun illər çəkəcək. Lakin biz onu qoruya bildikmi? Xeyr! Qorumaq əvəzinə, onu məhv etdik. Bəli, biz onu bilə-bilə, görə-görə məhv etdik.

**Əziz şuşalılar!**

Sizə yenidən xatırladım ki, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan “Beynəlxalq Muğam Mərkəzi” Firidun Şuşinskinin ən böyük arzularından biri idi. Çox yaxşı haldır ki, “Beynəlxalq Muğam Mərkəzi” şəhərimizin mərkəzində yerləşir. Sevindirici haldır ki, hər bura daxil olan şəxs XIX-XX əsrlərin muğam ifaçıları ilə rastlaşır. Ağ mərmərə bürünmüş bu sənətkarların xalqımız tərəfindən tanınmasında Firidun Şuşinskinin əvəzsiz xidmətləri olmusdur. Yaxşı olardı ki, ömrünün 40 ilini bu unudulmaz sənətkarların həyat və yaradıcılığına sərf etmiş Firidun Şuşinskinin büstü də həmin ustad sənətkarların yanında yerləşdirilsin. Axı F.Şuşinski olmasaydı, Muğam Mərkəzində həmin şəxslərin büstləri də oranı bəzəməyəcəkdi. Məgər əvəzolunmaz musiqi tədqiqatçısının-alimin anadan olmasının 100 illiyində Firidun Şuşinskinin yaşadığı evin qarşısında xatirə lövhəsi, həyatı qədər sevdiyi doğma Şuşada adına küçə qoymaq, əsərlərini nəşr etdirmək bu qədərmi çətindir?

İnanmaq istərdik ki, aidiyyəti qurumların rəhbərləri Prezident Adminstrasiyasına bu barədə müraciət edəcəklər. İnanmaq istərdik ki, Sizlər bu təşəbbüsün avanqardı olacaqsınız. Qoy bunlar anadan olmasının 100 illiyi ərəfəsində Firidun Şuşinskinin adının əbədiləşdirilməsinə hər birimizin təmənnasız və vətənpərvər cəhdi olsun. Axı, onun buna haqqı vardır! İndi onun ruhu bizimlədir!”.

**REDAKSIYADAN: İNANIRIQ Kİ, USTAD SƏNƏTKARIN-MUSİQİŞÜNAS ALİMİN, TƏDQİQATÇININ ANADAN OLMASININ 100 İLLİYİ ƏRƏFƏSİNDƏ HAQQI OLDUQLARI ÖZ YERİNİ TUTACAQ!**

# MƏMMƏD ARAZ SƏHVİMİ BAĞIŞLADI...

**Sovet dövründə gənc yazarların tez-tez üz tutduqları ümid yeri "ULDUZ" jurnalının redaksiyası idi. O redaksiya Yazıçılar Birliyilə Bəstəkarlar İttifaqının arasında, birinci mərtəbədə yerləşirdi. Redaksiyanın yığcam, həm də çox tələbkar işçiləri vardı. Jurnalın Baş redaktoru Yusif Səmədoğlu, müavini Məmməd Araz, poeziya şöbəsinin müdiri Tofiq Bayram, əməkdaşları - Siyavuş Sərxanlı və Taleh Həmid idi. Nəsr şöbəsinə Sabir Süleymanov başçılıq edirdi. Sözsüz ki, həmən dövrdə zəif şeirlər və yaxud uğursuz nəsr nümunələri o jurnalda dərc oluna bilməzdi. Bu səbəbdən də yazarlar ədəbiyyatın bütün sahələrində yaradıcılığa böyük məsuliyyətlə yanaşırdılar.**

**RAMİZ MÖVSÜM**



1983-cü ilin fevral ayının əvvəlində, mənim də silsilə şeirlərim bəyənildi. Bir müddət keçəndən sonra, redaksiyaya getdim. Şeirlərimin "ULDUZ" jurnalının növbəti nömrəsi üçün nəzərdə tutulduğunu öyrəndim. Bu münasibətlə Tofiq Bayram məni təbrik etdi. Həmən gün Səyavuş Sərxanlı Moskva şəhərindən qayıdıb, işə çıxmışdı. Onunla mehribancasına görüşüb, bir-birimizdən hal-əhval tutduq. İşçilər boş vaxtlarında şahmat da oynayırdılar. Məmməd Araz şahmat azarkeşi idi. O, Səyavuşu şahmat oynamağa dəvət etdi. Səyavuş onun sözünü yerə salmadı, amma dedi:

- Məmməd müəllim, bir şərtim var ki, oyun maraqlı olsun deyə, "göy üçlükdən" oynayaq.

Məmməd Araz tezcə:

- Razıyam, dedi.

O, fiqurları şahmat taxtasının üstünə düzməyə başladı. Bu arada Səyavuş mənə yaxınlaşıb, qulağıma pıçıldadı:

- Doktor, Moskvadan gəlmişəm, pulum da yoxdur. Mənə him-cimlə də olsa, kömək et, Məmməd müəllimi udum.

Səyavuşun xahişini götür-qoy etmədən, qeyri-ixtiyari ona razılıq verdim.

Onlar oyuna başladılar. Mən Məmməd Arazın arxa tərəfində dayanıb, Səyavuşa gah baxışımla, gah da başımla hansı gedişi edəcəyini işarə edirdim. Nəticədə Məmməd Araz Səyavuşa uduzdu. O, pul qabından 3-lüyü çıxardıb Səyavuşa verdi. Məmməd ayağa qalxanda, arxasında dayandığımı görüb əsəbləşdi:

- Deməli, belə!.. Məni sən uduzdurmusan... Səyavuş bugünədək bir dəfə də olsa, məni udmamışdı. Bilirik sənin şahmat oyununda namizədlik dərəcən var, biz isə həvəskar oyunçularıq. Sənin sayəndə o, məni apardı. Bunu səndən gözləməzdim . Bugündən qurtardım səninlə!..

Məmməd Araz qonşu otaqdan Tofiq Bayramı səslədi. Tofiq gəlib işdən hali oldu...

Məmməd ona:

- Tofiq, Ramiz Mövsümün şeirlərini çapa göndərmə, qaytar özünə, - deyib, öz otağına getdi.

Tofiq Bayram Məmməd Arazın əsəbləşdiyini görüb, belə məqamda ona heç nə demədi; bildi ki, sözü yerə düşəcək... O, mənim susqunluğuma da biganə qalmadı, dedi:

- Doktor, səbr elə, bir şey fikirləşərik. Məmməd Araz bizdən fərqli olaraq, tez küsəyəndir, amma ürəyi təmizdir!.. Hirsi soyusun, görək, neyniyirik... Məmməd Araz küsdüsə, barışmağı çətin olur.

Günorta naharının vaxtı çatdı. Səyavuş Sərxanlı Taleh Həmidlə qapıdan çıxıb, bağın ayağındakı "GÜLŞƏN" kafesinə tərəf getdilər. Tofiq Bayramla bayırda dayanıb, söhbət edirdik. Tofiq dedi:

- Ay doktor, doğrusu heç inanmağım da gəlmir ki, sən belə bir səhv edəsən... Məmməd Araz kimi əməlisaleh, məqsədyönlü, saf bir insanı uduzdurmaq Vallah, günahdır!.. O, sadəliyilə, təvəzökarlığıyla hər bir kəsə nümunədir!.. Neçə dəfə onu Telestudiyaya "OVQAT" verilişinə dəvət ediblər, getməyib. Deyibdir: - Ayıbdır, mən kiməm ki, özümü xalqıma nümayiş etdirəm?! Xalqımın heç bir işinə yaramamışam...

Bir dəfə də Məmməd Arazı Radio Verilişləri redaksiyasına dəvət ediblər. Redaktor Oqtay Şamilin çox yalvar-yaxarından sonra, Məmməd Araz redaksiyaya gedib. O, mikrafon qarşısında şeirlərini oxuduqca, həyacandan vərəqlər əlində titrəşib, döşəməyə səpələnib. Məmməd Araz hirslənib, Oqtaya deyib:

- Ə, mən şairəm ki, məni bura gətirmisən? Məni niyə dilə-dişə salırsan?..

Tofiqin söhbətinin bu yerində Məmməd Araz gəlib çıxdı. Tofiqlə ona yaxınlaşdıq. Məmməd Araz məni görmürmüş kimi, üzünü Tofiqə tutub dedi:

- Qardaşım, sözün var mənə?..

Tofiq dedi:

- Məmməd, bilirəm, nahara gedirsən. Səninlə yol yoldaşı olmaq istəyirik.

Məmməd tezcə dedi:

- Tofiq, sən mənə yol yoldaşı ola bilərsən, amma Ramiz həkim yox. Çünki o, bugün böyük günah elədi. Mən bunu ondan gözləməzdim. Bu günədək mən də onun xətrini istəyirdim. O, heç vaxt mənə qarşı bu cür səhv etməmişdi...

Tofiq dedi:

- Məmməd, hər kəsin səhvi olur. Onun sən barədə etdiyi ilk səhvini üzrlü say.

Məmməd Araz dedi:

- Tofiq, qardaşım, məsələ ondadır ki, mən həyatda heç bir sahədə uduzmağı qəbul etmirəm. Həyatda hansı sahədə olursa olsun, uduzmağı öz şəxsi məğlubiyyətim hesab edirəm. Ağlım kəsəndən, qarşımda məqsəd qoymuşam: dərzi olsam da, birinci olmalıyam, bənna da olmuş olsam, birinci olmalıyam, dəmirçi də olsam, yenə də birinci olmalıyam, hətta şahmatçı da olmuş olsaydım belə, onda da gecə-gündüz çalışıb-əlləşib, birinci olmalıydım!.. Xülasə, hansı sahədə oluramsa olum, düşünmüşəm ki, birinci yer mənimki olmalıdır!..

Məmməd Araz son sözünü deyib, söhbətinin məcrasını başqa səmtə yönəltdi. Üzünü Tofiqə tutub soruşdu:

- Qardaş, xeyli vaxtdır ki, görünmürsən. Xeyirdirmi?..

Tofiq dedi:

- Məmməd, xeyir olmamış, nə var ki?! Musa Yaqubun "BİR SİM ÜSTƏ..." şeirlər kitabının redaktoruyam; əsasən evdə işləyirəm.

Məmməd Araz soruşdu:

- Tofiq, Musa qardaşımız nə yazır?

Tofiq dedi:



*"Mən Məmməd Arazın arxa tərəfində dayanıb, Səyavuşa gah baxışımla, gah da başımla hansı gedişi edəcəyini işarə edirdim"*

- Məmməd, yazır da sözdü?! Gecə-gündüz şeirlərindən həzz alıram. Şeykəm yaylağında yazdığı şeirində deyir:

Çaylar qaranlıqda - bəyaz küçələr,
Dağlar nə qəribə olur gecələr!..

Bu zaman Məmməd ucadan dedi:

- Ə, köpək oğlu yaman deyib!..

Tofiq dedi:

- Ay Məmməd, atası rəhmətə gedib, elə demə.

Məmməd dedi:

- Tofiq, mən pis mənada yox, yaxşı mənada dedim. Bizim tərəfdə ün yetməz, əl çatmaz, güclü adamlar haqqında belə deyirlər. Bu sözü-müstəsna qabiliyyəti olan kəslərə aid edirlər. Qaldı ki, o cür oğulun atasına ikiqat rəhmət düşür, yeri Behiştlik olsun!..

Söhbət əsnasında Məmməd Araz Tofiqdən soruşdu:

- Qardaş, eşitdiyimə görə, böyük oğlun Zakir Moskvada Kosmonavtlıq Akademiyasında təhsil alan ilk azərbaycanlıdır!..

Tofiq dedi:

- Elədir ki, var.

Ona gözaydınlığı verdik.

*"Şairin bu humanistliyindən istifadə edib, inciklİyə səbəb olan hadisəni olduğu kimi danışdım"*

...Söhbət edə-edə, Kirov prospekti, 28 (indiki BÜLBÜL prospekti) ünvanında yerləşən, zirzəmi tipli "PİTİXANA"-ya çatdıq. Daş pillələrlə aşağıya enib, içəriyə daxil olduq. Məmməd Araz dedi:

- Bu kafe mənim üçün çox doğmadır. Öləziyən işıqların fonunda burada şairanə bir mühit yaranıb... Bu yer mənə Moskvanın Neqlinnaya küçəsindəki alatoranlı məkanı xatırladır. Biz də təhsil illərində o məkanda əylənmişik. Bizdən də neçə illər qabaq Rusiyanın sevimli şairləri Aleksandr Blok, Vladimir Mayakovski, Sergey Yesenin və digər məşhurlar o kafeteriyanın mötəbər qonaqları olublar.

Moskvadakı kafeteriyada olduğu kimi bu kafedə də duyğulanıram. Günortalar adətən bura tək gəlirəm. Bugün isə, üç nəfərik. Qonorar almışam, qonağımsınız.

Bu məqamda madiyyət məsələsiylə əlaqədar, onun söhbətinə müdaxilə etdim. Təklifimi qəbul etmədi, dedi:

- Doktor incimə, bugün söz mənimkidir!..

Nahar etdik. Pitinin üstündən də kəklikotulu çay içdik.

...Bayıra çıxdıq. Məmməd Arazla yanaşı gedirdim. Səhvimə görə, üzüm gəlmədi ki, ondan həmin anda üzr istəyəm. Ümidim yox idi ki, məni bağışlasın... Mən günahkar idim, o - günahsız. O, haqlı idi, mən - haqsız. Düşünürdüm ki, üzrüm günahımdan betər olacaq!..

Biz xudahafizləşib, ayrıldıq. Evə gəldim. O gecə vicdanım mənə qənim kəsildi!.. Məmməd Araza qarşı etdiyim səhvə görə, özümü döydüm... və özümə verdiyim cəzanı nəzmə çəkdim.

Səhərisi günü özümü toparlayıb, redaksiyaya yollandım, səhvimə görə, Məmməd Arazdan üzrxahlıq edib, şeirimi ona verdim. Məmməd Araz yaxşı mənada "şeir xəstəsi" olduğundan, şeirimi dəhlizdə ayaq üstəcə oxudu:

### MƏNİM GÜNAHLARIM, MƏNİM SƏHVLƏRİM...

*Heç zaman ürək qəm yeməyib əbəs;*
*Günahkar olmuşam, divan qurulub.*
*Döyülmüşəm... Məni döyməyib heç kəs,*
*Onda da öz əlim, öz başım olub.*

*Bir yalnış addımdan min arzu sönüb;*
*Tikanlı dağ, dərə çıxıb qarşıma.*
*Səhvlərim düyünlü yumruğa dönüb,*
*Enib qoşa-qoşa mənim başıma...*

*Axıb puçur-puçur xəcalət tərim,*
*Vicdanın hakim tək çıxışı olub.*
*Mənim günahlarım, mənim səhvlərim*
*Başıma qapazlar yağışı olub!..*

...Məmməd Araz dedi:

- Doktor, şeirin xoşuma gəldi. Düz hərəkət etmisən! Haqqa tapındığına görə, səhvini bağışlayıram!..

Şairin bu humanistliyindən istifadə edib, incikliyə səbəb olan hadisəni olduğu kimi danışdım: -Məmməd müəllim, mənim sizə qarşı heç bir qərəzim olmayıb. Sadəcə Siyavuş mənə bildirdi ki, Məmməd Araz məni udacaq, amma Moskvadan təzə qayıtmışam deyə cibimdə pulum yoxdur ki, uduzduğum 3 manatı verim. Ona görə də biabır olacağam. Çünki pulla oynamağı da mən təklif etmişəm. Bu səbəbdən məndən xahiş etdi ki, sizin arxanızda dayanıb, him-cimlə hansı gedişi etməyini ona bildirim. Mən də sizə uduzandan sonra, onun pis vəziyyətə düşməməsi üçün kömək edəcəyimə razılıq verdim.

Məsələdən halı olan M.Araz belə dedi:

- Doktor, deməli, səni bağışlamaqda düz eləmişəm. Mən də fikirləşirdim ki, doktor niyə belə eləsin? İndi başa düşdüm. Düz eləmisən... olan şeydir. Elə şeirində də səhvini etiraf etmisən. Bir də ki, ay doktor, mən belə xırda şeylərə görə dostlardan incimərəm. Amma haqsızlığa qarşı həmişə səsimi ucaltmışam. Oldu, keçdi. Narahat olma, şeirlərin də çap olunacaq.

Mən bununla da Məmməd Araz böyüklüyünün bir daha şahidi oldum.

# "Beyin insanın görünməyən güzgüsüdür..."

***"Bildiyimiz bütün canlıların şüuru özünə görə inkişaf edib. Sadə bir misal: siz elə bilirsiz ki, dovşan düşünə bilmir? Yəni, dovşan bilmir ki, harda və nə cür gizlənsə canavarın pusqusundan xilas ola bilər?!"***

**İnsan beyninin aktivliyi və funksiyası barədə daha nələri bilirik? Bu və ya digər suallarla bağlı tanınmış nevropatoloq, Avropa Nevrologiya Akademiyasının üzvü, "Turan" Hospitalın həkimi, "Şəki və onun təbabət tarixi", "Beyin" kitablarının müəllifi Qalib Əsədovla həmsöhbətik:**

**- Həkim, istərdik Şəkinin yetirməsi olan nevropatoloq Qalib Əsədovu "Təzadlar"ın oxucularına daha yaxından tanıdaq. Mümkünsə, özünüz haqqında oxuculara məlumat verərdiniz.**

- 1968- ilin yanvarın 20-də Şəki şəhərində dünyaya göz açmışam. 3 saylı orta məktəbi əla qiymətlərlə bitirib sənədlərimi Tibb Universitetinə vermişəm.



Universitetə birinci il qəbul olmasamda, ikinci il Tibb Universitetinin tələbə adını qazanmışam. İnistitutu bitirdikdən sonra Univesitetin nevralogiya kafedrasında çalışmışam. Sonralar maddi səbəbdən dolayı Şəkiyə qayıtmalı olmuşam. Şəkiyə qayıtdıqdan sonra isə əvvəlcə reanimasiya, daha sonra əsəb xəstəlikləri şöbəsində işləmişəm və əlillərin bərpa nevrologiya(sinir xəstəlikləri) üzrə fəaliyyət göstərmişəm. Eləcə də Əlillərin Bərpa Mərkəzi yaradılarkən baş həkim vəzifəsində çalışmışam. Yeri gəlmişkən, bu mərkəz Respulikada göstəricilərinə görə birinci yerdə durur. "Məsləhət" kanalında "Sağlam yaşa" televiziya proqramının müəllifi və aparıcısı olmuşam. Şəki İcra Hakimiyyəti tərəfindən səhiyyə sahəsində "İlin qalibi" döş nişanı ilə təltif edilmişəm. Həmçinin "Şəki və onun təbabət tarixi" adlı elmi tədqiqat monoqrafiyısının müəllifiyəm. Müəyyən illərdə uğurlarıma görə bir çox təltiflərim də olub. 2009-cu ildə səhiyyə sahəsində "İlin qalibi" diplomu ilə təltif edilmişəm. Hətta 2017-ci ildə "Şəki və onun təbabət tarixi" adlı elmi işimə görə "Qızıl Medal" və "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" döş nişanı ilə təltif edilmişəm. Hal-hazırda Bakıda yaşayıram və "Turan" Klinikasında çalışıram. Ailəliyəm, iki övladım var...

**- Qalib müəllim hansı səbəb sizi vadar etdi ki, tibbin məhz nevrologiya sahəsini seçdiniz?**

-Mən məktəbdə oxuduğum zamanlardan beyinin funksiyası və strukturu həmişə mənim üçün maraqlı və müəmmalı olub. Daima özümə suallar verirdim ki, niyə insan yatır və yuxu görür? Yaxud, niyə insan sevir və nifrət edir? Niyə insan kədərlənir və gülür? Çoxsaylı belə "niyə"lə var ki, bu gün də mən onların arxasınca gedirəm və axtarışdayam. Bir sözlə "beyin" həmişə mənim üçün qaranlıq və düşündürücü bir sahə olub. Bu səbəbdən də tibbin nevrologiya sahəsini seçmişəm.

**-Siz həm həkim, həm də tədqiqatçısınız. Təəccülü də olsa, elmlə məşğul omaqla yanaşı, gündəlik iş fəaliyyətinizi necə qoruya bilirsiniz?**

*"Azərbaycanda yetişən alimlər və yaxşı mütəxəsislər Sovet təhsil sistemindən bəhrələnərək irəli gediblər"*

-Yeri gəlmişkən, mən öz anama minnətdaram ki, anam həmişə mənim dərslərimə nəzarət edən zaman soruşurdum: məsələn, Spartaq niyə inqilab etdi? Niyə Fransada ara qarışdı? Şair yazdığı şeirdə nədən bəhs edir? Səbəb nə idi? Mən də bu suallara cavab axtarırdım... Əslində, deməli, uşaqlar kiçik yaşlarından tədqiqatçıdırlar. Bəzən valideynlərinə elə suallar verirlər ki, valideyin təəccüblə öz övladına baxır və deyir: "Bunu bilmək sənlik deyil, sənin yaşın düşmür müəyyən işləri biləsən" və s. Bu və buna bənzər ifadələri işlətməklə övladını sualdan yayındırırlar. Buna baxmayaraq, bu "niyə"lər məni həm də "tədqiqatçı" kimi yetişdirirdi. Uşaqların sualları mütamadi cavabsız qaldığından elə uşaqlar gələcəkdə "niyə" sualına cavab verə bilmir və özgüvənini itirir. Gəlin bu dövrün tədris sisteminə diqqət edək! Həqiqətən müasir tədris sisteminə nəzər salsaq, deyərdim ki, bugünkü sistem əzbərçilik üzərində qurulub. Bir müddət keçəndən sonra uşaqların bildikləri də tamamilə yaddan çıxacaq. Belə uşaqlardan müasir dövrün həkimləri, mühəndisləri, müəllimləri yetişirsə, arxadan gələn nəsil hansı biliyə, bacarığa sahib ola bilər? Kiçiklikdən uşaqların bütün suallarına böyük insanla dialoqun təzahürü kimi yanaşmaq lazımdır. Yəqinki valideyinlərim mənim üzərimdə çalışmasaydılar mən bu gün, dediyiniz kimi, savadlı, inamlı və sevilən həkim olmazdım.

-Nevroloji xəstəliklərin bu gün Azərbaycanda nələrin törətdiyini yəqinki şahidi olursuz. İnsan psixologiyasına bu qədər təsir edən amillər hansılardır? Hansı səbəbdən biz vaxtaşırı sosial şəbəkələrdən və tv-dən qətllər haqqında ağılasığmaz məlumatlar alırıq? Bu barədə fikirlərinizi bilmək yerinə düşərdi.

- Qeyd etmək istərdim ki, nevroloji xəstəliklər tək Azərbaycanda yox, bütün dünyada aktualdır. Əsasən imkanlı şəxslər gözəl həyat tərzi sürsələr də, belə şəhər həyatı istər- istəməz insanların əsəblərinə təsir etməyə bilməz. Amma sadə yaşayan insanlar kənd həyatı yaşasalar da təbiətin qoynunda özlərini çox rahat hiss edirlər. Onlar səsdənküydən uzaq, sıxlıqdan kənar, həm də ekoloji çirklənmədən əziyyət çəkmirlər. Qeyd edilən belə həyat tərzi varlı və kasıb təbəqə arasında sağlıq baxımından özünü göstərməkdədir. Ümumiyyətlə, cəmiyyəti narahat edən qətllər, intiharlar barədə öz fikrimi insanlara çatdırmışam. Psixologiyada belə anlayış var: "Verter" fenomeni. Hətta Viktor Hüqo "Gənc Verterin əzabları" əsərini yazandan sonra cəmiyyət arasında imtiharların sayı artmağa başladı. Ümumiyyətlə, dünyada insanlar arasında belə hadisəyə "Verter fenomeni" deyirlər. Müsahibələrimdə nevroloq olaraq daima vurğulamışam ki, belə hadisələri tele-məkanda, sosial şəbəkələrdə, mətbuat səhfələrində tirajlamaq olmaz. Lakin bu gün elə dövrdə yaşayırıq ki, sosial şəbəkələr reytinq yığmaq və pul xatirinə belə yalnışlığa yol verirlər. Bu səbəbdən dolayı, qətllərin, intiharların sayı günügündən artmaqdadır. Belə hadisələr tək Azərbaycanda deyil, bütün dünyada aktualdır. Həkim olaraq, birmənalı şəkildə deyirəm: insanlar arasında deqradasiya gedir. Yəni, insan psixologiyası çox sürətlə iflasa uğrayır. Məncə, aidiyyatı sahələr gec olmadan hərəkətə keçməlidirlər!!! Bir məsələni də vurğulamaq istərdim. Bu gün ədəbi mühit özü sükut içindədir. Çünki daha əvvəlki dahilər yetişmir. İstər Azərbaycanda, istərsə də xarici dövlətlərdə. Müasir incəsənətdə Üzeyir Hacıbəyov, Qara Qarayevi, Şəfiqə Axundovanı, Emin Sabitoğlunu əvəz edə biləcək bəstəkarlar varmı?! Olsun ədəbi sahədə hanı Bəxtiyar Vahabzadələr, hanı Xəlil Rza Ulutürklər? Çox sayda tarixdə iz buraxan dahilərimiz var. Bu gün onların timsalında kimin adını çəkib barmaq qatlaya bilərlər? Dünya gündəminə nəzər salsaq, Viktor Hüqo kimi yazarları, Enni Manikoni kimi bəstəkarları yetişdirmək mümkünmü?! Əlbəttə yox!

**- Siz yaxın zamanlarda "Beyin" adlı kitabınızın təqdimatını etmisiniz. Təbrik edirəm. Bu kitabı yazmağa vadar edən hansı zərurət oldu?**

"Cahil deməzdim, sadəcə, müəyyən kütlə var, anlamalıdırlar ki, yuxuda "at" görmək heç də mürada yetib uğur əldə etmək deyil..."

- "Beyin qırışlarında gizlənən sirr" kitabı mənimlə birgə oğlum, psixoloq Fuad Əsədov və nevroloq Qalib Əsədov, yəni bizim elmi düşüncələrimizdən birgə ərsəyə gələn elmi publisistik kitabdır. Fuad Əsədov hal-hazırda Macarıstanda psixologiya üzrə doktoranturanı oxuyur. Bəzən elə olurdu ki, sadə insanlar bizə suallar verirdilər... Maraqlandıqları üçün biz fikirlərimizi sadə insanlarla bölüşürdük. Onlar bizə sual verəndə bildiklərimizi çalışırdıq ki, açıqlayaq. İnsanlar arasında beyinə qarşı belə maraq bizi bu kitabi nəşr etməyə məcbur etdi. Deyək ki, bu kitab doğurdan da məhz o zərurətdən yarandı. Bu kitab elmi və tibbi terminlərdən uzaq, insanların anlaya biləcəyi formada yazılan elmipublisistik kitabdır. Müasir dövrümüzdə mistik fikirlər yayıldığı üçün(falçılıq, yuxu yozmalar, ulduz falları, çöpçülük kimi bəzi insanları aldatma metodlarından istifadə edilirdi) sozü gedən kitab cəmiyyətdə öz yerini tapıb məncə. Beyinlə əlaqəli yaranan fikirlər insanda "özünü dərk" kimi təsəvvürlər yaradır. Bizim bütün düşüncələrimiz, davranışlarımız xarakterimiz, yuxularımız hamısı beyin qırışlarında gedən biokimyəvi reaksiyalardan asılıdır. Burda şüur və təfəkkür əsas rol oynayaraq, anadangəlmə proqramların inkişafı nəticəsində meydana çıxır. Sonrakı gündəlik həyatımızda hər gün çoxlu sayda beyinə informasiyalar daxil edilir. Beyin bu məlumatları saf- çürük edir. Bütün bu proseslər ön beyin qırışlarında gedir. Ona görə kitabın adını belə qoyduq: "Beyin qırışlarında gizlənən sirr". Azərbaycanda sözü gedən kitab psixoloqlar və nevroloqlar üçün nəzərdə tutulmayıb. Tibbi cəhətdən məlumatı olmayan sadə insanlar üçündür. Cahil deməzdim, sadəcə, müəyyən kütlə var, anlamalıdırlar ki, yuxuda "at" görmək heç də mürada yetib uğur əldə etmək deyil.

"Bildiyimiz bütün canlıların şüuru özünə görə inkişaf edib. Sadə bir misal: siz elə bilirsiz ki, dovşan düşünə bilmir? Yəni, dovşan bilmir ki, harda və nə cür gizlənsə canavarın pusqusundan xilas ola bilər?!"

Aramızda yuxulara inananlar və ulduz falına görə öz həyatlarını tənzimləyən insanlar da var. Bütün bunlar əfsanə və suiverиyadır. Beynin əsas vəzifəsi xaricdən gələn qıcıqları-məlumatları qəbul edib cavab impulsu yaratmaqdır. Bildiyimiz bütün canlıların şüuru özünə görə inkişaf edib. Sadə bir misal: siz elə bilirsiz ki, dovşan düşünə bilmir? Yəni, dovşan bilmir ki, harda və nə cür gizlənsə canavarın pusqusundan xilas ola bilər?! Düşüncə bütün beyni olan canlıya xas olan bir amildir. İdrakda, zəkada insan beynində gedən biokimyəvi reyaksiyalardır. Bu gün insanda gedən biokimyəvi reyaksiyaların gedişatını pis vərdişlərlə(yəni narkotiklə və alkoqolla) dəyişməklə insanın beynini sıfırlamaq mümkündür. Belə hallarda biokimyəvi reyaksiyalar tamamilə başqa səmtə yön alır və insanı "şizofren" vəziyyətinə salır. Beləliklə, yaddan çıxarmayaq ki, insanı idarə edən onun beynidir...

**-Bəs "Eftanaziya" nədir və onun funksiyası nədən xəbər verir?**

- Bir həkim olaraq qeyd edim ki, "Eftanaziya" Azərbaycanda qadağan edilmiş sahədir. Amma və lakin bu əməliyyat Hollandiyada qəbul edilərək, xəstənin öz razılığı ilə həyata keçirilir. Məhs insan onkoloji və digər ağır xəstəlikdən əzab çəkdiyinə görə xəstənin yaxınları onun ölümünə səbəb ola biləcək belə bir əməliyyatı icra etməyə icazə verir. Xaricdə tibbi nöqteyi nəzərindən qəbul edilsə də, Azərbaycanda nədənsə qadağan edilmişdir. Mən özüm də həkim kimi Eftanaziya-nın əlehinəyəm.

"Məktəblərdə təhsil sistemi şagirdlərə savad vermir. Dərsliklərə nəzər salsaq, uşaqların savadlanmasına xidmət etmir..."

**- Bugünkü dövr bambaşqadır. Gənclərin davranışı nevroloq olaraq sizi qane edirmi?!**

- Bəli, bugün müasirlik gənclərin şüur və təfəkküründə aşınmaya meyillilik yaradıb. Uzaqgörən savadlı insanlar həyəcan təbili çalırlar. Çünki məktəblərdə təhsil sistemi şagirdlərə savad vermir. Dərsliklərə nəzər salsaq, uşaqların savadlanmasına xidmət etmir. Birmənalı olaraq uşaqları robotlaşdıraraq bilik və bacarığını sıfıra endirirlər. Məsələn, iki vur iki- dörd edir. Bəs uşaqlar bilirlərmi ki, iki vur iki niyə dörd etdi? Nədən səkkiz etmədi? Reallıq budur ki, müəllim, ancaq dərs saatını bitirməyə çalışır. Azərbaycanda yetişən alimlər və yaxşı mütəxəsislər Sovet təhsil sistemindən bəhrələnərək irəli gediblər. Əslində, Sovet sistemi deyilən bu tədris Alman təhsil sistemidir. Məktəblərdə tədris sisteminə nəzər salsaq görərik ki, məktəbin özündə belə maddi - texniki baza yoxdur. Tədris edilən texniki fənlərə aid laboratoriyalarda uşaqların yaddaşına həkk olunacaq heç bir təcrübə aparılmır. Təhsil Nazirliyi məktəblərdə tədrisin vəziyyətini görür, ya görmür, bu haqda heç nə deyə bilmirəm. Azərbaycan Avropaya inteqrasiya etdikdən sonra "krikulum" dərs sistemini qəbul ediblər. İndiki gənclər nə Bəxtiyar Vahabzadəni tanıyır, nə Hüseyin Cavidi, nə Mikayıl Müşviqi, hətta dövlətimizin himnini yazan Əhməd Cavadı belə tanımırlar. Küçələrdə gənclərlə aparılan ayaqüstü müsahibələr öz sözünü deyir. Belə səviyyəyə düşməyimizin səbəbi isə telməkanların şou əhlinin əlinə keçməsidir. Hansımız deyə bilərik ki, günün hansı vaxtındasa tanınmış alimlərlə televiziya görüşləri keçirilir? Nə qoymuşuq, nə axtarırıq! Bu gənclərin axırı hara gedir?

**(Davamı 13-cü səhifədə)**



# "Beyin insanın görünməyən güzgüsüdür..."

## *"Söz əgər səhiyyədən gedirsə, əlbəttə, onun inkişafından razıyam"*

(Əvvəli 12-ci səhifədə)

**-Qalib həkim, insan öz beyninin hakimidir, yoxsa "beyin" insanın? İdarə etmədə hansı yanlışlığa yol verilir?**

- Birmənalı olaraq beyin insanın hakimidir! Beyin mənə hansı göstərişi versə onu həyata keçirirəm. Biz elə düşünürük ki, azad iradəyə sahibik. Beyin hansı siqnalı versə, onu yerinə yetirməyə hazır olan insanıq. Bütün varlıqlar öz beyninin təcəssümüdür. Digər orqanlar isə beyinə xidmət etmək üçündür. Ürək beyinə qan ötürür, qara ciyər təzə- təzə qan istehsal edərək orqanları zəhərli maddələrdən təmizləyir. Mədə-bağırsaq yediyimiz lazımlı və keyfiyyətli maddələri sovurub beyinə göndərir. Bəzən insan yaşa dolduqca beyində müəyyən proseslər başlayır. Cavanlıqda humanist xarakterсə mülayim olan insan aqresiv olaraq, sanki başqa birinə çevrilir. Çünki yaşlanmış insanın beynində atrefiya getdiyindən dəyişərək belə vəziyyətə düşür. Bütün baş verənlər beyində təzahür edir.

**- Azərbaycan səhiyyəsinin bu günündən razısızmı? İnsanlar öz sağlamlıqlarını yetərincə təmin edə bilirmi?!**

-Söz əgər səhiyyədən gedirsə, əlbəttə, onun inkişafından razıyam. Səhiyyədə bir çox irəliləyişlərə imza atmışıq. Bu gün Azərbaycanda bir çox mürəkkəb əməliyyatlar edilir. Hansıki, insanlar vaxt vardı ən ağır əməliyyatları etdirmək üçün xarici dövlətlərə üz tuturdular. Bu gün isə həmin əməliyyatlar Azərbaycanda həyata keçirilir. 10 il öncəyə qədər bizə yuxu kimi gəlirdi. Sadəcə, insanların maarifləmnməsi müəyyən qədər problem yaradır. Nədənsə insanlar öz sağlamlıqlarına çox laqeyid və biganədirlər. Sadə bir misal: tutalım evdə təmir işinə başlamaq istəyirik. Düşünürük ki, yaxşı mütəxəssisə ehtiyac var. Və onu tapırıq. Sıra özümüzə gələndə baş qoşmuruq. Sağlamlığımıza etinasız yanaşaraq, sağlamlığımızı qoruya bilmirik. Azərbaycan səhiyyəsi tərəqqiyə doğru inkişaf etsə də, nöqsanlarımız da az deyil. Əsasən xəstələrin narazılığı apteklərdə satılan dərman preparatlarının effekt verməməsindəndir. Ancaq inanıram ki, inkişafa doğru gedirik...

**-Praktik təcrübənizdə sizi düşündürən və yadda qalan bir "pasiyent" olubmu?**

-Mənim təcrübəmdə bütün xəstələr mənim üçün önəmli və əzizdir. Hətta unutmadığım və fəxr etdiyim xəstələrim də olub. İnanın, elə xəstəm olub ki, əlimi üzmüşəm. Ağır yol qəzalarında yaralanan, komaya düşüb gec ayılan, miningit keçirən böyük fəsadlarla mənə müraciət edən xəstələr olub ki, onları həyata qaytarmaq mümkün olub. Mən isə bu gün onlara baxıb fəxr edirəm və düşünürəm: bütün bunlar mənim həyatda qazandığım ən böyük naliyyətlərim-



dir!

**- Xəstələrlə ünsiyyətdə empatiya və psixoloji yanaşmanın rolu sizcə, nə qədər vacibdir?**

-Əlbəttə, "empati"yanın xəstələrə çox təsiri var. Elə olur ki, mənə sual verirlər: niyə "online"xəstələrə müalicə təyin etmirsiz? Bilirsiz, xəstə qapıdan girəndə mən onu görən kimi hiss edirəm və bilirəm ki, belə xəstəliyin mahiyyəti və təsiri nədən ibarətdir. Məncə, online xəstəyə müalicə təyin edən həkim çox böyük məsuliyyət daşıyır. Mənim sahəm elədir ki, mütləq xəstə ilə ünsiyyətdə olmalıyam ki, ona müalicə təyin edə bilim. Bütün həkimlərə də öz təcrübəmi tövsiyə edərdim.

**-Robotlaşmış diaqnostika sizcə, gələcəkdə həkimi əvəz edə bilərmi?!**

-"Robotlaşmış diaqnostika" dedikdə, yəqinki süni intelekti nəzərdə tutursunuz. Süni intelekt diaqnozu düzgün qoysa da mütləq xəstəyə həkim lazımdır. Belə ki, xəstənin məlumatlarını ötürmək üçün həmin proqramı istiqamətləndirən həkim gərəkdir. Ən azı belə düşünək: əgər müalicə xəstədə əks-göstəriş verərsə və ona nəsə olarsa, mütləqdir ki, kimisə ittiham edəsən. Əslində, bir çox ölkələrdə süni intelekt həkimin dostuna çevrilib. Bəli, yeri gələndə biz özümüz də süni intellektdən istifadə edirik. Gələcəkdə süni intelekt həkimin ən yaxın köməkçisinə çevriləcək.

**-Özünüzə qarşı ən böyük tələbiniz nədir: İnsan- Qalib Əsədovu, yoxsa həkim- Qalib Əsədovu necə tamamlayır?**

-Bilirsiz, özümə qarşı ən ciddi tələbim məsuliyyət hissidir. Qeyd edim ki, mən maksimalist insanam. Hansısa bir işi görməliyəmsə, onun üçün can qoymalıyam, yox görmək istəmirəmsə, öz fikrimi əvvəldən bildirərəm. Yeri gəlmişkən, axı mən müəllm də işləmişəm və tələbələrim olub. Mən tələbəni qiymətləndirəndə "5"i ürəklə yazardım. Amma üçü və dördü yazmazdım. Çünki tələbədən daha yüksək nəticə gözləyirdim.

**-Gənc həkimlərə və tələbələrə nə məsləhət verərdiniz?**

-Bu gün həkim adını doğrultmaq üçün güclü mütəxəsis olmaq lazımdır. Mütəxəssis öz sahəsi üzrə güclü inkişaf edərsə, həmişə yaddaşlarda qalacaq. Hətta mənə baş həkim vəzifəsi təklif ediləndə belə düşündüm və beynimə həkk etdim. Baş həkim olmaq gəldi-gedərdi. Lakin savadlı həkim mütəxəsis olmaq "Baş həkim" olmaqdan daha önəmlidir.

**-Sonda, insan beynini daha sağlam və balanslı saxlamaq üçün oxucularımıza bir neçə praktik məsləhətiniz varmı?**

-İnsanın beyni nə qədər zehni işlərlə məşğul olsa, bir o qədər inkişaf edir. Daima işlək beyin insanı ağıllı, zəkalı, müdrük edər. Beyini isə işlətməyin qaydaları çoxdur. Şahmat oynamaq, krasvord işləmək, kitab oxumaq, görmədiyin yerlərə səyahət etmək, özündə maraq dairəsi yaratmaq və gördüklərinin təfsilatına varmaq. Bütün bunlar insanın beynini məşq etdirir və beyin qabığındakı neyronların qocalmasının(tənbəlləşməsinin) qarşısını alır. Oxucularıma tövsiyə edərdim: daima hər gördüyünə maraqla baxaraq öyrənsinlər! Oxumaq və öyrənmək heç bir zaman gec deyil. "İnsan doğulduğu vaxtdan qəbir evinə qədər öyrənməlidir". Yaxud, "İnsan bilmədiklərini ayağının altına qoyarsa, başı göylərə dəyər" və s.

**-Çox sağ olun, Qalib müəllim. Sizə daha uca zirvələr arzu edirəm. Səsiniz həmişə yüksək tribunalardan gəlsin!**

**Söhbəti apardı:
Təranə Şəms, AJB-nin üzvü, şair-publisist**

---

### *Vahid Əziz - 80*

# Əsrin şairi, zamanın sözü

## *Vahid Əziz yaradıcılıq etibarı ilə dünya poeziyasının inciləri olan Qarsya Lorka, Yesenin, Pablo Neruda ilə bir sırada dayanır*



**Müqəddəs sözün, möhtəşəm sözün zirvəsindən baxanda, Vahid Əziz poeziyası dağlar qədər vüqarlı görsənir. Azərbaycan ədəbiyyatından klassik poeziya və sənət ənənələrini ləyaqətlə davam etdirən, Aşıq Ələsgərdən, ustad Rəsul Rzaya qədər olan şeirimizin estafetini qoruyaraq, Azərbaycan poeziyasına poetik incilər gətirib Vahid Əziz.**

Dünya poeziyasını nəhəng bir okeana bənzətsək bu, okeanda Vahid Əzizin poetik gəmiləri 80 yaşının ərəfəsində öz limanına yan almaqdadır. Birmənalı şəkildə demək olar ki, xalq şairi Vahid Əzizin poeziyası dünyəvi bir poeziyadır. Şairin söz gülüstanında bitən çiçəklər öz rahiyədar ətrini poeziyasevərlərə ərməğan etməkdədir:

**Mənə yüz il ömür arzulamayın,
Xəzan yarpağı tək qovmasın külək.
Gözlərim görsə də, ayağım, əlim,
Əsalıq olanda dayansın ürək.**

**Mənə elə ömür arzulayın ki,
Ölüncəümman tək çağlaya bilim.
Qapı-pəncərəmi öz evimdəki,
Özüm aça bilim, bağlaya bilim.**

Ustadı Rəsul Rza 60-cı illərdə ona uğurlu yol yazanda bilirdi ki, Vahid Əziz elə bir müqəddəs poeziya yoluna çıxır ki, əlbəttə, o, yaşadığı dövrün, zamanın bütün mərhumiyyətlərinə dözərək əsrin və zamanın sözünü insanlara çatdıracaq. Çox düz deyirlər ki, peyğəmbərlərdən sonra şairlər gəlir və Tanrının pıçıltılarını insanlara çatdırırlar.

Xalq şairi Vahid Əzizin 80 yaşı tamam olur. Bu, 80 illik yaş dönəmində şair çox mərhumiyyətlərə dözüb, əsl şair ömrü yaşayıb. Onun poeziyası ilk növbədə şəxsiyyətin və ləyaqətin poeziyasıdır. Onun şeirləri bir nəfəsə oxunur, oxucunu yormur, düşündürür və öz ulu poetik yaddaşına qaytarır. Şairin özünəməxsus rəvan dili, xalqın ailəməişət məsələlərini görə bilməsi, şifahi xalq ədsəbiyyatı üstündə köklənən nəğmələri yeni çalarla poetik şerimizin köklü ənənələrini ləyaqətlə yaşadır. Son illərin də demək olar ki, ən məhsuldar şairi Vahid Əzizdir.

Bir-birinin ardınca çap olunan "Param-parça illər", "Səninlə", "Yaşadım yaşamaq ehtiyacından" kitabları oxucu zövqünün formalaşmasına təkan verib. Bu çətin zəmanədə, insanların çörəklə sınağa çəkildiyi bir vaxtda şairin kitablarına hədsiz oxucu marağı sərgilənib. Düzdür, Vahid Əzi kitablarının satışından heç nə qazanmır, madiyyat güdmür, kitabları ruh yüksəkliyi ilə qədirbilən oxucularına bağışlayır. Buna baxmayaraq, oxucular onun son illərdə yazdığı, adını çəkdiyimiz kitablarını axtarırlar, maraqlanırlar və tapıb sevinclə oxuyurlar. Bəzən deyirlər ki, oxu mədəniyyətini sosial şəbəkələr üstələyib, yanılırlar. Mən dəftərlə əsgərlərimizin əlində də "Param-parça illər" kitabını oxuyanda görmüşəm.

Xalq şairi Vahid Əziz vətəndaş şairdir. Şair Vətən torpağını, doğulub boya-başa çatdığı eli-obanı, adət-ənənələri böyük ruh yüksəkliyi ilə tərənnüm edir və Azərbaycanın vətəndaş şairinə çevrilir. 90-cı illərdə biz onu həmişə bikef,dalğın görərdik. Bu da ondan irəli gəlirdi ki, Azərbaycanın ürəyi olan Qarabağ düşmənlər tərəfindən işğal olunmuşdu. Ürəyi Vətən eşqi ilə alışıb-yanan Vahid Əziz öz poetik şeirləri ilə silahlanıb, əzia Qarabağın müdafiəsinə qalxaraq öz sadiq oxucularını da Vətənin müdafiəsinə çağırış etdi. Şair özü də Qarabağa yollanaraq, həmvətənlərinə dayaq oldu. Yeganə Xalq şairidir ki, Qarabağ müharibəsi veteranıdır. 90-cı ildən indiyənə kimi onun poeziyası döyüşən poeziya olub. Vətən sərhədlərini qoruyan əsgərlərimiz şairin şeirlərindən ruhlanaraq, mənsub olduğu Vətən torpağını göz-bəbəyi kimi qoruyublar, düşməni bu doğma torpaqlardan "iti qovan kimi qovublar".

Vahid Əzizin şəxsiyyəti, poeziyası, ləyaqəti böyük olduğu üçün şairin bədxahları da onun kölgəsində dolaşmaqdadırlar. Paxıllıq, xəbislik bütün dövrlərdə şairlərin ətrafında olub, bu gün də var. Hərdən görürsən ki, sosial şəbəkə "qəhrəmanları" ona daş atırlar. Bu, binəvalar başa düşmürlər ki, Vahid Əziz elə bir zirvədir ki, ona atılan daşlar qayıdıb öz başlarına düşəcək. Heç bir yaradıcılığı olmayan, şairin bircə misrasına belə dəyməyən bədxahlar ona daş atmaqla gündəmdə qalmaq istəyirlər. Şair öz uca şəxsiyyətinə rəva bilib, onlara cavab belə verməк belə istəmir, həmin paxıl, xain bədxahları, nakəsləri zamanın mühakiməsinə buraxır.

Vahid Əziz yaradıcılıq etibarı ilə dünya poeziyasının inciləri olan Qarsya Lorka, Yesenin, Pablo Neruda ilə bir sırada dayanır. Poeziya xiridarları şairi poeziyamızın kralı adlandırırlar. Bu, şübhəsiz ki, belədir. "Param-parça illər" kitabı möhtəşəmliyi ilə diqqəti özünə çəkdi, ədəbi ictimaiyyət maraqla qarşıladı və mediada bir-birindən maraqlı ressenziyalar çap olundu və hətat kitab dövlət mükafatına təqdim olunmaq üçün geniş müzakirələrə start verdi. Ancaq biz hələ də gözləyirik ki, "Param-parça illər" kitabı öz dəyərini və qiymətini tapacaq. Həqiqi ədəbiyyat düşüncəsi olan insanlar hətta, Vahid Əzizin poeziyasını Nobel mükafatına təqdim olunmaq üçün təkliflər verirlər. Şairin növbəti çap olunacaq kitabları haqqında Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyi birgə düşünüb-daşınmalıdırlar, xüsusən, Mədəniyyət Nazirliyi şairin kitablarının çapına olan soyuq biganəliyi aradan qaldırmalıdırlar.

Əsrin və zamanın sözünü insanlara Tanrı pıçıltıları kimi çatdıran, poeziyamızı zinətləndirən, az qala əfsanəvi şair olan Vahid Əziz 80 yaşın ekvatorunu ildırım sürətilə keçməkdədir. Gəlin dəyərli oxucular və poeziya sevərlər şairə möhkəm can sağlığı və bundan sonra da yaradıcılıq uğurları arzulayaq.

**Vəli Səmədli
Azərbaycan Jurnalistlər Birliyinin üzvü.**

# İtaliyadan qonağımız var

## *Nərmin Mənsimova: "Prezident İlham Əliyevin çıxışlarını, xarici jurnalistlərə verdiyi sanballı müsahibələri sosial şəbəkələrdə yayırdıq və italyanlar tərəfindən maraqla qarşılanırdı"*





**Bu gün xaricdə təhsil alan və işləyən gənclərimiz yetərincədir. Onların əksəriyyəti oxuduğu və yaşadığı ölkələrdə Azərbaycan həqiqətlərinin təbliğ olunmasında böyük işlər görürlər. Belə gənclərdən biri də Mənsimova Nərmin Faiq qızıdır.**

Nərmin xanım Bakıda Qafqaz Universitetini bitirdikdən sonra İtaliyanın Parma Universitetini Magistr üzrə oxuyub. Təhsilini başa vurduqdan sonra bilik və bacarığını nəzərə alıb İtaliyanın Parma şəhərindəki məşhur şirkətlərdən biri Nərmin xanımı işləməyə dəvət edib. Artıq 8 ilə yaxındır N.Mənsimova həmin şirkətdə biznesin analizi üzrə mütəxəssis kimi çalışır. İtalyan, ingilis və rus dillərini mükəmməl bilir.

Necə deyərlər, Nərmin xanım hazır diplomatdır. Atası tanınmış vəkil Faiq Mənsimovdan öyrəndim ki, Nərmin məzuniyyətə gəlib. Fürsətdən istifadə edib gənc, vətənpərvər qızı redaksiyamıza dəvət etdim. Eşitmişdim ki, yaşadığı Parma şəhərində Azərbaycan adını qürurla yaşadır, Qarabağ haqqında erməni yalanlarını tarixi faktlarla sübut edir. Elə redaksiyamızda olarkən, baş redaktor Asif Mərzili də olmaqla, üçlükdə həm bu, həm də digər məsələlərlə bağlı Nərmin xanımla xeyli maraqlı söhbət etdik. Həmin söhbəti istəkli oxucularımızın da diqqətinə təqdim edirəm:

**- Nərmin xanım, Vətənə xoş gəlmisən...**

- Dəvət üçün təşəkkür edirəm. Çox sağ olun!

**- Əlbəttə, səni redaksiyamızda salamlamaq bizə çox xoşdur. Sən İtaliyadan müvəqqəti olaraq öz Vətəninə gəlmisən. Hələlik burdasan və qısa müddətdən sonra yenə qayıdacaqsan. Sən burada ali təhsil alandan sonra magistraturanı İtaliyanın Parma Universitetində oxumusan. İndi də qurtarandan sonra neçə illərdir orada işləyirsən. Bizim üçün çox maraqlı gəlir ki, İtaliyada azərbaycanlı, özü də gənc bir qız necə bacarır, necə işləyir? Orada səni başa düşürlərmi, kənardan gələn bir xarici vətəndaş kimi problem olmur ki? Bax bu barədə sənin və digər azərbaycanlı tələbələrin, həmçinin soydaşlarımızın**

*"İtalyanlar dərhal soruşurlar ki, İlham Əliyevin, vatikanda böyük təmir işləri aparmış Mehriban Əliyevanın vətənindənsən?"*



**orada yaşam tərzi necədir, italyanlarla anlaşırlarmı? Bütün bunlar barədə istəyərdim sənin fikrini bilim.**

- Çox sağ olun! Mənimlə belə maraqlandığınıza görə minnətdaram. Məndə, əslində, adaptasiya problemi olmadı. Bəlkə də öz xarakterim elədir ki, hər yerə yaxşı adaptasiya ola bilirəm. Amerikaya 3 aylıq kurs oxumağa gedəndə də heç bir problemim olmadı. Tanışlarımın çoxu adaptasiya ola bilmirdilər, qalmaq istəmirdilər. İtaliyada da çox tanışım var, hansı ki, geri qayıdırlar, qalmaq istəmirlər.

**- Görünür sən onlardan bir az iradəli çıxmısan. Həm də dil öyrənməyə yəqin problemin olmayıb. Hansı dilləri bilirsən?**

- Mən İtaliyaya təzə gedəndə, ancaq ingilis dilində danışırdım. İtalyanların çoxusu heç ingilis dilini bilmirlər. Bu cəhətdən bir az geridə qalıblar. Bizdə məsələn, bank işçisi mütləq rus dilini, ingilis dilini bilməlidir ki, bankda işləyə biləsən. Banka hər millətdən olan insan müraciət edə bilər. Amma italyanların inanın ki, heç vecinə deyil, ancaq italyan dilini bilməklə kifayətlənirlər. İngilis dili onları elə də maraqlandırmır. Məsələn, mən bank hesabı açdırmaq üçün transleyşndən tərcümə edəedə, nə qədər əziyyətlə özümə hesab açdırmışam. O boyda bankda bir nəfər də olsun ingilis dilini bilən yox idi. Bu baxımdan məncə, çox geridədirlər.

**-Amma deyəsən, sən italyan dilini tez öyrəndin, eləmi?**

-Yox, mən dili tez öyrənmədim. Hardasa, 2-3 il əziyyət çəkdim. Bir az çətindi italyan dili. Həm də mən universitetdə ingilis dilində oxuyurdum deyə, danışmırdıq heç italyan dilində, istifadə eləmirdik. Tələbə dostlarım da hamısı başqa Avropa ölkələrindən gəlmişdilər. Hardasa, sinfin, əslində, 60 faizi italyanlar idi, onlar da bizimlə ingilis dilində danışırdılar. Çünki dərsdə ingilis dilində danışmağa məcbur idilər. Ondan sonra italyan dili kursuna getdim. Orada dövlət xaricilər üçün pulsuz kurslar təşkil edirdi. Dərsdən sonra ora gedib dil öyrənə bilərsən. O da, ancaq qramatika idi. Bir saata, əslində, heç nə öyrənə bilmirsən, amma qramatikanı öyrənirsən. Sonra işləməyə başlayandan sonra danışa-danışa, gündəlik işləyə-işləyə öyrəndim italyan dilini. Ondan əvvəl bir az çətin idi.

**-Yəni sən bu gün italyan dilində sərbəst danışıb, tərcümə eləyib, hər şey edə bilirsən. Çox gözəl, ingilis dilində də, həmçinin sərbəst bilirsən. Bayaq dediyim o suala yenə qayıdıram. Oradakı azərbaycanlıların fəaliyyəti barədə məlumat verməyini istəyirəm. Orada bizim gənclərimiz özlərini necə aparırlar? Azərbaycan həqiqətlərini orada necə yayılması və Azərbaycanın əleyhinə orda nəsə olarsa, hansısa tədbirlər, aksiyalar, nə bilim yazılarlamı, italyan mətbuatında bizimlə bağlı yazılar barədə... Bilmək maraqlı olardı. Çünki sən orada yaşayırsan 1 il deyil, 2 il deyil, 7-8 ildir ki, orada yaşayırsan. Bunlar barədə bir az məlumat versən yaxşı olardı.**



- Əslində, bizim Parma şəhərində diaspora fəaliyyət göstərir və orada tanışlarım da var. Hərdən tədbirlər olur. İtaliyanın müxtəlif şəhərlərində yaşayan azərbaycanlılar gəlib iştirak edirlər. Biz çox vaxt onlarla ekskursiyaya gedirik. Belə olanda Azərbaycanın adından gedirik. Tədbirlər çox olur. Amma yaşadığım Parma şəhərində çox az azərbaycanlı var. Hal-hazırda 2-3 nəfərik. Hərdən bir tələbə gəlir-gedir, 1-2 nəfər. Amma daimi orada 2 nəfərik. Amma bildiyim qədər, Romada çox azərbaycanlı var. İndi bilmirəm orda diaspora necədir, necə təbliğ edirlər. O barədə çox da məlumatım yoxdur.

**- Deyirsən ki, yaşadığın şəhərdə azərbaycanlı azdır. Bəs orda italyan mətbuatında Azərbaycan haqqında yazılanlardan məlumatın olurmu, izləyə bilirsənmi ki, haqqımızda nə yazırlar? Azərbaycan həqiqətləri barədə düzgünmü, ya səhvmi yazırlar? Qarabağ həqiqətləri bilirsən ki, bütün dünyada bu dəqiqə yayılır... Amma ermənilərin həm milyarderləri, həm diasporası, bir sözlə, hamısı yalan, saxta bir tarix düzəldib onu təbliğ edirlər və buna italyanlar inanırlarmı? Və yaxud, azərbaycanlılara qarşı hansısa bir aksiya keçirirlərmi ki, məsələn, bax, bunu düz eləmirlər, "artsax" deyib meydana çıxırlar bəzən. Qarabağa "artsax" deyirlər. Bunlar barədə, bir gənc olaraq, məlumatın varmı?**

- Bildiyim qədəri ilə politik olaraq italyanlar bizə dəstəkdirlər. Amma görürəm ki, çox italyan hələ də onlara inanır, elə bilirlər ki, ermənilər yazıqdır, biz onları incidirik, biz güclüyük, biz əzirik onları, elə fikirləşirlər. İşğal dövründə də elə fikiləşirdilər. Guya biz onları işğal eləmişik. Yəqin ki, təbliğatı güclü aparıblar, mediada da çox paylaşımlar ediblər. Mən nəsə olanda izah edirəm italyanlara ki, bu belədir, ermənilərin saxta məlumatlarına inanmayın və s.. Amma bilmirsən ki, sənə inandı, ya inanmadı.

**(Davamı 15-ci səhifədə)**

# İtaliyadan qonağımız var

## "Noyabrın 18-də İtaliyaya qayıdacağam. İnşallah gedib stadionda "Qarabağa" azarkeşlik edəcəyəm..."

(Əvvəli 14-cü səhifədə)






**- Hər halda, deməyin özü yaxşıdır. Yəni, sən ondan çəkinmirsən, izahını verirsən. Bu sənin Vətənindir, sənin Vətənin haqqında düzgün olmayan informasiya gedir. Təbii ki, bir azərbaycanlı kimi, sənə də təsir edər ki, niyə mənim Vətənim haqqında yanlış məlumat olsun. Bu yöndə indi hansısa bir tədbirləriniz olurmu? Orada onların xeyir-şərində, italyanlarla bir yerdə siz də iştirak edirsinizmi? Onlarla da işləyirsiz bir yerdə, qaynayıb-qarışmısınız. Onların xeyrində, şərində, nəsə də düşəndə, ad günlərində iştirak edəndə yəqin belə söhbətlər də olur.**

- Olur, əlbəttə. 44 günlük Müharibə dövründə daha çox olurdu belə söhbətlər. Biz çalışdığımız qədər "İnstaqram"-da, sosial şəbəkələrdə paylaşırdıq öz səhifəmizdə italyan dilində ki, bunlar da başa düşsün. Bilsinlər ki, söhbət nədən gedir, nə müharibəsidir? Həmin dövrdə var qüvvəmizlə çalışırdıq ki, bizim haqlı olduğumuza inansınlar. Belə söhbətlərin, tədbirlərin və italyan mətbuatına verdiyimiz məlumatların təsiri və xeyiri olurdu. 44 günlük müharibə dövründə tək biz yox, İtaliyadakı bütün azərbaycanlılar sosial şəbəkələrdə Azərbaycanın ədalətli müharibəsi haqqında geniş təbliğat işləri aparırdıq. Ali Baş Komandan İlham Əliyevin çıxışlarını, xarici jurnalistlərə verdiyi sanballı müsahibələrini sosial şəbəkələrdə yayırdıq və italyanlar tərəfindən bu maraqla qarşılanırdı.. Hamının nə qədər çevrəsi var, bir nəfər də bilsə belə, yaxşı idi bizim üçün. Təbii ki, ona görə hamı prezidentin müsahibələrini geniş şəkildə paylaşırdı.



**- Afərin sizlərə! Bu, əsl vətənpərvərlikdir. Bayaq qeyd elədin ki, siyasi cəhətdən bəli, İtaliya dövləti Azərbaycanı dəstəkləyir və yanımızda olurlar. İngiltərə, İtaliya kimi böyük dövlətlər bizə siyasi dəstək olublar. Biz italyanlara o cəhətdən təşəkkürümüzü bildiririk. Amma ayrı-ayrılda sadə italyanlar yəqin ki, bu həqiqətlərdən uzaqdır.**

- Bu cəhətdən elə bil ki, bir az geridə qalıblar. Əslində, onlar politika ilə elə də maraqlanmırlar. Hətta bəziləri heç bilmirlər ki, prezidentləri, baş nazirləri kimdir? Baxmırlar elə şeylərə, Nyuslara baxmırlar, xəbərlərə baxmırlar, izləmirlər, heç maraqlı deyil onlar üçün.

**-Yəni siyasi cəhətdən görünür çox passivdirlər. Belə çıxır ki, onları gündəlik öz həyatları maraqlandırır. Maraqlıdır, bəs onda İtalyanlar öz həyatlarında nəyə üstünlük verirlər? Məsələn hansı sahəyə daha çox maraq göstərirlər?**

-İtalyanların demək olar hamısı mütləq şəkildə hansısa bir idman növü ilə məşğul olurlar. İdman sahəsinə çox üstünlük verirlər. Mütləq bir idman növündən istifadə edirlər. Ancaq işə gedim, evə gəlim, yemək yeyim yatım, belə şey italyanlara yaddır. Çox fəal və sağlam həyat tərzi keçirirlər və belə həyatı sevirlər. Tənbəl deyillər, işdən sonra "yoruldum" deyib dincəlmək yoxdur. Işdən sonra mütləq dostlarıyla görüşürlər, əylənirlər. Həftəsonu da gəzməyə çıxırlar, ora gedirlər, bura gedirlər... Bir sözlə, həmişə hərəkətdədirlər..

**-Bəs italyanların ermənilərə münasibəti necədir?**

- Açığı, İtaliyada ümumiyyətlə, erməni tanımıram, görməmişəm. Yəni, mənə rast gəlməyib.

**- Çox xoşbəxt adamsan ki, erməni ilə rastlaşmamısan.**

-Başqa dövlətlərdə ermənilər burdan çoxdur. Ola bilər Romada və başqa şəhərlərdə ermənilər var, mənim yaşadığım Parma şəhərində gözə dəymirlər. Rusiya, Moldova, Rumıniya, Ukrayna və digər ölkələrdə ermənilər var... Amma Parma şəhərində mənə erməni heç rast gəlməyib.

**-Bəs italyan mətbuatında, televiziyasında ermənilər qarşına çıxırmı? Onların yazıları, bizə olan münasibətləri, Qarabağ haqqında danışmaları, yəni saxta məlumatları çıxırmı qarşına?**

-Qarşıma çıxmır... Çünki onlar hər yerə kök salıblar. Ermənilər əsasən də informasiya kanallarında yer salıblar özlərinə və orda da başlayırlar Azərbaycanın əleyhinə təbliğat aparmağa.

**-Bayaq özün də dedin ki, elə bil ki, biz güclüyük və onların torpaqlarını işğal etmişik. Görürsən təbliğatı necə qurublar orada...**

- Bəli, elədir! Nəsə görürsən ki, bir yazı var. Ermənilər mütləq onun altında öz xeyirlərinə şərh yazırlar ki, həmişə belədir, belədir və s. Yalandan saxta şərhlər, saxta faktlar yazırlar.

## "44 günlük müharibə dövründə tək biz yox, İtaliyadakı bütün azərbaycanlılar sosial şəbəkələrdə Azərbaycanın ədalətli müharibəsi haqqında geniş təbliğat işləri aparırdıq"




**- Onlar tarixən belə olublar. Şükür ki, 44 günlük müharibə ilə bütün dünya həm güçümüzü, həm Qarabağın tarixi Azərbaycan torpağı olduğunu, həm də erməni saxtakarlığını gördü. Bu gün Azərbaycan qalib xalq kimi tanınır. Prezident İlham Əliyev dünyada sayılıb-seçilən liderlərdən biridir. Bunlar artıq faktdır... Sonda İtalyan mətbəxilə Azərbaycan mətbəxinin arasında nə kimi oxşar və fərqli cəhətlər olduğunu deyərdin.**

-İtalyan mətbəxi daha yüngüldür, həm də kalori cəhətdən daha yüngüldür... Həm də onların, mənə elə gəlir ki, buğdası olsun, çörəyi olsun, pastası olsun, insanı kökəltmir. Onlar o kökəldici ərzaqlardan uzaqdırlar. Yox, əslində, biz həmişə pasta yeyirik, makaron da yəni. Makaron hər gün yeyirik. Həm də deyirlər ki, onların buğdasının içinə kimyəvi maddələr vurmurlar. Yəni, onlar təbii ərzaq məhsuluna üstünlük verirlər. Hər şey üçün təbii olmaq çox xoşuma gəlir orda.

**- Özünüz də orada Azərbaycan yeməklərindən bişirə bilirsinizmi?**

-Açığı çox vaxt aparır deyə bişirmirəm. Boş vaxtım az olur.

**- Bəs azərbaycanlılar orda restoran, kafe açıblarmı?**

-Parma şəhərində yoxdur.

**-Bəs nə əcəb azərbaycanlılar Parmanı yaddan çıxarıblar. Dünyanın hər yerində var, amma Parmada yox.**

-Parmada inanırsız, heç əcnəbi mətbəxlər yoxdur. Amma Romada çoxdur.

**-Bayaq dedin ki, Romada azərbaycanlılar çoxdur. Hətta küçədə gedəndə hər yerdə Azərbaycan dilində danışan görürdüm.**

- Bəli, elədir. Milanda da çoxdur azərbaycanlılar. Roma qədər olmasa da xeyli var.

**-İtalyanların idmanla məşğul olmağından danışdın. Ancaq bilmirəm sənin idmana marağın necədir? Bizim "Qarabağ" futbol klubu təbii ki, hazırda Avropanın çempionlar liqasında oynayır. Noyabrın 26-da da İtaliya şempionu "Napoli" ilə öz meydanında oynayacaq. Bu barədə məlumatın varmı?**

-Bəli, məlumatım var, hətta indi "Qarabağ" çempion olmamışdan neçə illər əvvəl "Qarabağı" hamı tanıyırdı İtaliyada. Hətta məndən soruşurdular ki, sizin "Qarabağ" futbol komandanız var? Necədir? Mənim də heç futbolla əlaqəm yox idi deyə geniş məlumat verə bilmirdim. Mən də internetə girib baxırdım ki, "Qarabağ" var imiş doğurdan da. İndi də hamı baxır, görür, paylaşır, soruşurlar məndən deyirlər ki, formasını al gətir mənə, nə bilim şəklini çək. Mən də deyirəm ki, baxaram. Ala bilsəm gətirərəm.

**-Bəli, artıq "Qarabağ" futbol klubunu bütün dünya tanıyır. Sizdən çox uzaqdır Roma?**

-Parma şəhərindən Romaya, əslində, sürət qatarı ilə 3 saatlıq yoldur. Çox uzaq deyil. Gedib mütləq baxacağam...

**-Bəli azarkeşlik etmək lazımdır orada. Deməli, "Qarabağ" İngiltərə çempionu "Çelsi" ilə Bakıda 2:2 elədi, uduzmadı.**

- O oyuna baxdım. Atamla bir yerdə baxırdım. Noyabrın 18-də İtaliyaya qayıdacağam. İnşallah orada da gedib stadionda "Qarabağ"a azarkeşlik edəcəyəm..

**-İtalyanlar eşidəndə ki, Azərbaycandansan, tanıyırlarmı ölkəmizi?**

-Əlbəttə, dərhal soruşurlar ki, İlham Əliyevin, Vatikanda böyük təmir işləri aparmış Mehriban Əliyevanın vətənindənsən? Belə eşidəndə çox qürur hiss keçirirəm.

**- Təbii ki, bunlar gözəl hisslərdir. Bizim baş redaktor Asif müəllim də təklif elədi ki, belə fəal bir gənc qız bizim orada xüsusi müxbirimiz də olarsan. İtalyadan müxtəlif məzmunlu informasiyalar göndərərsən. İtalyan mətbuatında baxarsan Azərbaycan həqiqətlərindən nəsə danışırlarmı əleyhimizə, lehimizə nəsə varmı?**

-Mütləq sizə yazılar göndərəcəyəm.

**-Nərmin xanım, bir daha sənə alqış deyirəm, çox sağ ol ki, bizim Vətənimizi İtaliyada ləyaqətlə təmsil edirsən. Çox sağ ol! Redaksiyamıza vaxt tapıb gəldiyin üçün isə sənə ayrıca təşəkkür edirik!**

- Mən də bu dəvətə görə sizə, baş redaktor Asif Mərziliyə və bütün kollektivinizə təşəkkür edirəm. Çalışıb Azərbaycan adına etimadınızı doğruldacağam!

**Həmsöhbət oldu:**
**Elçin MƏMMƏDLİ**

# TƏZADLAR

07 (2395) 18.11.2025 www.tezadlar.az


# Həftəbecər



Xalq artisti Aygün Kazımova bu günlərdə bir məclisdə "sağ-salamat" adlı mahnı oxuyan zaman, əynindəki qara paltar müzakirəyə səbəb olub. Belə ki, paltarın sol tərəfi, ətəkdən yuxarıya, hətta yuxarıdan da o yana açıq idi. Kürəyində isə, ümumiyyətlə, paltarın hər hansı bir hissəsi olmadığından, bütünlüklə açıq şəkildə, yəni yuxarıdan ombaya qədər tamaşaçıların ixtiyarına verilmişdi. Bəziləri bu geyimi bəyənib, kimisi də tənqid edərək "Belə xalq artisti olar?" deyərək etirazını bildirib.

***P.S. Ay rəhmətliyin nəvələri, Xalq artisti belə olar dayna... Səhnədə soyunmağın "xaç anası" məgər Aygün deyilmi? Əgər Allah xasiyyətini kəsmiş bu Aygün, belə soyunmasaydı, ona nazir Əbülfəz Qarayev Xalq artisti adı veilməzdi, ətövbə! Ayə kişinin qızı soyunmaqda peşəkardır, mən ölüm. Əşi, nə olsun 54 yaşlı bir qadındır? Bu yaşda olan qadının da öz azarkeşləri var dəəə... Elə odeeeyyy. Aygün xanım kimi. Hələ də bərk gedənlərdəndir... O başqa söhbətdir ki, 54 yaşlı qadın abırlı, həyalı olmalıdır, normal geyinməlidir... Amma təəssüf ki, Aygün xanım qadın yox, şou əhlidir. Şou əhli isə, istəsə səhnəyə əncir yarpağı ilə də çıxar.***

Məlum olduğu kimi, Rusiya hərbçiləri noyabrın 14-də Ukraynadakı səfirliyimizin həyətinə "İsgəndər" tipli raket atıblar. Raketin partlaması nəticəsində səfirliyin inzibati binasına, hasarına və bir neçə minik maşınına ciddi ziyan dəyib. Müharibə başlayandan bəri üçüncü dəfədir ki, səfirliyimiz atəşə tutulur.

***P.S.Nə qədər ki, Pusiyada prezident Putindir, belə "səhv" raket düşməsi hələ çox olacaq. Qəhrəman Rəşad Atakişiyevin həlak olduğu qırıcı təyyarənin, ötən ilin dekabrın 25-də sərnişin təyyarəsinin, səfirliyimizin də 3-cü dəfədir vurulması da belə "səhv"lərin nəticəsində baş verib. Allah bu rusların böyüklərinə əzablı bir cəza versin ki, təkcə bizlərin yox, bütün dünyanın canı dincəlsin. İnanın ki, bundan sonra bütün dünya ölkələri bir-birinə "can" deyib "can" eşidəcəklər...***

***

Xəbər verilir ki, sovet dövründə Bərdə, Ağdaş, Daşkəsən və Goranboy rayonlarında 1-ci katib, indiki dillə desək, İcra başçısı işləmiş Xəlfə İbrahimovun nəvəsi Elxan Oktay oğlu İbrahimov Kürdəmir RİH-in başçısı vəzifəsindən azad edilərək Nəsimi RİH-ə başçı təyin edilib. Daha sonra Göyçay RİH-in başçısı Natiq Ağayev vəzifəsindən azad edilərək, Balakən RİH-ə başçı göndərilib.

***P.S.Neynək, nətəhər məsləhətdir, qoy elə olsun. Amma maraqlıdır, görəsən, müasir dövrdə toplananların yerini dəyişəndə cəm dəyişirmi? Nə bilim vallah? İndiki dövrdə bəlkə toplananların yerini dəyişəndə cəm dəyişir? Süni intellekt hər yerə bir əl qoyur... Əşi, indiki dövrdə nə desən olar. Bu acgöz məmurlar ki, bizdə var, toplama üsulunu çox gözəl mənimsəyiblər. Onlar topladıqları vardövlətin, sərvətin, mal-mülkün cəmini heç özləri də bilmirlər. Bu səbəbdən də, görünür, indiki dövrdə toplananların yerini dəyişəndə cəm də dəyişir. Ona görə də, Ustad şairimiz Məmməd Araz demiş, "Tamah var daşkəsən mişardan iti, Gödən var, bir qara yarğandan dərin".***

***Məmurlarımız 2-ni 2-yə vuranda 5 cavabını da alırlar, 15-də... Amma bəzən belə hesablamaların sonu DTX-dən keçir...***

***

Noyabrın 15-dən ölkədə istilik sisteminin verilməsi həyata keçirilir. Yəni, noyabrın 15-dən soyuq olan evlərimiz artıq isinməyə başlayıb.

***P.S. Bəs görəsən, bu istilik sistemi bəzi məmurların buz kimi olan ürəklərini də isidəcəkmi?***

***

Məlumatlara görə, Kəbəyə həcc ziyarətinə gedən bir qadın sosial mediada maraqlı video paylaşıb ki, bu da tənqidlərə məruz qalıb. Deməli, bu qadın ziyarət zamanı digər xanımların 3 gənc oğlanın yaraşığına heyran qaldıqları belə bir söhbəti eşidib: "Təvaf edərkən 3 gənc oğlan gördüm. Yəqin ki, basketbolçudurlar. O qədər yaraşıqlı idilər ki... Tövbə, ətağafurullah...".

***P.S.Hımmm... Maraqlı "tema"dır. Mollaların dediklərinə görə, o dünyada cənnətə düşən kişiləri 14-15 yaşlarında huri-mələk qızlar qarşılayır. Burada cənnətin nə və necə olduğunu o kişilərə ayəni surətdə göstərirlər. Amma cənnəti haqq etmiş qadınları gənc, yaraşıqlı oğlanların qarşılaması barədə heç nə deyilmir ki, bu da ədalətsizlikdir. Ona görə də müqəddəs Kəbə ziyarətində 3 yaraşıqlı, gənc oğlanları görən kimi, bu qadınlar hayıl-mayıl olaraq, özlərini cənnətdə hiss ediblər. Bu səbəbdən də burada tənqid olunası heç nə yoxdur. Həmin qadınların kişilər kimi cənnətdə kef eləməsi onların tam dini və qanuni həm də konstitusion hüququdur.***

***

DİN-dən verilən xəbərdə deyilir ki, noyabrın 14-dən 15-nə keçən gecə Mərdəkanda 90 TK 444 dövlət qeydiyyat nişanlı "Rənc Rover"in sürücüsü 1978-ci il təvəllüdlü Ramil Hüseynov adı piyadanı vurub. Həmin şəxs elə hadisə yerindəcə həyatını itirib.

***P.S. Əgər maşın "Rənc Rover"dirsə, albəttə, adamı vurar da, hələ üstündən də keçər... Ağzında çox bahalı "Rənc Rover" deyirsən axı... "Jiquli" və ya 1990-cı illərin «Mersedes»-zadı olsaydı, sürücü indi dəmir barmaqlıqlar arxasından baxırdı... "Rənc Rover"in sürücüsü barədə isə, istintaq hərəkətləri davam etdirilir. Deməli, "Rənc Rover"in adı açıqlanmayan sürücüsü, heç nə olmamış kimi, azadlıqda yaşamaqda davam edir və yəqin ki, yeni qurban(lar) axtarışındadır. Axı bu, "Rənc Rover"dir və 444 olan bərk gedən, bahalı nömrə də gəzdirir...***

***

Müğənni Eyyub Yaqubov bacısı oğlu Nağının müğənni kimi fəaliyyətə başlaması münasibətilə təqdimat edərək, belə deyib: "Bizim ailədə istedad irsidir. Nağı həm oxuyur, həm də musiqi bəstələyir. Bizim borcumuz istedadlılara kömək etməkdir. Həyasızlar onsuz da, özlərinə yol tapırlar. Mən inanıram ki, Nağı bu sənətdə öz sözünü deyəcək".

***P.S. Həəə... Deməli, şou biznes bazarına, dayısının hesabına, bir bacı oğlu da daxil olur. Özü də bu bazarda nə qədər desən saxta səslər, mallar, geni dəyişdirilmiş məhsullar, süni yığılmış sinələr, dodaqlar... satılır. Hələ həyasızlıq və abırsızlıq edərək, özlərini açıq bazara çıxaranları demirəm. İndi belə bir bazara Eyyub Yaqubovun bacısı oğlu da daxil olur. Görəsən, E.Yaqubovun təbirincə desək, o hansı həyasızlardır ki, şou biznes bazarını epoxaya döndəriblər? Təbii ki, müğənni ad çəkmir. Bələləri birdir, ikidir məgər? Bir məqamı da qeyd etmək istərdim. Yəqin Eyyub bəy unudub ki, bu epoxaya dönmüş şou biznes bazarında istedad, səs, bacarıq yox, həyasızlıq, abırsızlıq, yaxşı soyunmağı bacarmaq və sponsor lazımdır. Vəssalam, şüttamam...***

Aktrisa sayılan Sonaxanım Əliyeva bir TV verilişdə bildirib ki, o da burnunu plastik əməliyyat etdirməyə hazırlaşır.

***P.S. İşimiz var də, mən ölüm. Deməli, inkubator cücəsinin biri də artacaq. Mən də deyirəm, niyə bu şou əhli xanımların hamısı ağıldan-kamaldan birbirinə oxşayır. Çünki onlar üzdən, gözdən, qaşdan, dodaqdan, sinədən və... hər yerindən, inkubator cücələri kimi bir-birinə oxşayırlar axı...***





Müğənni sayılan və efirdən "evli kişidən uşaq dünyaya gətirmişəm" deyən Ülviyyə Namazova "Rəngarəng" verilişində plastik əməliyyatlardan danışarkən belə deyib: "Burda gizlədiləsi bir şey yoxdur. Demək olar səsimdən başqa hər yerim əməliyyatla düzəlib. Bir səsimdir ki, onu da Allah verib".

***P.S.Həəə... Deməli, bu Ülviyyə xanımın səsindən başqa hər yeri əməliyyatla "zbor" yığılıb. Özünün dediyi kimi, səsi Allah verib, amma guya bədən əzalarını Allah yaratmayıb. Neynək, qoy olsun. Bədəndə əzaları olduğu üçün Ülviyyə xanım onları, Allahın yaratdığının ziddinə gedərək, əməliyyat etdirib. Amma səsi ona görə əməliyyat etdirməyib ki, o yoxdur. Olmayan səsi necə əməliyyat etmək olar axı?***



**ELÇİN**
elcinmemmedli
58@gmail.com


**Baş redaktor:**
**Asif Mərzili**

*Redaksiya heyəti:*
Bəxtiyar Vahabzadə
(www.Vahabzade.net)
Məmməd Araz
Nurəddin Rza
İlham Rəhimov
Yaşar Əliyev
Yusif Səmədov
Adil Minbaşı

Qəzet "Təzadlar"ın kompüter mərkəzində yığılıb səhifələnib.
Ünvan: Bakı, Mətbuat prospekti, 529-u məhəllə
Tel: 510-17-74
E-mail: tezadlar@gmail.com
www.tezadlar.az
TƏSİSÇİ: Redaksiyanın jurnalist kollektivi.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Yazılardakı faktlara cavabdeh müəlliflərdir. Əlyazmalar geri qaytarılmır.

Lisenziya: № B 216

"Təzadlar" qəzetinin hesab nömrəsi:
AZ80AIIB38070019441100467111
VÖEN: 1300456291

Bankın adı:
"Kapital Bank" ASC-nin 1 saylı Nəsimi rayon filialı
Kod: 200112
VÖEN: 9900003611
Müxbir hesabı:
AZ37NABZ01350100000000001944
SWİFT BİK: AIIBAZ2X
Tiraj: 1233
Çapa imzalanmışdır:
17.11.2025